RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 253 (9420) 21 NOYABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

## Ümumxalq partiyası



Yeni Azərbaycan Partiyası yarandığı 30 ildən çox bir müddətdə milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin başlıca təminatçısı kimi çıxış etmiş, hər bir ölkə vətəndaşının maraqlarını uca tutmaqla xalqın dərin etimadını qazanmışdır.

Bu il anadan olmasının 100-cü ildönümünü qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı olan, onun ideyaları işığında təşəkkül taparaq formalaşmış bu güclü siyasi təşkilat dövlətimizlə birgə güclənmiş, boy atıb inkişaf etmişdir. Müstəqillik illərində Azərbaycanın qazandığı nailiyyətlərin hər birində bu partiyanın böyük rolu var.

→ 14

# Bizim böyük planlarımız var

◆İraq Prezidenti Əbdüllətif Camal Rəşidin Azərbaycana rəsmi səfəri



**İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid noyabrın 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

→ 2-3

## Azərbaycanda qadın hüquqlarının təmin olunması daim diqqət mərkəzindədir

### Qoşulmama Hərəkatının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda Konfransının iştirakçılarına

Hörmətli konfrans iştirakçıları,

Qoşulmama Hərəkatının tarixində ilk dəfə olaraq "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda keçirilən Konfransda sizi salamlayıram.

Üzv dövlətlərin yekdil qərarı ilə Azərbaycan 2019-cu ildə BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatının sədri seçilmişdir. Sədrliyimizin müddətinin yekdilliklə 2023-cü ilə qədər bir il daha uzadılması Azərbaycanın Hərəkat çərçivəsində fəaliyyətinə verilən yüksək qiymətin göstəricisidir. Biz ölkəmizə olan bu etimadı yüksək qiymətləndiririk.

Azərbaycan sədrliyi dövründə Bandunq Prinsiplərinə sadiq qalaraq Qoşulmama Hərəkatının gündəliyinin irəlilədilməsi və beynəlxalq aləmdə nüfuzunun artırılması istiqamətində mühüm səylər göstərmişdir.

Qeyd etmək lazımdır ki, məhz Qoşulmama Hərəkatı COVID-19 pandemiyasına qarşı qlobal səylərin səfərbər olunmasında aparıcı rol oynamışdır. 2020-ci ilin dekabr ayında Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyası təşkil edilmişdir.

Biz bəzi ölkələrin yürütdüyü "vaksin milliyyətçiliyi" siyasətinə səssiz qalmadıq və vaksinlərin ədalətli şəkildə bölüşdürülməsini təşviq etdik. Humanist dəyərləri əsas götürərək Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatına üzv dövlətlər olmaqla 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım göstərdi. Bununla yanaşı, bu il Azərbaycan Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərində pandemiyanın fəsadlarının aradan qaldırılması məqsədilə maliyyə vəsaitinin ayrılması barədə qərar qəbul etdi.

Sədrliyimiz dövründə Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində də mühüm addımlar atılmışdı. Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Qoşulmama Hərəkatının Gənclər Təşkilatı təsis edilmişdir. Bu ilin iyul ayında Hərəkatın Bakıda keçirilmiş konfransı zamanı Qoşulmama Hərəkatının Qadınlar Platformasının yaradılması təklifi tərəfimdən irəli sürülmüşdür.

Həmçinin Azərbaycan sədrliyi dövründə dekolonizasiya gündəliyinə xüsusi diqqət ayırmışdı. Biz bəzi ölkələr, xüsusilə də Fransanın yürütdüyü neokolonializm siyasətini qlobal səviyyədə ifşa etmiş, bu utancverici praktikaya son qoyulması tələbini səsləndirmişik.

Kolonializm qadınların hüquqlarına da mənfi təsir göstərmişdir. Bu xüsusda, konfransa paralel olaraq müvafiq mövzuda tədbirin keçirilməsini alqışlayıram.

Qadınların hüquqlarının müdafiəsi, cəmiyyətdə rolunun gücləndirilməsi Qoşulmama Hərəkatının gündəliyində önəmli yer tutur. Hərəkat tərəfindən ardıcıl olaraq qəbul edilmiş sənədlərdə, o cümlədən 2019-cu il Bakı Zirvə toplantısının yekun sənədində bu mövzuya xüsusi diqqət yetirilmiş və bu sahədə üzv dövlətlərin öhdəlikləri müəyyən edilmişdir.

Qadınların ictimai, siyasi, sosial və humanitar sahələrə, o cümlədən elm və maarifçiliyin inkişafına verdikləri böyük töhfələr danılmazdır. Əsrlər boyu Azərbaycan qadınları zəngin mədəniyyətimizin, ənənələrimizin və ailə dəyərlərimizin qorunmasında, milli köklərinə sadiq nəslin yetişdirilməsində vacib rol oynayıblar. Hələ 1901-ci ildə müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb məhz Bakıda açılmışdır. Azərbaycan əksər Avropa ölkələrini qabaqlayaraq 1919-cu ildə müsəlman dünyasında qadınlara səsvermə hüququ verən ilk respublika olmuşdur.

Azərbaycanda qadın hüquqlarının təmin olunması və onların cəmiyyətdə və dövlət idarəçiliyində rolunun artırılması daim diqqət mərkəzindədir. Bu gün də Azərbaycan qadınları elm, təhsil, səhiyyə, incəsənət və digər sahələrdəki əzmkar və çoxşaxəli fəaliyyətləri ilə ölkəmizin rifahına və tərəqqisinə dəyərli töhfələr verirlər. Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin 63 faizini qadınlar təşkil edir. Dövlət tibb müəssisələrinin tibbi kadrlarının 70 faizi qadındır. Yerli özünüidarəetmə orqanlarında qadınların təmsilçiliyi 40 faizdir. Dövlət tərəfindən özünüməşğulluq proqramlarına göstərilən dəstək tədbirləri nəticəsində fərdi sahibkar qadınların sayı artmaqdadır.

Torpaqlarımızın Ermənistanın 30 illik işğalından azad olunması, tarixi Zəfərin qazanılması Azərbaycan qadınlarının vətənpərvərlik ruhunda tərbiyə etdiyi oğulların sayəsində mümkün olmuşdur.

Hazırda Azərbaycanın sosial-iqtisadi inkişafının əsas prioritetlərindən biri işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışı təmin etməkdir. Bu xüsusda, dədə-baba yurdlarına qayıdan keçmiş məcburi köçkün qadınlara iş imkanlarının yaradılması istiqamətində tədbirlər həyata keçirilir.

Qoşulmama Hərəkatı qadınların hüquqlarının müdafiəsi sahəsində vacib rol oynamaq imkanına malikdir. Qoşulmama Hərəkatının Qadınlar Platformasının təsis edilməsi bu istiqamətdə fəaliyyətə müsbət təkan verəcəkdir.

Qoşulmama Hərəkatına sədrliyimizin sonu yaxınlaşmaqdadır. Böyük qürur hissi ilə qeyd edirəm ki, Azərbaycan Qoşulmama Hərəkatının ən gənc üzvlərindən biri olmasına baxmayaraq, sədrliyi təhvil alacaq növbəti ölkələrə uğurlu miras qoyacaqdır. Ölkəmiz bundan sonra da Qoşulmama Hərəkatının məqsədlərinin və məramının beynəlxalq səviyyədə təşviq edilməsi istiqamətində səylərini davam etdirəcəkdir.

Əminəm ki, bu əlamətdar konfrans qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması ilə bağlı səmərəli fikir mübadiləsinin aparılması üçün əhəmiyyətli platforma rolunu oynayacaq və bu sahədə birgə fəaliyyətin aparılması üçün Qoşulmama Hərəkatının tarixində yeni bir dövrün başlanğıcının əsasını qoyacaqdır.

Konfransın işinə uğurlar və qonaqpərvər Bakı şəhərində xoş vaxt keçirməyi arzu edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2023-cü il*



## İşğalçının zəncirlənməsi

**Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə 44 günlük Vətən müharibəsində möhtəşəm zəfər çalmadı.**

**Həm də müharibənin gedişini, dəqiq zərbələrlə düşmən obyektlərinin, zirehli texnikasının və canlı qüvvəsinin necə məhv edildiyini televiziya vasitəsilə xalqımıza nümayiş etdirdi.**

*Sonra isə Bakıda Hərbi Qənimətlər Parkı yaradaraq məhv edilən və qənimət götürülən düşmən silahlarını, zirehli texnikasını, tank və raketlərini hamının görməsinə imkan yaratdı.*

Açıq havada muzey kimi fəaliyyət göstərən bu parkda düşmənin altıqatlı müdafiə mövqe və xətləri, yeraltı bunkerləri, səngər və atəş nöqtələri olduğu kimi yaradılmışdır.

*Ən maraqlı eksponatlardan biri Azərbaycan Ordusunun sürətli və qətiyyətli hücumları qarşısında qorxub qaçmasın deyə komandirləri tərəfindən zəncirlə səngərə bağlanan erməni əsgərlərinin mumdan hazırlanmış müqəvvaları idi.*

→ 7

## Bakıda "Gömrük biznes forumu 2023"ün açılış mərasimi keçirilib

Azərbaycanda fəaliyyət göstərən yerli və xarici şirkətlərin nümayəndələrinin, aparıcı media qurumlarının rəhbərləri və digər rəsmi şəxslərin iştirak etdiyi forum Ulu Öndər Heydər Əliyevin Dövlət Gömrük Komitəsinin 1997-ci il yanvarın 30-da keçirilmiş beşillik yubiley tədbirində söylədiyi proqram xarakterli nitqindən hazırlanmış videoçarxın nümayişi ilə başlayıb.

→ 5

## Birgə mətbuat brifinqi

Silahlı Qüvvələr tərəfindən həyata keçirilən antiterror tədbirlərindən sonra Qarabağda aşkar edilmiş Ermənistanın qeyri-qanuni hərbi fəaliyyəti və planlaşdırdığı növbəti hərbi cinayətlərə dair yeni faktlarla bağlı Xarici İşlər Nazirliyinin və Müdafiə Nazirliyinin birgə mətbuat brifinqi keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, brifinqdə Azərbaycanda akkreditə olunmuş diplomatik korpus, hərbi attaşelər, habelə yerli və beynəlxalq media nümayəndələri iştirak ediblər.

→ 5

## Avropa ilə Asiya arasında yolları qısaldan polad magistral

### Bakı-Tbilisi-Qars dəmir yolunun təməlinin qoyulmasından 16 il keçir

→ 15

## Daha 25 ailə Zabuxa qayıtdı

### Böyük qayıdış sürətlə gerçəkləşir

Ötən il Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən Böyük qayıdışla bağlı 2022-2026-cı illəri əhatə edən Dövlət Proqramının əsas hədəfi ilk beş ildə 34 min 500 ailəni azad edilmiş ərazilərə köçürməkdir. Bu istiqamətdə tədbirlər uğurla və mərhələli şəkildə həyata keçirilir.

→ 15

## İraq Prezidenti Əbdüllətif Camal Rəşidin Azərbaycana rəsmi səfəri

# Bizim böyük planlarımız var

## Rəsmi qarşılanma mərasimi



**Azərbaycan Respublikasına rəsmi səfərə gələn İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin noyabrın 20-də rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İraq Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev İraq Prezidenti Əbdüllətif Camal Rəşidi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İraq Prezidentinə raport verdi.

Prezident Əbdüllətif Camal Rəşid Azərbaycan əsgərlərini salamladı.



Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İraq Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti İraq Prezidentinə, İraq nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və İraq Prezidenti Əbdüllətif Camal Rəşidin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Təkbətək görüş

**Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə təkbətək görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İraq Prezidentinin Qoşulmama Hərəkatının Zirvə toplantısı çərçivəsində Azərbaycana səfərini və keçirdikləri görüşü məmnuniyyətlə xatırladı. İraq Prezidentinin ölkəmizə ilk dəfə rəsmi səfərə gəlməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev bu səfərin və səfər zamanı aparılacaq müzakirələrin ölkələrimiz arasında əlaqələrin daha da inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı İqtisadi-ticari, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın yaxın vaxtlarda İraqda iclasının keçiriləcəyini və onun iqtisadi-ticari əlaqələrin daha da genişlənəcəyində mühüm rol oynayacağını dedi.



İraq Prezidenti Azərbaycan ilə əlaqələrin daha da inkişafında əzmli olduqlarını vurğuladı, səfər çərçivəsində imzalanacaq sənədlərin əlaqələrimizin genişlənməsinə böyük töhfə verəcəyini bildirdi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birinin mövqelərini dəstəklədiyi məmnunluqla vurğulandı, Azərbaycanın və İraqın işğaldan əziyyət çəkdiyi, amma bu vəziyyətin keçmişdə qaldığı qeyd edildi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadiyyat, energetika, mədəniyyət, elm, təhsil və turizm sahələrində əməkdaşlıq məsələlərinin inkişafı üçün əlverişli imkanların olduğu bildirildi.

## Azərbaycan və İraq prezidentlərinin geniş tərkibdə görüşü olub



**Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Cənab Prezident, hörmətli qonaqlar, bir daha Azərbaycana xoş gəlmisiniz.

Biz artıq cənab Prezidentlə əməkdaşlığımız, regionlarımızda siyasi proseslərlə bağlı müxtəlif məsələlərə dair çox yaxşı müzakirə apardıq. İndi isə biz nümayəndə heyətlərinin iştirakı ilə vacib məsələlərin müzakirəsini davam etdirəcəyik. Gələn ay bizim nümayəndə heyəti birgə iqtisadi komissiyada iştirak etmək üçün İraqa səfər edəcək. Biz artıq ticarət, iqtisadi və enerji gündəliyimizlə bağlı məsələləri qismən müzakirə etdik.

Beləliklə, ilk növbədə, biz cənab Prezidenti Azərbaycana rəsmi səfərdə qəbul etməkdən çox şadıq. Bu, ikitərəfli əlaqələrimizin tarixində çox əlamətdar hadisədir. Bu, Azərbaycan müstəqil ölkə olandan bəri İraq Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, səfər çox yaxşı nəticələr verəcək. Beləliklə, indi biz iqtisadi-ticari əməkdaşlıqla bağlı mühüm məsələlərin müzakirəsini davam etdirəcəyik. Əminəm ki, bu həmçinin gələn ay Bağdadda keçiriləcək görüşün yaxşı nəticələrinə müsbət töhfə olacaq. Cənab Prezident, bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

**Prezident Əbdüllətif Camal Rəşid** çıxış edərək dedi:

- Təşəkkür edirəm, cənab Prezident, Sizi görmək hər zaman xoşdur. Əlaqələrin gücləndirilməsi, ticarət, siyasət, eləcə də beynəlxalq məsələlərə dair Sizdən məsləhət almaq çox yaxşı haldır. Biz iki ölkə arasında əlaqələrimizi daha da gücləndirməkdə çox qətiyyətliyik. Gələn ay sizin nümayəndə heyətini qəbul etməyi gözləyirik və ümidvaram ki, o, çox səmərəli olacaq. Azərbaycana bütün səfərlər səmərəli olur. Bu gün bizim nümayəndə heyətlərimiz iki ölkə arasında bəzi anlaşma memorandumlarının imzalanmasına hazırdırlar.

## Azərbaycan-İraq sənədləri imzalanıb



**Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və İraq Respublikasının əmək və sosial işlər naziri Əhməd Cassim Sabir Əl-Əsədi "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İraq Respublikasının Əmək və Sosial İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və İraq Respublikasının Turizm Xidmətinin rəisi Zafer Mahdi "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə İraq Respublikasının Mədəniyyət, Turizm və Tarixi Abidələr Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və İraq Respublikasının xarici işlər nazirinin müavini Məhəmməd Hüseyn Bəhr Əl-Ulum "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İraq Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və İraq Respublikasının Mülki Aviasiya Baş İdarəsinin rəisi İmad Əl-Əsədi "Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i imzaladılar.

## İraq Prezidenti Əbdüllətif Camal Rəşidin Azərbaycana rəsmi səfəri

# Bizim böyük planlarımız var

## Azərbaycan və İraq prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər





**Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi yenidən görməyə çox şadam. İraq Prezidenti ölkəmizə bu ilin əvvəlində Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı səfər etmişdi və görüşümüz zamanı mən cənab Prezidenti Azərbaycana rəsmi səfərə dəvət etmişdim. Çox minnətdaram ki, dəvətim qəbul olundu və Prezident bizim qonağımızdır.

Əminəm ki, bu səfər ölkələrimiz arasında dostluq münasibətlərinin güclənməsinə töhfə verəcək və əməkdaşlığımızda yeni səhifə açacaq. Yeri gəlmişkən, bu, diplomatik əlaqələr tarixi boyunca İraq Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Ona görə də bu, tarixi səfərdir.

Biz təkbətək görüşümüz zamanı və nümayəndə heyətləri ilə görüşdə ikitərəfli gündəliyimizin bir çox məsələlərini müzakirə etdik, faktiki olaraq gələcək əməkdaşlığımız üçün əsas istiqamətləri müəyyənləşdirdik. Biz, sözsüz ki, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləməyə davam edəcəyik. İraq və Azərbaycan müxtəlif beynəlxalq təsisatlarda hər zaman həmrəylik nümayiş etdirir. Biz BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında hər zaman bir-birimizi dəstəkləyirik, bir-birimizin suverenliyini və ərazi bütövlüyünü müdafiə edirik.

Cənab Prezident qonşu Ermənistana da səfər edəcək. Ona görə də mən fürsətdən istifadə edərək iki ölkə arasındakı hazırkı vəziyyətlə bağlı qonağımı məlumatlandırmaq istəyirəm. Əlbəttə, hazırda baş verənlərin dəqiq təhlili üçün bizim hamımız keçmişimizə, 1990-cı illərin əvvəlində nə baş verdiyinə nəzər salmalıyıq.

1990-cı illərin əvvəlində Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, bu, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən 20 faizinin işğalı ilə nəticələndi, etnik təmizləmə siyasəti həyata keçirdi ki, bu da bir milyondan çox azərbaycanlının keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və ətraf rayonların ərazisindən fiziki qovulması ilə nəticələndi.

Beləliklə, qeyd etdiyim kimi, bu, ərazimizin təqribən 20 faizini təşkil edirdi və uzun illər ərzində onlara məxsus olmayan ərazini geri qaytarmaqdan imtina edirdi. Faktiki olaraq sıfır nəticələrə gətirib çıxarmış müxtəlif beynəlxalq vasitəçilik səylərinə baxmayaraq, Ermənistan bizim torpaqlarımızı həmişəlik işğal altında saxlamaq istəyirdi. Mandatı işğala son qoymaq üçün həll yolu tapmaqdan ibarət olan ATƏT-in Minsk qrupu yaradılandan 28 il sonra Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazilərini özü döyüş meydanında, hərbi gücdən və BMT Nizamnaməsinin özünümüdafiə hüququna dair 51-ci maddəsi ilə bizə verilmiş qanuni imkandan istifadə edərək işğaldan azad etdi.

Biz ümid edirdik ki, bundan sonra Ermənistan öz öhdəliklərinə əməl edəcək və hərbi kontingentinin qalan hissəsini Azərbaycan ərazisindən çıxaracaq, lakin bu baş vermədi. Biz, demək olar ki, 3 il çox səbirli olduq, Ermənistanla birbaşa təmaslarımız, beynəlxalq vasitəçilər vasitəsilə mesaj göndərməyə çalışdıq ki, bu, qəbuledilməzdir, biz hətta Azərbaycanın kiçik bir hissəsində qanunsuz separatçı rejimin olmasına imkan verə bilmərik. Qeyd etdiyim kimi, işğal olunmuş ərazilərin böyük hissəsi 2020-ci ildə azad edilmişdi. Əfsuslar olsun ki, Ermənistan hökuməti bizə qulaq asmadı, Qərbdəki məsləhətçilərinə qulaq asdı. O məsləhətçilər isə onlara yaxşı məsləhət vermədilər. Əfsuslar ki, onların məsləhəti hərbi kontingenti bizim ərazimizdə mümkün qədər çox saxlamaqdan ibarət oldu.

Bizim səbrimiz bu ilin sentyabrında tükəndi və biz beynəlxalq hüquqa tam riayət edərək öz suveren ərazimizdə antiterror əməliyyatını apardıq. Bu əməliyyat 24 saatdan az davam etdi və mülki əhali arasında itkilər olmadı. Düşünürəm ki, indi Yaxın Şərqdə müşahidə etdiklərimizə münasibətdə bu antiterror əməliyyatı mülki əhali arasında hərbi əməliyyatları itkisiz necə aparmaq lazımdır nöqteyi-nəzərdən bir örnək hesab olunmalıdır.

Bunun nəticəsində Dağlıq Qarabağdakı qeyri-qanunu rejim süquta uğradı. Onun qeyri-qanuni olmasına baxmayaraq, onlar özləri "dağlıq qarabağ respublikası" adlandırdıqları bu qeyri-qanuni qurumu buraxdılar. Biz suverenliyimizi bərpa etdik və indi Azərbaycan Bayrağı ərazimizdə hər yerdə dalğalanır.

Beləliklə, bu, vəziyyətin tarixçəsidir. İndi isə biz növbəti mərhələyə gəlirik. Növbəti mərhələdə isə biz, - mən bunu cənab Prezidentə bildirdim, - Ermənistandan təklifimizə dair qeydləri gözləyirik. Biz bir neçə dəfə sülh müqaviləsinin layihəsi ilə bağlı təklifləri mübadilə etmişik. Lakin indi biz sentyabrın 11-dən bəri Ermənistan hökumətindən bu qeydlərlə bağlı rəyinin nədən ibarət olduğuna dair cavab verməsini iki aydan artıqdır ki, gözləyirik və bizə heç bir cavab gəlməyib.

Yenə də bunun səbəbinin onlara pis məsləhətlərin, xüsusilə Fransadan pis məsləhətlərin verilməsinin olduğunu düşünürəm. Fransa Cənubi Qafqazda çox destruktiv rol oynayır. Əslində, indi Ermənistan Fransa hökumətinin marionetinə çevrilib və bu, regional sabitliyə ciddi təhlükə ola bilər. Bizə heç bir müharibə lazım deyil. Biz öz ərazimizdə vuruşurduq və ədaləti, beynəlxalq hüquqi bərqərar etdik. Lakin Ermənistan hökuməti və siyasi establişmenti qisas haqqında düşünür. Fransa hökumətindən gələn yanlış mesajlar, əslində, Ermənistan hökumətində və ola bilsin, ictimai rəyində onların Azərbaycana qarşı növbəti hərbi təcavüzə başlaya biləcəklərinə dair illüziya yaradır. Ermənistanı silahlandırmaqla, hansı ki, Fransa qürur duyur və bunu ictimai şəkildə bildirir, Ermənistan yeni bir müharibəyə başlamaq qərarı versə, bu ona kömək etməyəcək. Nəticə eyni olacaq. Heç kəs onlara kömək etməyəcək. Üç il bundan əvvəl Fransa onlara kömək etdi? Xeyr. İki ay bundan əvvəl onlara kömək etdi? Xeyr. Onlar burada nə edə bilərlər. Heç nə.

Odur ki, Ermənistan öz gələcəyini regionumuzdan uzaqda yerləşən ölkələrin ambisiyaları üzərində deyil, öz milli maraqlarına əsasən planlaşdırmalıdır. Xüsusilə qanlı müstəmləkə keçmişinə malik olan ölkələrin ambisiyaları üzərində qurmamalıdırlar. Bunların müstəmləkə siyasəti əsasən dünyanın müxtəlif yerlərində müsəlman əhalisinə qarşı yönəlmişdir.

Hesab edirəm ki, qeydlərimiz ilə bağlı Ermənistandan nə qədər tez cavab alsaq, bir o qədər də yaxşı olar. Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz. Ermənistan indi dünyanın müxtəlif yerlərində olan diaspor təşkilatlarından Azərbaycana hər yerdə hücum etmək üçün istifadə edir. Lakin onlar üçün bu, sıfır nəticə verəcək. Biz sülhə hazırıq, lakin ədalətli sülhə, hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında olan sülhə. Biz sağlam düşüncəyə və tarixi ədalətə əsaslanan sülhə hazırıq. Beləliklə, mən həmkarımı bu barədə məlumatlandırdım ki, Cənubi Qafqazda real vəziyyəti daha yaxşı anlamaq mümkün olsun.

Bizim ikitərəfli əlaqələrimizə gəldikdə demək istəyirəm ki, biz iqtisadi əməkdaşlıq məsələsini geniş şəkildə əhatə etdik. İki həftədən sonra nümayəndə heyətimiz hökumətlərarası komissiyanın yeni iclasının keçirilməsi üçün Bağdada səfər edəcək. Bizim qarşılıqlı ticarətin necə artırılması ilə bağlı böyük planlarımız var. Həmçinin bu gün enerji sahəsində əməkdaşlıq məsələsini də müzakirə etdik. Növbəti ay nümayəndə heyətimizin səfəri zamanı bu məsələ yenə müzakirə olunacaq.

Biz müdafiə sənayesi, turizm sahələrində əməkdaşlıq imkanlarını müzakirə etdik. Artıq bizə bu gün nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə məlumat verildi ki, iki paytaxt arasında birinci birbaşa uçuş baş tutub. Növbəti həftələrdə bizim Kərkük, Ərbil və Bəsrə şəhərlərinə də birbaşa reyslərimiz olacaq. Biz hər iki istiqamətdə çox sayda turistlərin səyahət edəcəyini gözləyirik. Əlbəttə ki, biz vizaların verilməsi prosesini sadələşdirmək üçün növbəti hansı addımların atılmasını da müzakirə etdik. Əminəm ki, səfərin nəticələri çox yaxşı olacaq. Biz bir daha ölkələrimiz arasında dostluq münasibətlərinin olduğunu təsdiq etdik. Dialoqumuzun davam etdirilməsi əminəm ki, yeni yaxşı nəticələrə gətirib çıxaracaq və bizim əməkdaşlıq güclənəcək. Bir daha, cənab Prezident, xoş gəlmisiniz və bizimlə bir yerdə olduğunuz üçün Sizə təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra İraq Prezidenti bəyanatla çıxış etdi.

### Prezident Əbdüllətif Camal Rəşidin bəyanatı

- Cənab Prezident, hörmətli həmkarlar, xanımlar və cənablar!

Burada olmağa çox şadam. Bu mənim cənab Prezidentin nəzakətli dəvəti ilə Azərbaycana ikinci səfərimdir. Bizi buraya dəvət etdiyiniz üçün Sizə təşəkkür edirəm.

Düşünürəm ki, səfərimiz çox səmərəli və çox faydalı oldu. Əməkdaşlığımız keçmişdəkindən daha da güclü olmaq üzrədir. Biz bir çox fəaliyyət sahələrində - infrastrukturun inşası, ticarət, neft və qaz, transmilli layihələr, eyni zamanda İraqa investisiyalar, eləcə də turizm və təhsilin, həmçinin iki ölkə üçün çox əhəmiyyət kəsb edən sahələrin təşviqi ilə bağlı əməkdaşlıq edə bilərik.

Cənab Prezident, icazə verin, Sizə yeni İraqı qısaca təsvir edim, mən onu yeni İraq adlandırıram. Əminəm ki, zati-aliləri bizim tariximizi, uzun müddət ərzində diktatorluq dövründə, xalq tərəfindən sevilməyən müxtəlif hökumətlər, hərbi hökumətlər, eyni zamanda, birpartiyalı hökumətlər və ya bir şəxsin hökuməti dövründə çəkdiyimiz əziyyətləri bilir. Bu, xeyli müddət davam etdi və bizdə daxili münaqişələrə, bəzən müharibələrə, İraqdakı icmalar arasında, icmalar və hökumət arasında toqquşmalara, İraqla qonşu ölkələrimiz arasında müharibəyə, hətta beynəlxalq ictimaiyyətə meydan oxumağımıza səbəb oldu. İraqın davranışı beynəlxalq ictimaiyyət və qonşularımız tərəfindən qəbul edilmirdi. Bu da İraqın işğalına gətirib çıxardı və eyni zamanda işğaldan sonra biz terror hücumlarından əziyyət çəkdik. Sonuncu terror hücumları İŞİD-in İraq əhalisinə, İraq şəhərlərinə və İraq mərkəzlərinə hücumları oldu.

Lakin bunun keçmişdə qaldığını Sizə məlumat verməkdən şadam. İraq yaxşı, sağlam vəziyyətdədir. Bizdə sülh, təhlükəsizlik hökm sürür, eyni zamanda xalq tərəfindən seçilmiş hökumət var. Geniş parlament fəaliyyətimiz var, İraq parlamentinin üzvlərinin ümumi sayı 330 nəfərdir. Biz hökuməti seçmişik və İraq Prezidentini seçmişik. Bu dövr ərzində, baxmayaraq ki, bu qənaətə gəlmək çox vaxt apardı, bu, İraq dövləti üçün faydalı oldu. Çünki biz bu qərarları İraqdakı müxtəlif millətlərlə, müxtəlif dinlər və müxtəlif siyasi partiyalarla dialoq, anlaşma və əməkdaşlıq sayəsində verdik. Onların hamısı bu nəticəyə nail olunmasına öz töhfəsini verdi.

Qeyd etdiyim kimi, hökumət bir il bundan əvvəl formalaşdırılıb və Prezident hökumət seçiləndən əvvəl seçilib. Bizim parlamentimiz bir ildir ki, fəaliyyət göstərərək İraqdakı məsələlərlə məşğul olur və hökumət ehtiyac olanları həyata keçirməyə çalışır.

Biz məsuliyyətimizi iki əsas hissəyə bölmüşük. Birincisi, infrastrukturumuzu inkişaf etdirmək, ikincisi, xidmətlərimizi yenidən qurmaq. Münaqişələr, müharibələr dövründə İraqdakı bütün infrastruktur zədələnmişdi və bütün xidmətlər geri qalırdı, ona görə də biz İraqın ehtiyacı olduğunu yenidən qurmağa, inkişaf etdirməyə və möhkəmləndirməyə çalışırıq.

İraqın iqtisadiyyatı yaxşıdır. Biz neft hasil edirik, bu, gündə 4-4,5 milyon barel təşkil edir. Bizim kənd təsərrüfatımız, su ehtiyatlarımız var. Düşünürəm ki, İraq iqtisadiyyatı indi yaxşı vəziyyətdədir və gələcəkdə hətta daha da yaxşı olacaq. Biz enerji, neft, kənd təsərrüfatı və digər sahələrlə bağlı çoxmillətli layihələrə start vermişik.

Hesab edirəm ki, bizim buraya səfərimiz faydalıdır və ümid edirik ki, bu səfərlər təkrarlanacaq. Çox şadam ki, Azərbaycan nümayəndə heyəti tezliklə İraqa səfər edəcək. Sizin də qeyd etdiyiniz kimi, cənab Prezident, biz yenə də əməkdaşlıq üçün və bir çox sahələrdə əməkdaşlığın başlanılması üçün zəruri olan bütün məsələləri müzakirə edəcəyik.

Hesab edirəm ki, İraqda biznes üçün və Azərbaycan üçün İraqda biznes imkanları ilə bağlı yeni bir mühit yaratmalıyıq. Cənab Prezident, Azərbaycanda sülh və sabitliyə nail olmağınız münasibətilə Sizi təbrik edirəm. Eyni zamanda Ermənistanla sülh müqaviləsinin yekunlaşdırılması məsələsində Sizə uğurlar arzulayıram. Düşünürəm ki, müharibə və münaqişələr yalnız vəziyyətin pisləşməsinə gətirib çıxara bilər. Bununla heç bir problem həll edilə bilməz. Hesab edirəm ki, bütün problemlərimiz dialoq, qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında həll olunmalıdır.

Əfsuslar olsun ki, bütün Yaxın Şərq regionu, - bu, hətta bütün dünyaya da təsir edib, - yeni münaqişədən, fələstinlilərin hüquqları ilə bağlı olan münaqişədən əziyyət çəkir. İraqın bu məsələdə mövqeyi çox aydındır. Biz bütün fələstinlilərin hüquqlarını tamamilə dəstəkləyirik, istər onlar Qəzza zolağının Qərb sahilində olsun, istər Qəzza zolağında və dünyanın başqa bir yerində olsun. Biz ümid edirik ki, fələstinlilər öz milli hüquqlarını tamamilə əldə edəcəklər və biz tezliklə fələstinlilərin öz dövləti olacağına da ümid edirik.

Bu münaqişə real olaraq həll olunmazsa, bütün regionda gərginlik qalacaq, sülhə və sabitliyə nail olunmayacaq. Biz Fələstin xalqının dərdinə şərikik və Fələstin xalqını dəstəkləyirik. İraqın bu məsələdə mövqeyi birinci gündən çox aydındır və biz beynəlxalq birliyi öz mövqeyimiz barədə məlumatlandırmışıq. Biz Qəzzada mülki əhaliyə hücum edib öldürülməsi, məktəb və xəstəxanaların, yaşayış binalarının və mülki infrastrukturun dağıdılması hallarını qınayırıq. Ümid edirəm ki, bu böhranlı vəziyyət tezliklə sona çatacaq və Fələstin xalqı öz torpaqlarında öz hüquqlarına yiyələnəcək.

Cənab Prezident, hesab edirəm ki, təfərrüatı ilə müzakirə edə biləcəyimiz bir neçə mövzu var, lakin mən bu razılaşmalara nail olmaq və ya mövcud olduğu halda açıq qalan problemləri həll etmək üçün bunu hər iki ölkədən olan müxtəlif nazirliklərin və təşkilatların öhdəsinə buraxıram.

Hər iki ölkə arasında əməkdaşlığın daha da yaxşılaşması məni sevindirir və biz Sizinlə əlaqə saxlayacaq və nümayəndə heyətinizi onlara münasib olan vaxtda və zəruri olduqda iki ölkə arasında birbaşa reyslər vasitəsilə nəqliyyat əlaqələrini qurmaqla qəbul etməyə və eyni zamanda Sizin təcrübənizdən faydalanmağa hazırıq.

Yekunda əldə etdiyiniz nailiyyətlər münasibətilə Sizi təbrik etmək istəyirəm. Mən təkcə Bakını görmüşəm, başqa yerləri görməmişəm. Lakin Bakıda infrastruktur, binalara və şəhərdə təşkilati məsələlərə münasibətdə gördüklərim əsasında Sizi təbrik edirəm. Bu, istənilən ölkə üçün heyrətamiz bir nailiyyətdir və siz hamınız Bakıda yaşamaqdan qürur hissi duymalısınız.

Bir daha, cənab Prezident, bizi dəvət etdiyinizə görə çox sağ olun. Sizin həmkarlarınızla bir yerdə vaxt keçirmək bizim üçün çox xoş idi. Bir daha Sizə ən xoş arzularımı çatdırır və gələcəkdə uğurlar diləyirəm.

## Azərbaycan Prezidentinin adından İraq Prezidentinin şərəfinə rəsmi nahar verilib



Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin şərəfinə rəsmi nahar verilib.

## Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət





**İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid noyabrın 19-da Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb.**

AZƏRTAC xəbər verir ki, Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid noyabrın 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 418 QƏRAR Bakı şəhəri, 18 noyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

"Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanının 5.2-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084, № 12, maddə 1566; 2023, № 8 (II kitab), maddə 1258; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 354 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 17-ci hissəsinə aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"17-3/ Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 419 QƏRAR Bakı şəhəri, 18 noyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189; 2022, № 7, maddə 811; 2023, № 4, maddə 583, № 7, maddə 1067) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın 3.8-ci bəndində "Azərbaycan Respublikası Prezidentinin Protokol xidməti" sözləri "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 420 QƏRAR Bakı şəhəri, 20 noyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 121 nömrəli Qərarı ilə təsdiq edilmiş "Atçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Polis haqqında", "Baytarlıq haqqında" və "Atçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 868-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Polis haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 11 noyabr tarixli 205 nömrəli, "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 22 noyabr tarixli 316 nömrəli, "Atçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 22 may tarixli 580 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 iyun tarixli 2174 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 121 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 444; 2014, № 2, maddə 201, № 7, maddə 942; 2015, № 2, maddə 230; 2017, № 5, maddə 964, №10, maddə 1911) ilə təsdiq edilmiş "Atçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bəndə "Kənd Təsərrüfatı Nazirliyi" sözlərindən sonra "və Qida Təhlükəsizliyi Agentliyi (baytarlıq (baytarlıq-sanitariya) qaydalarına riayət edilməsinə münasibətdə)" sözləri əlavə edilsin.
2. 2.2.1-ci yarımbənddə "müvafiq qanunvericiliyin, o cümlədən atçılığa dair normativ sənədlərin" sözləri "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən qaydaların, seleksiya nümunələri və damazlıq heyvandarlığın norma və qaydalarının" sözləri ilə əvəz edilsin.
3. 2.3-cü bənddə "baytarlıq-sanitariya" sözləri "baytarlıq (baytarlıq-sanitariya)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin deputatları və parlament Aparatının əməkdaşları "Heydər zirvəsi"nə yürüş ediblər

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü həm ölkəmizdə, həm də xarici ölkələrdə təntənəli şəkildə qeyd edilir. Azərbaycan Respublikasının Milli Məclisi də öz növbəsində Ulu Öndərin əziz xatirəsinə həsr olunmuş tədbirlər təşkil edir.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, "Heydər Əliyev İli" ilə əlaqədar həyata keçirilən tədbirlər çərçivəsində Milli Məclisin Sədr müavini Adil Əliyev, parlament Aparatının rəhbəri Fərid Hacıyev, deputatlar Sabir Hacıyev, Cəbi Quliyev, Əliabbas Salahzadə və Aparatın əməkdaşları Ruslan Hacıyev, Fərhad Vəliyev və Elman Aslanovdan ibarət bir qrup "Heydər zirvəsi"nə yürüş edib. Yürüş 18 noyabr tarixində Böyük Qafqazın Başdağ silsiləsinin Qızıl Qaya massivində, 3751 metr hündürlükdə yerləşən "Heydər zirvəsi"nə qalxmaqla yekunlaşıb. Zirvədə Ulu Öndər Heydər Əliyevin barelyefini ziyarət edərək, hörmət və ehtiramını ifadə edən yürüş iştirakçıları ağır hava şəraitinə və çətin relyefə baxmayaraq, yürüş zamanı qarşıya qoyulmuş məqsədə nail olmuşlar.

*"Azərbaycan"*

# *Lorens MAQUİABA:* "Qoşulmama Hərəkatının Bakı konfransı müxtəlif ölkələrin reallıqlarından danışmaq üçün mühüm platformadır"

**Qoşulmama Hərəkatının Bakıda keçirilən beynəlxalq konfransı burada təmsil olunan müxtəlif ölkələrin reallıqlarından danışmaq üçün mühüm platformadır.**

AZƏRTAC xəbər verir ki, bu sözləri "Qvadelupa Milli Alyansı" siyasi hərəkatının sözçüsü Lorens Maquiaba jurnalistlərə açıqlamasında söyləyib.



"Qadınların bərabər hüquqlar uğrunda mübarizə aparmaları ilə bağlı məsələləri müzakirə etmək üçün bu konfrans olduqca vacibdir. Dövlət idarələrində qadınların fəaliyyətindən, onların səlahiyyətlərinin geniş çərçivədə olmasından, hüquqlarının müdafiəsindən, həmçinin çətinlikləri və problemləri barədə danışaraq həll yollarının tapılmasına nail olmaq əsas mövzulardır. Azərbaycanın belə böyük və önəmli tədbirləri keçirməsi olduqca təqdirəlayiqdir", - deyə L.Maquiaba bildirib.

# "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfrans

## Sonda yekun Bəyannamə qəbul edilib






**Noyabrın 20-də Bakıda "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfrans öz işinə başlayıb. Konfrans Qoşulmama Hərəkatının hazırkı sədri qismində Azərbaycan Respublikası ilə yanaşı, təsisatın növbəti sədrləri kimi Uqanda və Özbəkistanın birgə təşkilatçılığı ilə keçirilir.**

AZƏRTAC xəbər verir ki, konfransda əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciəti səsləndirilib.

Müraciəti Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova oxuyub.

Tədbir Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun cari ilin iyul ayında nazirlər səviyyəsində təşkil edilən iclasında səsləndirdiyi təşəbbüsləri əsasında təşkil edilib. Konfransda Qoşulmama Hərəkatı çərçivəsində qadın hüquqlarının inkişaf etdirilməsi və qadınların səlahiyyətləndirilməsi, habelə onların dayanıqlı inkişaf, iqtisadi artım, sülh, təhlükəsizlik məsələləri və digər sahələrdəki önəmli rolu kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Konfransda Qoşulmama Hərəkatına üzv ölkələrin rəsmiləri, o cümlədən 15 nazir, həmçinin təsisat yanında müşahidəçi statusuna malik dövlətlərin, 10-a yaxın beynəlxalq təşkilatın nümayəndələri, həmçinin xüsusi qonaq qismində yüksəkvəzifəli rəsmi şəxslər də daxil olmaqla, ümumilikdə dünyanın 50-dən çox ölkəsindən nümayəndə heyətləri iştirak edir.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dönəmində öz vəzifəsinə böyük məsuliyyətlə yanaşıb, çoxsaylı üzvü olan təsisatın çoxtərəfli formatda əməkdaşlığının genişləndirilməsi üçün lazım olan bütün addımları atıb və bu, artıq öz töhfəsini verməkdədir.

"Azərbaycan Qoşulmama Hərəkatına üzv olduğu müddətdə bu təsisatın prinsiplərinə sadiqliklə yanaşı, onun institusional inkişafına və beynəlxalq müstəvidə nüfuz və rolunun daha da artmasına təkan verən bir sıra ideya və təşəbbüslərlə çıxış edib. Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının Sədri İlham Əliyevin liderliyi ilə təsisat inkişafının keyfiyyətcə yeni bir mərhələsinə qədəm qoyub. Bu ardıcıl fəaliyyəti sayəsində üzv ölkələrin dəstəyi ilə hərəkatdaxili proseslər sistemli xarakter alıb, hazırkı beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və təsir gücü möhkəmləndirilmiş bir təsisata çevrilmək yolunda mühüm nəticələr əldə edilib", - deyə Bahar Muradova vurğulayıb.

Komitə sədri Azərbaycanın COVID 19-la mübarizədə qlobal səylərin birləşdirilməsində mühüm rol oynadığını da diqqətə çatdırıb. Həmçinin bildirib ki, hərəkatın yeni yaradılmış Parlament şəbəkəsi və Gənclər Təşkilatı kimi təsisatları çoxtərəfli əməkdaşlığa ciddi töhfədir.

B.Muradova bildirib ki, konfrans qadın məsələlərinin beynəlxalq miqyasda yenidən gündəmə gətirilməsinə, onların hüquqlarının artırılması, səlahiyyətləndirilməsi məsələsinə böyük töhfə kimi qəbul oluna bilər. Qoşulmama Hərəkatının üzvləri olan ölkələrdə bu məsələlərə çox böyük önəm verilir.

Azərbaycanın Zəfərindən də danışan komitə sədri azad olunan ərazilərdə hazırda genişmiqyaslı quruculuq işləri həyata keçirildiyini, Böyük qayıdış planının reallaşdırıldığını bildirib, eyni zamanda Ermənistanın yaratdığı mina problemi barədə məlumat verib. O, bununla belə Azərbaycanın Ermənistana sülh gündəliyi təklif etdiyini xatırladıb.

Sonra BMT Baş katibinin birinci müavini Əminə Məhəmmədin konfrans iştirakçılarına müraciəti səsləndirilib. BMT rəsmisi Qoşulmama Hərəkatına üzv ölkələri qadınların hüquqlarının qorunması istiqamətində fəal olmağa çağırıb. O deyib ki, qadınlar hərəkətverici qüvvə kimi cəmiyyətdə böyük rol oynayırlar.

Qadınların iqtisadi cəhətdən hüquqlarının artırılması, səlahiyyətlərinin təmin edilməsindən danışan BMT rəsmisi onların elm, təhsil, texnologiya sahələrində potensialını qeyd edib.

Qoşulmama Hərəkatının Bakı konfransının üzv ölkələrin daha da yaxınlaşmasına töhfə verəcəyini vurğulayan Özbəkistanın Baş nazirinin müavini Zulayho Mahkamova qeyd edib: "Qadınların hüquqlarının qorunması, gender bərabərliyinin təmin edilməsi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən biridir. Düşünürəm ki, Azərbaycanın evsahibliyi etdiyi bu konfrans Qoşulmama Hərəkatına üzv ölkələrin bir-birinə daha da yaxınlaşmasına, həmçinin qadınların səlahiyyətləndirilməsinə öz töhfəsini verəcək.

Azərbaycanın Qoşulmama Hərəkatına uğurla evsahibliyindən, təsisatın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təşəbbüslərindən söz açan Baş nazirin müavini Özbəkistanda 40 minə yaxın azərbaycanlının yaşadığını bildirib.

O, dünyada gender bərabərliyinin təmin edilməsinin mühüm məsələlərdən olduğunu bildirib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva diqqətə çatdırıb ki, təmsil etdiyi qurumun Azərbaycandakı və digər ölkələrdəki nümayəndəliklərinin məqsədlərindən biri qadınların hüquqlarının qorunması və onların imkanlarının artırılmasıdır.

Konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycana və digər ölkələrə təşəkkürünü ifadə edən Mərakeşin həmrəylik, sosial inteqrasiya və ailə naziri Hayar Avatif bu görüşün üzv ölkələrin nümayəndələri üçün fikir mübadiləsi aparmaq, yaxından əməkdaşlıq etmək baxımından əhəmiyyətini vurğulayıb.

O, bütün sahələrdə qadınların fəaliyyətinin təqdirəlayiq olduğunu qeyd edib.

Dünyada və ölkəsində qadınların hüquqlarının qorunması və bu sahədə mövcud problemlərdən danışan Uqandanın gender, əmək və sosial inkişaf naziri Amongi Betty Ongom konfransın əhəmiyyətini qeyd edib. Bildirib ki, mövcud problemlərin müzakirəsi və həlli üçün belə tədbirlərin təşkili vacibdir.

"Əminik ki, Bakı konfransının yekununda qəbul edilən sənəd qadınların hüquqlarının qorunması və həyatın bütün sahələrində imkanlarının artırılmasına töhfə verəcək", - deyə nazir vurğulayıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva bildirib ki, Bakı konfransı çox aktual mövzuya həsr olunub. Qadınlara hörmət mədəniyyətə, tarixə olan hörmətdir. O, tədbirin müxtəlif ölkələri təmsil edən qadınlar arasında vəhdətin qurulmasında önəmli rol oynayacağından əminliyini ifadə edib.

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibinin müavini Kashif Zaman, ICESCO-nun Sosial və Humanitar Elmlər Departamentinin direktoru Ramata Almamy Mbaye və digər məruzəçilər Qoşulmama Hərəkatına üzv ölkələrdə qadınların səlahiyyətlərinin artırılması istiqamətində görülən işlərdən və görüləcək tədbirlərdən danışıb, təkliflərini səsləndiriblər.

Sonda Qoşulmama Hərəkatının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda konfransının yekun Bəyannaməsi qəbul olunub.

Noyabrın 21-də konfrans öz işini panel müzakirələrlə davam etdirəcək.

Qeyd edək ki, Azərbaycan BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına (QH) 2019-cu ildən etibarən sədrlik edir. Ölkəmizin təsisata rəhbərliyi dövründə gördüyü işləri yüksək qiymətləndirən QH-nin üzv dövlətlərinin yekdil qərarı ilə Azərbaycanın sədrliyi daha bir il uzadılıb.

Prezident İlham Əliyevin BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsi, peyvənd millətçiliyinə qarşı mübarizə və bu istiqamətdə qətnamələrin qəbul edilməsi Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinin göstəricisidir. Azərbaycanın uğurlu sədrliyi nəticəsində bu gün Qoşulmama Hərəkatı dünyada multilateralizm nümunəsi kimi qəbul edilir.

# Bakıda "Gömrük biznes forumu 2023"ün açılış mərasimi keçirilib

**Dünən "Gülüstan" sarayında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə "Gömrük biznes forumu 2023"ün açılış mərasimi keçirilib.**









AZƏRTAC xəbər verir ki, tədbirdən öncə forumda Azərbaycan Respublikası Prezidentinin köməkçisi Şahmar Mövsümov və Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov sərgi ilə tanış olublar.

Tədbirin açılış mərasimində Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Azərbaycanda fəaliyyət göstərən yerli və xarici şirkətlərin nümayəndələrinin, aparıcı media qurumlarının rəhbərləri və digər rəsmi şəxslərin iştirak etdiyi forum Ulu Öndər Heydər Əliyevin Dövlət Gömrük Komitəsinin 1997-ci il yanvarın 30-da keçirilmiş beşillik yubiley tədbirində söylədiyi proqram xarakterli nitqindən hazırlanmış videoçarxın nümayişi ilə başlayıb.

Forumda Azərbaycan Respublikası Prezidentinin köməkçisi Şahmar Mövsümov çıxış edib. O qeyd edib ki, Azərbaycan dəyərlərinin qorunması və təbliği baxımından, dövlətçilik baxımından xalqımız tərəfindən sevilən və rəğbətlə anılan Azərbaycan dövlətinin yaradıcısı, XX əsr tariximizin ən qüdrətli siması Heydər Əliyev bütün həyat və yaradıcılığını xalqına xidmətə həsr edib. Müstəqil Azərbaycanın banisi Heydər Əliyevin həyat və yaradıcılıq yoluna nəzər saldıqda, onun ömrünün sonuna kimi gördüyü işlər ötən 30 ildə müstəqil dövlət kimi inkişaf edən, ərazi bütövlüyünü bərpa edən, dünya birliyində layiqli yer tutan Azərbaycanın uğur yolunun başlanğıcını qoyub. Bütün bu uğurlar Heydər Əliyevin banisi olduğu milli dövlətçilik konsepsiyasına əsaslanır.

Ulu Öndər Heydər Əliyevin ideyaları ölkədə bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, iqtisadi sabitliyin möhkəmlənməsi və iqtisadiyyatın davamlı inkişafı istiqamətində həyata keçirilən islahatların ideoloji bünövrəsini təşkil edir. Ulu Öndərin öz çıxışlarında səsləndirdiyi özəl sektorun fəaliyyətinə şəraitin yaradılması, özəl sektora dəstək, qlobal iqtisadiyyata inteqrasiya və şəffaflıq kimi fikirləri bütün zamanlar üçün Heydər Əliyevin iqtisadi inkişaf ideologiyasında öz əksini tapıb. Son illərdə Ulu Öndərin əsasını qoyduğu xarici ticarət sistemi, müasir və effektiv gömrük tənzimlənməsi ölkə Prezidenti möhtərəm İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün sosial, iqtisadi inkişaf yolunda uğurla addımlayan ölkəmizdə gömrük sistemi, qlobal iqtisadiyyata xarici təsirlərin məhdudlaşdırılması, dövlət gəlirlərinin formalaşması, habelə iqtisadiyyatın tənzimlənməsi prosesində dövlət və sahibkar maraqları arasında balanslı yanaşma, iqtisadiyyatın müxtəlif sahələrinin biznes icması və dövlət qurumlarının təmsil olunması, ölkəmizdə həyata keçirilən gömrük islahatların yaratdığı imkanlar, qlobal dəyər, zəncir, habelə davam edən ticarət rəqabət şəraitində çağırışları müəyyən etmək üçün daha faydalı dialoq platformasının formalaşmasına imkan yaradır.

"Son 3 ildə Azərbaycanın ixrac səbətinə 35 adda yeni məhsul daxil olub. Gömrük sisteminin şəffaflaşdırılması, prosedurların sadələşdirilməsi və xərclərin optimallaşdırılması, xarici ticarətin asanlaşdırılması xarici ticarət iştirakçılarının və büdcə daxilolmalarının artmasına səbəb olub. 2015-2022-ci illərdə qeyri-neft ixracının həcmi 2,3 dəfə artıb. Eyni zamanda qeyri-neft ixracında çeşidlərin sayında da artım müşahidə olunub. 5 700 çeşidli maldan 1 990-nı ixrac edilib, 1 234-ü isə davamlı ixraca göndərilib. Son 3 ildə qeyri-neft məhsullarının ixracında qeyri-üzvi kimya və plastmas məhsullarının payı artıb", - deyə Şahmar Mövsümov əlavə edib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, bu cür tədbirlərin keçirilməsi, xüsusən də dövlət və özəl sektor arasında olan dialoqun müxtəlif platformalarda davam etdirilməsi ölkəmizin iqtisadi inkişafında çox mühüm amildi. Bu gün Heydər Əliyevin 100 illik xatirəsi böyük fəxr və ehtiramla yad edilir. Məhz bugünkü müasir Azərbaycanın memarı, Ulu Öndər Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycan bu gün möhtəşəm uğurlar qazanır. Və sizi inandırıram ki, bu gün bizim əldə etdiyimiz bütün uğurların tək səbəbi Heydər Əliyev irsinə, Heydər Yoluna sadiq qalmağımız, bu yolla dönmədən davam etməmiz və hər sahədə bunu öz əməlimizlə sübut etməyimizdir.

"1995-2021-ci illər ərzində ÜDM-də özəl sektorun payı 2,8 dəfə artıb. Özəl bölmənin ümumi daxili məhsulda (ÜDM) payı 86,5 faiz, məşğulluqda payı isə 78 faizdən çoxdur. Son doqquz ay ərzində Azərbaycanda açılan yeni iş yerlərinin 93 faizdən çoxu özəl sektor tərəfindən yaradılıb. İqtisadi artım qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirməlidir. Yenilikçiliyə malik özəl sektorda aktivlik daha da canlandırılmalı, qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payı artırılmalıdır. Özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühit əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalı, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmalı, haqsız rəqabətin qarşısı alınmalıdır. Yeni və şəffaf özəlləşmə strategiyası həyata keçirilməlidir. Biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsi artırılmalıdır. Vergi və gömrük siyasəti dövlət büdcəsinin xərclərinin təmin edilməsi üçün adekvat imkanlar yaratmaqla yanaşı, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına xidmət etməlidir", - deyə T.Mirkişili əlavə edib.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev qeyd edib ki, biznes ekomühitinin yaxşılaşdırılmasının mühüm qolu iqtisadiyyatın gömrük-vergi tənzimlənməsi sisteminin təkmilləşdirilməsidir. "Ölkəmizin investisiya mühitinin cəlbediciliyinin artırılması üçün fiskal alətlərdən aktiv istifadə etməsi ümumi prosesə təkan verir. Bu il yerli istehsalatda istifadə olunan 300-dək aralıq mal idxal rüsumundan azad edilib. Bu addım yerli istehsalın maya dəyərinin azaldılmasında, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayıb. Hazırda bu proses davam edir. Belə ki, ixracda hesablaşma qaydalarının təkmilləşdirilməsi, yerli istehsalda xammal ehtiyacının ödənilməsi, əhalinin idxaldan asılı olan bir sıra zəruri istehlak malları ilə etibarlı təminatı məqsədilə tətbiq olunan tarif tədbirləri, o cümlədən güzəşt müddətlərinin uzadılması istiqamətində qanunvericilik layihələri hazırlanıb və hazırda aidiyyəti dövlət orqanları ilə müzakirə olunur", - deyə nazir müavini qeyd edib.

E.Əliyev diqqətə çatdırıb ki, iqtisadiyyatımız qarşısında duran əsas məqsədlərdən biri Azərbaycanın ixrac potensialının artırılmasıdır. 2023-cü ilin 9 ayı ərzində ötən ilin eyni dövrü ilə müqayisədə 1,5 dəfə çox - 500 mln. dollardan çox məhsul daxildə emal gömrük proseduru altında yerləşdirilib. Beləliklə, bu göstərici sözügedən mexanizmin emal və xidmət sektorunun inkişafı, xüsusilə də ixrac fəaliyyətinin genişləndirilməsi üçün mühüm əhəmiyyətə malik olduğunu bir daha təsdiqləyir. Gömrük prosedurlarının sadələşdirilməsi kimi amillər ölkəmizin xarici ticarət dövriyyəsinin həcminin sürətlə artmasına səbəb olub. Neft və qazın dünya bazarı qiymətlərinin ötən illə müqayisədə aşağı düşməsinə baxmayaraq, xarici ticarət balansında böyük həcmli profisit müşahidə olunmaqdadır. Belə ki, cari ilin 10 ayında ixrac 29 mlrd. dolları ötüb, ticarət balansının profisiti 15 mlrd. dollardan çox olub. Qeyri-neft-qaz sektorunun ixracı isə 11 faiz dən çox artaraq 2,7 mlrd. dolları ötüb. Emal olunmuş kənd təsərrüfatı məhsulları çıxılmaqla qeyri-neft sənaye məhsullarının qeyri-neft-qaz ixracında payı 68 faizə çatmaqdadır. Cari ilin 9 ayında sənaye zonalarının qeyri-neft-qaz ixracında payı isə 23 faizə çatıb.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov qeyd edib ki, hazırda Azərbaycan gömrük xidmətinin çevik peşəkar və modern dövlət qulluğuna çevrilməsi qarşıda duran əsas məsələdir. Gömrük orqanlarının fəaliyyətində şəffaflığın yüksəldilməsi və sahibkarlıq subyektləri ilə vətəndaşların məmnuniyyətinin artırılması, rəqəmsal gömrük sisteminin yaradılması, həmçinin gömrük ödənişlərinin dayanıqlılığının təmin edilməsi, daha güclü müasir tədbirlərin həyata keçirilməsi strateji fəaliyyətlər kimi müəyyən edilib. Xarici ticarət və biznesin idarə edilməsində mühüm rol oynayan bir neçə alət tərəfimizdən istifadəyə verilib. Bunlardan elektron hesab səhifəsinin tətbiqi, gömrük biznes subyektləri arasında münasibətlərin vahid elektron bildiriş əsasında təşkil edilməsi və digər bu kimi vacib alətlər artıq istifadədədir. Forumda əsas məqsəd yeni alətlər olan "Transxəzər gömrük tranzit portalı", "Süni intellekt əsaslı avtomatlaşdırılmış risk analizi sistemi", "Səlahiyyətli iqtisadi operator proqramı", yeni Avtomatlaşdırılmış Risk Analizi Sisteminin (ARAS) və "Smart-Bot" mobil tətbiqi kimi konseptual layihələri sahibkarlara təqdim etməkdir.

Qeyd olunub ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizin dayanıqlı inkişafı istiqamətində həyata keçirilən irimiqyaslı iqtisadi islahatlar çərçivəsində gömrük xidməti tərəfindən reallaşdırılan layihələrin vətəndaşlara və biznes subyektlərinə çatdırılması üçün təşkil edilən forumun əsas məqsədi gömrük və biznes əməkdaşlığına komitənin korporativ hesabatı, görüləcək işlərin anonsu və gerçəkləşdirilən layihələrdə fəal iştirak üçün biznes subyektlərinə çağırış, habelə yeni xidmət və məhsulların faydasından bəhs ediləcək işgüzar ortam yaratmaqdır.

Forumda Dövlət Gömrük Komitəsinin həyata keçirdiyi "Gömrük İnkişaf Modeli", "Transxəzər gömrük tranzit portalı", "Süni intellekt əsaslı avtomatlaşdırılmış risk analizi sistemi", "Səlahiyyətli iqtisadi operator proqramı" və "Smart-Bot" mobil tətbiqi layihələrinin təqdimatı olub.

Tədbir çərçivəsində gömrük işinin təşkili sahəsində işgüzar və səmərəli fəaliyyət göstərən şirkətlərə "Dəstək" və "Əməkdaşlıq" nominasiyaları üzrə təşəkkürnamələr təqdim edilib.

Sonda Dövlət Gömrük Komitəsinin həyata keçirdiyi layihələrə dair panel müzakirələr keçirilib.

# Baş Prokurorluqda görüş keçirilib

**Baş prokuror Kamran Əliyevin dəvəti ilə Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya qarşı Mübarizə Qurumunun Prezidenti Mazin bin İbrahim Əl-Kahmusun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir.**



Səfərin ilk günü qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edib, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanışlıq nümayəndə heyətinin üzvlərində xoş təəssürat yaradıb, həmçinin Mərkəzdə yerləşən muzey və eksponatlar barədə onlara ətraflı məlumat verilib.

Daha sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib.

Görüş zamanı dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və İki Müqəddəs Ocağın Xadimi, kral Salman bin Əbdüləziz Al Səud, həmçinin Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun birgə səyləri və siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, dərin tarixə və mədəni köklərə söykənən ikitərəfli münasibətlərin gələcək dövrdə də uğurla inkişaf etdiriləcəyi vurğulanmışdır.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə sahəsində aparılmış genişmiqyaslı islahatlar, "ASAN" xidmət və "DOST" mərkəzlərinin fəaliyyəti, həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin çağdaş dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Kamran Əliyev 44 günlük Vətən müharibəsi zamanı ölkəmizə göstərmiş olduqları dəstəyə görə Səudiyyə Ərəbistanı Krallığının rəhbərliyi və xalqına minnətdarlığını bildirib, bu ilin sentyabr ayında keçirilmiş lokal antiterror tədbirləri nəticəsində ölkəmizin suveren ərazi bütövlüyünün tam şəkildə bərpa edildiyini vurğulayıb. Baş prokuror ölkə rəhbərliyinin diqqət və qayğısı ilə işğaldan azad edilmiş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən Mazin bin İbrahim Əl-Kahmus rəhbərlik etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib.

Nümayəndə heyəti üzvləri Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olmuşlar.

Daha sonra qurumlarımız arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə sahəsində Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Qonaqlar Baş Prokurorluğun müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş yeni inzibati binasında yaradılmış şərait və prokurorluğun fəaliyyət ilə yaxından tanış olaraq 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət ediblər.

Heyət üzvləri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsində qurumun fəaliyyəti ilə tanış olublar. Onlara ölkəmizdə korrupsiyaya mübarizə sahəsində aparılan sistemli tədbirlər barədə ətraflı məlumat verilib.

Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya qarşı Mübarizə Qurumunun Prezidenti Mazin bin İbrahim Əl-Kahmusun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

# Birgə mətbuat brifinqi

**Noyabrın 20-də Xarici İşlər Nazirliyində Silahlı Qüvvələr tərəfindən həyata keçirilən antiterror tədbirlərindən sonra Qarabağda aşkar edilmiş Ermənistanın qeyri-qanuni hərbi fəaliyyəti və planlaşdırdığı növbəti hərbi cinayətlərə dair yeni faktlarla bağlı Xarici İşlər Nazirliyinin və Müdafiə Nazirliyinin birgə mətbuat brifinqi keçirilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, brifinqdə Azərbaycanda akkreditə olunmuş diplomatik korpus, hərbi attaşelər, habelə yerli və beynəlxalq media nümayəndələri iştirak ediblər.

Brifinqdə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi, mətbuat katibi Ayxan Hacızadə və Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi Anar Eyvazov çıxış ediblər.

Çıxışlar zamanı həm Ermənistanın ərazilərimizi işğal altında saxladığı 30 ilə yaxın müddət ərzində, həm də postmünaqişə dövründə beynəlxalq ictimaiyyətin diqqətinin Azərbaycan ərazilərində sülh və təhlükəsizliyə hədə törədən Ermənistan silahlı qüvvələrinin mövcudluğuna, həmçinin mina təhdidinə cəlb edildiyi xatırlanıb. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun mühəndis bölmələri tərəfindən bölgədə aparılan işlər nəticəsində ərazilərimizdə piyada əleyhinə 10 mindən çox, tank əleyhinə 3000-dən çox mina və 12 minədək partlamamış döyüş sursatının aşkarlandığı və neytrallaşdırıldığı bildirilib.

Ermənistanın beynəlxalq hüquq normalarına, habelə Avropada adi silahlı qüvvələr haqqında Müqavilənin müddəalarına zidd olaraq, beynəlxalq təşkilatları, o cümlədən aidiyyəti BMT və ATƏT strukturlarını məlumatlandırmadan bölgədə külli miqdarda hərbi texnika və sursat yerləşdirdiyi qeyd olunub. Bu pozuntuların qarşısının alınması barədə Azərbaycanın çağırışlarına baxmayaraq, beynəlxalq ictimaiyyətin məsələyə biganəliyinin bölgədə gərginliyi daha da artırdığı vurğulanıb.

Azərbaycan ərazilərində eyni zamanda silah-sursatın yenidən modifikasiyası və xarici ölkələrə ötürülməsi kimi qeyri-qanuni fəaliyyət həyata keçirildiyi diqqətə çatdırılıb. Ermənistanın postmünaqişə dövründə də Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin təsis edilməsinə qədər silah və texnikanı, yeni istehsal olunmuş minaları ərazilərimizə ötürməkdə davam etdiyi qeyd olunub. Bununla bölgədəki mülki obyektlərə, hətta təyyarələrin təhlükəsizliyinə, habelə aparılan genişmiqyaslı yenidənqurma fəaliyyətinə hədə törədildiyi vurğulanıb.

Bu il sentyabrın 19-20-də 24 saatdan az müddətdə antiterror tədbirlərindən sonra bölgədə mina təmizləmə fəaliyyəti, habelə kommunikasiya xətlərinin və yeni təchizat yollarının bərpası məqsədilə Müdafiə Nazirliyinin digər aidiyyəti qurumlarla apardığı fəaliyyətin ərazilərimizdəki dəhşətli hərbiləşmənin miqyasını bir daha göstərdiyi vurğulanıb. Aparılan işlər nəticəsində ərazilərimizdə böyük bir hissəsi mülki infrastrukturlarda yerləşdirilən hərbi maşınlar, müxtəlif çaplı silahlar və sursatların aşkarlandığı bildirilib. Xüsusilə "Kornet" və "Faqot" tank əleyhinə idarə olunan raket sistemlərinin, 2021-ci il istehsalı olan TOS-1A tipli reaktiv yaylım atəşi sistemlərinin raketlərinin aşkarlandığı qeyd olunub. Bununla yanaşı, son 30 il ərzində Ermənistanın Xankəndidə hərbi texnika və dronların modifikasiyası ilə məşğul olan hərbi istehsalat mərkəzində apardığı fəaliyyət barədə məlumat verilib.

Brifinq zamanı həmçinin bölgədəki hərbiləşmənin miqyasını göstərən görüntülər təqdim olunub. Ermənistanın ərazilərimizdə mülki əhaliyə və hərbçilərə kustar üsulla hazırlanmış dronlardan keçirilən təlimlərinin və Azərbaycanın mülki obyektlərinin hədəf alındığı barədə kadrların əks olunduğu antiterror tədbirlərindən sonra aşkar edilmiş videolar nümayiş etdirilib.

Brifinqə qatılan şəxslər antiterror tədbirlərindən sonra ərazidən müsadirə edilmiş modifikasiya olunmuş silahlar, dronlar, 2021-ci il istehsalı olan sursatlar və minaların nümunələri ilə tanış olublar.

# Laçın Hava Limanının layihəsi üzrə işlərin icra vəziyyəti 53 faizdir

**Şuşa şəhərində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəqliyyat və rabitə infrastrukturu üzrə qarşıya qoyulmuş tapşırıqların icrası ilə bağlı görülmüş işlər, hazırda davam edən layihələr və gələcək planlara dair aidiyyəti qurumların məlumatları dinlənilib, layihələrin icrası ilə bağlı mövcud imkanlar, qarşıya çıxan çətinliklər və onların həlli yolları geniş müzakirə edilib.

İclası giriş sözü ilə açan rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, İşçi Qrupunun rəhbəri Rəhman Hümmətov qeyd edib ki, Dövlət Proqramının Tədbirlər Planında avtomobil və dəmir yollarının bərpa və tikintisi, yeni hava limanlarının tikintisi kimi strateji layihələr yer alıb: "Bunlardan artıq bir neçəsi - "Zəfər yolu", Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolu, Füzuli-Hadrut avtomobil yolu, Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının tikintisi uğurla icra olunub. Laçın Hava Limanının tikintisi üzrə işlər sürətlə davam etdirilir, hazırda layihə üzrə işlərin ümumi icra vəziyyəti 53 faiz təşkil edir".

Nazir müavini əlavə edib ki, Bərdə-Ağdam (47,1 km) və Horadiz-Ağbənd (110,4 km) dəmir yolu xətlərinin tikintisi işləri də davam etdirilir. Layihələr üzrə əldə edilmiş fiziki tərəqqi uyğun olaraq 83 və 44 faiz təşkil edir.

Rəhman Hümmətov hazırda ümumi uzunluğu 2157 kilometr olan 17 layihə üzrə avtomobil yollarının tikintisi işlərinin qrafikə uyğun aparıldığını və bunların da əksəriyyətinin respublika əhəmiyyətli yollar olduğunu diqqətə çatdırıb.

Daha sonra nazir müavini işğaldan azad edilmiş ərazilərdə radio-televiziya yayımı, mobil rabitə və sabit telekommunikasiya şəbəkəsi üzrə görülmüş və planlaşdırılan işlər barədə məlumat verib. Bildirib ki, hazırda ərazidə bərpa edilən radio-televiziya yayım stansiyaları vasitəsilə 10 televiziya və 7 radioproqramın yayımı həyata keçirilir. Mobil telekommunikasiya xidmətlərinin təşkili üçün antiterror tədbirləri nəticəsində azad edilən ərazilər də daxil olmaqla, 330 ədəd baza stansiyası quraşdırılıb. Şuşa, Laçın, Füzuli, Zəngilan və digər ərazilərdə telefon və yüksəksürətli internet xidmətləri göstərilir.

Rəhman Hümmətov "Yolumuz Qarabağa" (www.yolumuzqarabaga.az) portalı üzərindən Şuşa, Ağdam və Füzuli şəhərinə indiyədək təşkil edilən avtobus marşrutları barədə iclas iştirakçılarını məlumatlandırıb. "Bu istiqamət üzrə ümumilikdə 639 reys həyata keçirilib, 26 226 sərnişin işğaldan azad olunmuş əraziləri ziyarət edib".

Nazir müavini həmçinin Şuşa şəhərində hazırda abunəçilərə yeni texnologiyalar əsasında telefon və sürətli internet xidmətlərinin verildiyini, tikinti və bərpası icra edilən ictimai əhəmiyyətli binaların telekommunikasiya xidmətləri ilə təmin edilməsi üçün layihələndirmə işlərinin aparıldığını, müxtəlif istiqamətlər üzrə magistral və abunəçi fiber-optik xətlərin çəkilməsi işlərinin görüldüyünü qeyd edib.

İclas çərçivəsində işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Şuşa şəhərində yol-nəqliyyat infrastrukturunun qurulması, avtonəqliyyat və sərnişindaşıma xidmətlərinin təşkili məsələləri, mövcud tələbat və imkanlar geniş müzakirə edilib.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının sektor müdiri Elmir Vəlizadə, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təmsilçisi Kənan Quliyev, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Əvəz Qocayev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədrinin müşaviri Nazim Talıbov, həmçinin digər iştirakçılar çıxışlarında işğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən infrastruktur layihələrinin əhəmiyyəti, onların icrasının İdarələrarası Mərkəz vasitəsilə əlaqələndirilməklə aidiyyəti qurumlar tərəfindən həyata keçirilməsi, ərazilərdə mina təhlükəsizliyi üzrə tədbirlərin daim nəzarətdə saxlanılması, yeni salınacaq yaşayış məntəqələrinə əhalinin köçürülməsi və məşğulluğunun təmin edilməsi və digər vacib məsələlər barədə qarşıda duran vəzifələrdən danışıblar.

# Azərbaycanın statistika sahəsində təcrübəsi Vyetnamda maraqla qarşılanır





**Noyabrın 19-da Vyetnam Sosialist Respublikasının paytaxtı Hanoyda Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ilə Vyetnamın Baş Statistika İdarəsinin baş direktoru xanım Nquyen Ti Suonq arasında görüş keçirilib.**

Görüşdə ötən il diplomatik əlaqələrinin 30 illiyinin qeyd edildiyi Azərbaycan ilə Vyetnam arasında münasibətlərin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, hər iki ölkə müxtəlif sahələri əhatə edən çoxşaxəli əlaqələrin dərinləşməsində maraqlıdır.

Görüş zamanı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnamın Baş Statistika İdarəsi arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Xanım Nquyen Ti Suonq Vyetnamın Baş Statistika İdarəsinin fəaliyyəti haqqında ətraflı məlumat verərək statistika sahəsində Azərbaycanın təcrübəsinin ölkəsi üçün maraq doğurduğunu söyləyib. O, iki ölkənin statistika qurumları arasında əməkdaşlığı təmin etmək üçün real addımlar atmağa hazır olduqlarını bildirib.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov rəhbərlik etdiyi qurumun fəaliyyəti haqqında geniş məlumat verib, Azərbaycanda statistika sahəsində həyata keçirilən islahatlardan və innovasiyaların tətbiqindən bəhs edib. Dövlət Statistika Komitəsinin geniş beynəlxalq əlaqələrə malik olduğunu, bir sıra dövlətlərin müvafiq qurumları ilə səmərəli əməkdaşlıq etdiyini bildirən Tahir Budaqov bu sahədə faydalı işbirliyinin həyata keçirilməsi üçün yaxşı imkanların mövcud olduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişi imzalanıb

**Vyetnam Sosialist Respublikasında səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti ilə Vyetnam Kommunist Partiyasının (VKP) Mərkəzi Komitəsinin katibi, Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Le Hoay Çunq arasında görüş keçirilib.**





Əvvəlcə Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişinin imzalanması mərasimi olub. Sazişi YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və VKP Mərkəzi Komitəsinin katibi, Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Le Hoay Çunq imzalayıblar.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətini ölkəsində görməkdən məmnunluğunu ifadə edən Le Hoay Çunq Vyetnamın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib. İki ölkənin milli maraqlara hörmət və beynəlxalq hüquq normalarına sadiqlik prinsiplərinə daim əməl etdiklərinə diqqəti yönəldən VKP Mərkəzi Komitəsinin katibi qeyd edib ki, istər Azərbaycan, istərsə də Vyetnam müstəqil siyasət yürüdən dövlətlər kimi beynəlxalq münasibətlər sistemində ədalət və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan siyasi nizamın tərəfdarlarıdır. "Biz dövlətlər arasında münasibətlərin sağlam məcrada, konstruktiv müstəvidə, beynəlxalq hüquq normaları əsasında inkişafını dəstəkləyirik", - deyə Le Hoay Çunq əlavə edib.

Daimi təmasların istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafı baxımından böyük önəm daşıdığını bildirən Le Hoay Çunq Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında sıx əlaqələrin olduğunu vurğulayaraq qarşılıqlı səfərlərin önəmini diqqətə çatdırıb. VKP rəsmisi partiyasının YAP ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu söyləyərək Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin səfərinin dostluq münasibətlərinin gücləndirilməsinə xidmət edəcəyinə əminliyini bildirib: "Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında Əməkdaşlıq Sazişinin imzalanması əlamətdar hadisədir. Bu genişmiqyaslı əməkdaşlıq çərçivəsində görəcəyimiz işlər həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı olacaq, müəyyənləşdirdiyimiz hədəflərin gerçəkləşməsini təmin edəcək".

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ötən il Azərbaycan ilə Vyetnam arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladaraq ölkələrimizin bu müddət ərzində ikitərəfli və beynəlxalq platformalar çərçivəsində münasibətləri inkişaf etdirərək əhəmiyyətli nailiyyətlər qazandıqlarını bildirib. Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərini xatırladan Tahir Budaqov Azərbaycan-Vyetnam dostluq münasibətlərinin tarixi köklərə söykəndiyini diqqətə çatdırıb. "Dövlətlərimiz arasında münasibətlərin inkişafını təmin edən mühüm amillərdən biri, şübhəsiz ki, qarşılıqlı səfərlərin həyata keçirilməsidir", - deyən YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnam Sosialist Respublikasına dövlət səfəri və Vyetnam Prezidenti Truong Tan Sangın 2015-ci ildə Azərbaycana rəsmi səfəri dövlətlər arasında ikitərəfli və çoxşaxəli münasibətlərin inkişafına təkan verərək iqtisadi, siyasi, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşməsinə etibarlı zəmin yaratmışdır.

2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində Qələbə qazanan və 2023-cü il sentyabrın 19-da həyata keçirilən antiterror tədbirləri ilə ölkə ərazisində separatizmin birdəfəlik ləğvinə nail olaraq BMT Təhlükəsizlik Şurasının uzun müddət kağız üzərində qalmış 4 qətnaməsinin icrasını təmin edən Azərbaycanın ərazi bütövlüyü, konstitusiya quruluşu və suverenliyini tam bərpa etdiyini vurğulayan YAP Sədrinin müavini Vyetnamın ölkəmizin ədalətli mövqeyini dəstəkləməsini minnətdarlıqla vurğulayıb. Tahir Budaqov Azərbaycanın yaratdığı yeni geostrateji reallıqlar fonunda aktual çağırışların meydana çıxdığını söyləyib. "Yeni Azərbaycan Partiyası bu tarixi mərhələdə yeni dövrün çağırışlarından, eləcə də dövlətin və partiyanın qarşısında duran prioritetlərdən irəli gələrək beynəlxalq əlaqələrin inkişafına da böyük önəm verir və sistemli siyasət həyata keçirməklə bu istiqamətdə məqsədyönlü addımlar atır. Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi də bu siyasətin mühüm tərkib hissəsidir", - deyə YAP Sədrinin müavini vurğulayıb.

Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında münasibətlərin inkişafının diqqət mərkəzində olduğunu bildirən Tahir Budaqov deyib: "Biz dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlığın genişlədirilməsi yönündə müvafiq addımlar atırıq. YAP ilə VKP ikitərəfli əlaqələrlə yanaşı, ICAPP çərçivəsində də səmərəli işbirliyi həyata keçirirlər".

Ötən il Vyetnam Kommunist Partiyasının nümayəndə heyətinin ölkəmizə səfər etdiyini və YAP ilə VKP arasında səmərəli fikir mübadiləsinin aparıldığını söyləyən Tahir Budaqov qeyd edib ki, qarşılıqlı səfərlərin həyata keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması, əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi də bu baxımdan olduqca əhəmiyyətli və faydalıdır: "Bu gün partiyamızın nümayəndə heyətinin səfəri çərçivəsində Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişinin imzalanması partiyalararası münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoyacaq, çoxşaxəli əməkdaşlığın dərinləşməsinə xidmət edən siyasi və hüquqi əsasları daha da möhkəmləndirəcəkdir. Sazişdən irəli gələn vəzifələrin icra olunması nəticəsində əlaqələrin uğurla inkişaf edəcəyinə şübhə yoxdur".

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Hülya Məmmədli daxildirlər.

# Tahir BUDAQOV: "Azərbaycan-Vyetnam əlaqələri möhkəm dostluq, etibarlı tərəfdaşlıq və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanır"

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Vyetnam Sosialist Respublikasına səfər edib.**





Vyetnam Kommunist Partiyasının (VKP) dəvəti əsasında baş tutan səfər çərçivəsində noyabrın 20-də YAP nümayəndə heyəti ilə Vyetnam Sosialist Respublikasının xarici işlər nazirinin müavini Do Hunq Viet arasında görüş keçirilib.

Nümayəndə heyətini salamlayan Do Hunq Viet Vyetnam ilə Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişafının məmnunluq doğurduğunu və qarşılıqlı faydalı əməkdaşlığın uğurla davam etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

Ölkəsinin Azərbaycanla işbirliyinə böyük önəm verdiyini bildirən Do Hunq Viet dostluq və tərəfdaşlıq əlaqələrinə malik olan iki ölkənin beynəlxalq platformalarda bir-birinə dəstək göstərdiklərini və milli maraqlara dair məsələlərdə ortaq mövqedən çıxış etdiklərini vurğulayıb. Xarici işlər nazirinin müavini beynəlxalq birliyin məsuliyyətli üzvü olan Vyetnamın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini diqqətə çatdırıb.

Do Hunq Viet ikitərəfli münasibətlərin dinamik inkişafı üçün geniş potensialın mövcud olduğunu bildirib. "Qarşılıqlı səfərlər müxtəlif sahələrdə təmasların gücləndirilməsi, təcrübə mübadiləsinin aparılması və əməkdaşlığın genişləndirilməsi baxımından böyük önəm daşıyır", - deyən Do Hunq Viet birgə fəaliyyət nəticəsində uğurlar qazanılacağına ümidvar olduğunu söyləyib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Vyetnam əlaqələrinin möhkəm dostluq, etibarlı tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslandığını qeyd edib. O, xalqlarımız arasındakı dostluq münasibətlərinin hələ SSRİ dönəmində formalaşdığını, Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyətə malik olduğunu bildirib.

YAP Sədrinin müavini vurğulayıb ki, 2014-cü ildə Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasına dövlət səfəri ikitərəfli əlaqələrdə yeni səhifə açmış, dostluq prinsipinə əsaslanan qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə güclü təkan vermişdir. 2015-ci ildə isə Vyetnam Prezidenti Truong Tan Sangın Azərbaycana rəsmi səfəri ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən işbirliyinin genişlənməsinə mühüm töhfə olmuşdur.

Tahir Budaqov bu gün iki ölkənin liderlərinin siyasi iradələri sayəsində dövlətlərarası münasibətlərin genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atıldığını diqqətə çatdıraraq Azərbaycan ilə Vyetnamın bir-birinin maraqlarına hörmətlə yanaşdığını və ərazi bütövlüyünü dəstəklədiyini qeyd edib. Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində uzun müddət işğal altında olan torpaqlarını azad etdiyini, 2023-cü ilin sentyabr ayının 19-da cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində suverenliyinin tam bərpasına nail olduğunu vurğulayan YAP Sədrinin müavini Vyetnamın bu məsələdə ədalətli mövqeyinə görə təşəkkürünü bildirib. Azərbaycanın mühüm geostrateji reallıqlar yaratdığını bildirən Tahir Budaqov regionda yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşmasının dost və tərəfdaş ölkələr üçün də önəmli iqtisadi və siyasi dividendlər vəd etdiyini vurğulayıb.

Görüş zamanı siyasi partiyalar və parlamentlər arasında əlaqələrin Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı baxımından əhəmiyyəti diqqətə çatdırılıb, hökumətlərarası komissiyanın növbəti iclasının tezliklə baş tutacağına əminlik ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb. Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Hülya Məmmədli daxildirlər.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# YAP Azərbaycan həqiqətlərinin yayılmasında fəal iştirak edir

**Noyabrın 17-19-da Koreya Respublikasının paytaxtı Seulda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Media Forumunun 6-cı iclası keçirilib.**



16 ölkədən 18 siyasi partiyanın 40-a yaxın nümayəndəsinin və 21 jurnalistin iştirak etdiyi tədbirdə ölkəmizi Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov, YAP Gənclər Birliyinin üzvü, CBC TV-nin aparıcısı Anastasiya Lavrina və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin aparıcı məsləhətçisi, Yeni TV-nin aparıcısı Nurlana Mehdiyeva təmsil ediblər.

İclasda ICAPP-ın baş katibi Kvon He-seoq, ICAPP Daimi Komitəsinin sədri, Koreya Respublikasının keçmiş xarici işlər naziri Çunq Eu-yonq, ICAPP Media Forumunun həmsədri, Koreya Milli Assambleyasının üzvü, ICAPP Parlamentarilər İttifaqının sədr müavini Kanq Hun-sik, ICAPP Daimi Komitəsinin həmsədri, Pakistan Senatının Müdafiə Komitəsinin sədri Müşahid Hüseyn Sayed çıxış ediblər.

Sonra ICAPP Media Forumunun Bürosunun yeni tərkibi müəyyənləşib. YAP İdarə Heyətinin üzvü Şahin İsmayılov da yeni tərkibdə yer alıb.

"Asiya cəmiyyətinin qurulmasında və siyasi demokratikləşmədə medianın rolu" mövzusunda keçirilən plenar sessiyada çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov media və siyasi partiyalar arasında əlaqələrin əhəmiyyətindən danışıb. O, demokratik cəmiyyətdə media və siyasi partiyalar arasında sağlam münasibətin qurulmasında media azadlığı, məsuliyyətli jurnalistika və qərəzsiz mövqe arasında tarazlığın vacibliyini önə çəkib.

Yeni Azərbaycan Partiyasının da mətbuat orqanları ilə sıx əməkdaşlıq etdiyini deyən Şahin İsmayılov partiyanın internet televiziyası və qəzetinin fəaliyyət göstərdiyini qeyd edib. O da vurğulanıb ki, siyasi plüralizmə böyük önəm verən Yeni Azərbaycan Partiyası digər partiyaların da mövqelərinin öz mətbu orqanlarında işıqlandırılmasına şərait yaradır.

YAP Gənclər Birliyinin üzvü, CBC TV-nin aparıcısı Anastasiya Lavrina isə ictimai şüurun formalaşmasında, habelə beynəlxalq münasibətlərdə və ölkələr arasında əlaqələrin inkişafında medianın rolundan bəhs edib. A.Lavrina diqqəti Azərbaycanla Ermənistan arasında 30 ilə yaxın davam edən münaqişəyə, Azərbaycanın öz gücü ilə torpaqlarını işğaldan azad etməsinə və Cənubi Qafqazda yaranan yeni reallıqlara yönəldib. Anastasiya Lavrina həm işğal, həm də postmüharibə dövründə sülhün bərqərar olmasında maraqlı olmayan qüvvələr tərəfindən Azərbaycana qarşı aparılan dezinformasiya siyasətinin regional təhlükəsizlik və sabitliyə mənfi təsir göstərdiyini qeyd edib. Bu kontekstdə dezinformasiya ilə mübarizədə jurnalistikanın dəstəklənməsi və təkmilləşdirilməsinin prioritet məsələlərdən olduğunu deyib.

İclasın sonunda ICAPP Media Forumunun yenilənmiş fəaliyyət qaydaları və müzakirələrin əsas nəticələrini özündə əks etdirən Seul Bəyanatı qəbul olunub.

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***



# İşğalçının zəncirlənməsi

Qudurmuş iti zəncirdə saxlayırlar!

Çünki buraxılanda sahibini də qapır!

Bəzən iti qorumalı olduğu yerdə zəncirləyirlər.

Qaçıb başqa yerə getməsin, oturduğu yerdən muğayat olsun!

Bütün hallarda itin zəncirlənməsi yaxşı əlamət deyil!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə 44 günlük Vətən müharibəsində möhtəşəm zəfər çalmadı.**

**Həm də müharibənin gedişini, dəqiq zərbələrlə düşmən obyektlərinin, zirehli texnikasının və canlı qüvvəsinin necə məhv edildiyini televiziya vasitəsilə xalqımıza nümayiş etdirdi.**

*Sonra isə Bakıda Hərbi Qənimətlər Parkı yaradaraq məhv edilən və qənimət götürülən düşmən silahlarını, zirehli texnikasını, tank və raketlərini hamının görməsinə imkan yaratdı.*

Açıq havada muzey kimi fəaliyyət göstərən bu parkda düşmənin altıqatlı müdafiə mövqe və xətləri, yeraltı bunkerləri, səngər və atəş nöqtələri olduğu kimi yaradılmışdır.

*Ən maraqlı eksponatlardan biri Azərbaycan Ordusunun sürətli və qətiyyətli hücumları qarşısında qorxub qaçmasın deyə komandirləri tərəfindən zəncirlə səngərə bağlanan erməni əsgərlərinin mumdan hazırlanmış müqəvvaları idi.*

**Qəhrəman ordumuzun əsgərləri aldıqları mövqelərdə geri qaçmasınlar deyə səngərlərə, toplara zəncirlə bağlanan ölmüş erməni əsgərlərinə dəfələrlə rast gəlmişdilər.**

**"Məğlubedilməz erməni ordusu" bizimlə bu sayaq "döyüşürdü".**

Doğrudur, sonradan ermənipərəst (oxu: erməni diasporu vasitəsilə gizli maliyyələşdirilən rüşvətxor və korrupsioner) beynəlxalq hüquq müdafiə təşkilatları həmin müqəvvaları "insan hüquqlarının pozulması" kimi dəyərləndirdilər.

Neynək, razılaşdıq...

*Amma axı ermənilər özləri öz əsgərlərini fərarilik etməsinlər deyə səngərlərə, toplara zəncirləmişdilər...*

*Bunu biz etməmişdik, özləri etmişdilər!*

*Biz yalnız baş verənlərin "surətini" yaratmışdıq.*

Olsun...

**Bu gün də Ermənistanı və Ermənistan ordusunu "zəncirləyirlər".**

**Ancaq ermənilər özləri yox!**

- Ermənistanı silahlandıran Fransa.
- Dünya erməniliyinin " böyük Ermənistan" xülyasını dəstəkləyən ABŞ.
- Ermənistana NATO-nu dürtüşdürmək istəyən Avropa İttifaqı.
- Və erməni revanşizmini dəstəkləyən digərləri.

*Daha anlamırlar ki, nə qədər silah versələr də, onlardan insanlar istifadə etməlidir!*

*Məgər darmadağın edilərək başı əzilən orduda "yeni silah"lardan istifadəyə hal qalıb?!*

*PUA-ların "vızıltısı" qulağından hələ də getməyən on iki min fərari erməni əsgəri yenidən silah götürüb üstümüzə gələ bilər?!*

**Şuşanı yalın əllə alan igidlərdən qisas ala bilərlər?!**

**Heç bunu yuxularında da görməzlər!**

❖ ❖ ❖

*Biz artıq öz torpağımızın üstündəyik!*

*Biz həsrət qaldığımız və bizə həsrət qalan torpağımıza qovuşmuşuq!*

*Biz Vətən adlandırdığımız bu torpaqdan güc-qüvvət alırıq!*

**Bu gücü yeni "ağıllı" kənd, şəhər və qəsəbələr salınmasına yönəldirik!**

**Bu gücü "yaşıl enerji" istehsalına sərf edirik!**

**Bu gücü insanlarımızın 30 il uzaq düşdükləri dədə-baba yurdlarında rahat və firavan yaşamalarına istiqamətləndiririk!**

- Daha heç kəs bizi bu torpaqdan ayıra bilməz!
- Daha heç kəs bu torpağa xain niyyətlərlə qədəm basa bilməz!
- Daha heç kəs bizə üstün gələ, gücümüzə güc çatdıra bilməz!

**Bizim qəhrəman ordumuz, xüsusi təyinatlılarımız var!**

**Bizim bu torpağı işğaldan azad etmiş şəhid övladlarımız var!**

**Bizim İlham Əliyev kimi Müzəffər Ali Baş Komandanımız var!**

*Bu torpaq da bizimdir!*
*Bu Vətən də bizimdir!*
*Bu qalib xalq da bizimdir!*
*Gözəl Qarabağ isə Azərbaycanındır!*

❖ ❖ ❖

**Biz Qarabağ münaqişəsi davam edən dövrdə sifətlər gördük, simasızlıqlarla rastlaşdıq!**

- Riyakarlıqlar gördük!
- Ağ yalanlar eşitdik!
- Saxta danışıqların, saxta hərəkətlərin şahidi olduq!
- Ədaləti əvəz edən ikili standartlarla çarpışdıq!
- Bizə dost deyib kürəyimizə bıçaq saplayan "din qardaşlarımız"ın xəyanətlərindən təəssüfləndik!
- Dünya erməniliyinin pul kisəsindən asılı olan prezidentlər, dövlət başçıları ilə rastlaşdıq.
- Erməninin rüşvətlə ələ aldığı, "böyük Ermənistan" xülyasına qulbeçəlik edən senator, konqresmen, duma üzvləri, "assambleyalarda" təmsil olunan satılmış deputatları tanıdıq!

**Gördük və ifşa etdik!**

**Gördük və onlara qalib gəldik!**

Beləları bu gün də bizə uzaqdan baxaraq ulduza hürürlər!

Daha əllərindən heç nə gəlmir!

- Qoy ermənini qəbrəcən müdafiə etsinlər!
- Qoy Ermənistanı istədikləri qədər silahlandırsınlar!
- Qoy erməniyə dəstək verib xeyrinə istədikləri qədər qərar, qətnamə, bəyanat çıxarsınlar!
- Qoy doyunca dünya erməniliyinin pulunu xərcləsinlər!

**Əgər ermənilər öz əsgərlərini zəncirlə bağlamaqla da Qarabağda saxlaya bilmədilərsə, onda ABŞ, Fransa və Avropa İttifaqı yenidən onları geriyə qaytararaq bu torpaqda saxlamağı bacaracaqlarmı?!**

Mümkün olan iş deyil!

Ermənilər bizə hansı xəyanətləri, pislikləri, vəhşilikləri etdiklərini, necə böyük ziyan vurduqlarını çox yaxşı anlayırlar!

*Həm də gözəl başa düşürlər ki, Azərbaycanın təkcə torpağı və çörəyi deyil, havası, suyu da onlara haramdır, boğazlarında qalaraq zəhərə, zəqquma çevriləcəkdir!*

Cənablar, boş və mənasız xülyalarınızla özünüzü aldatmayın!

Üstəlik bir həqiqəti də heç zaman yaddan çıxarmayın:

**İndiyədək İlham Əliyev heç vaxt hədə-qorxu, təhdid-təzyiq hərəkətləri qarşısında geri çəkilməyib!**

**Əksinə, daim irəli gedərək qələbə çalıb!**

**Artıq Qarabağ Azərbaycandır!**

**Kimsə bizə güc gələ bilməz!**

*Ermənistan isə qorxusundan bizimlə cəngə girə bilməz!*

*"Dəmir yumruq" daim hazır vəziyyətdədir!*

❖ ❖ ❖

- Azərbaycan xalqı torpaqların işğaldan azad edilməsi uğrunda mübarizəsində və müharibəsində uca Tanrıya güvəndi!
- Müstəqil dövlətini məhvolmadan xilas edərək yenidən ayağa qaldıran Ulu Öndər Heydər Əliyevə güvəndi!
- 44 günlük Zəfər müharibəsini şərəflə başa vuran, ölkənin ərazi bütövlüyünü və Konstitusiya əsaslarını bərpa edən, Şuşada və Xankəndidə Azərbaycan bayrağını qaldıran Müzəffər Ali Baş Komandan İlham Əliyevə güvəndi!
- Öz övladına, bu Vətən uğrunda döyüşlərdə daim şəhid getməyə hazır olan oğullarına güvəndi!
- Milli birliyinə, polad iradəsinə, məqsədə çatmaq uğrunda səfərbər etdiyi daxili imkanlarına güvəndi!
- "Bir millət, iki dövlət" saydığı qardaş Türkiyənin etibarına və köməyinə güvəndi!

Biz beynəlxalq hüququn "hüquqsuzluğuna" çoxdan əmin olmuşuq!

İkili standartların yaradıcılarının əsl simalarına yaxşı bələdik!

Üzümüzə gülərək arxada düşmənə dəstək verənləri gözəl tanıyırıq!

Azərbaycan xalqının inandıqları və güvəndikləri rəhbərlər isə bu etimad və etibarı sonadək doğrultdular!

Tanrı da köməyini heç zaman xalqımızdan əsirgəmədi!

**"Dəmir yumruğ"a dönən xalqımız ədaləti də, beynəlxalq hüququ da, ərazi bütövlüyünü də özü təmin etdi!**

❖ ❖ ❖

Biz ermənidən çox ermənilik edənlərin də əsl sifətlərini çox görmüşük.

*ABŞ prezidentlərinin erməni diasporunun sözü ilə oturub-durduğunun, danışdığının şahidi olmuşuq.*

Özünü "ədalət qoruyucusu" adlandıran ABŞ-nin işğalçı Ermənistan əvəzinə Azərbaycana qarşı Azadlığı Müdafiə Aktına "907-ci düzəliş" adlı ədalətsizliyinə şahidlik etmişik.

**İndi isə ABŞ bizi hər il təsirini dayandırdığı həmin düzəlişi yenidən qüvvəyə mindirəcəyi ilə hədələyir!**

**Xox, qorxduq!!!**

"Demokratiya qoruyucusu" hesab olunan ABŞ-nin bu maska altında İraqda, Liviyada, Əfqanıstanda və digər ərəb ölkələrində "bahar"lar törədərək tökdüyü qanlardan kifayət qədər məlumatlıyıq!

**"Avropada demokratiyanın atası" sayılan Fransanın neokolonializm siyasətini bu gün də davam etdirməsinin, Cənubi Afrika respublikaları əhalisinin qanını soraraq dilənçi vəziyyətinə salmasının şahidiyik.**

Fransanın Əlcəzairdə və Ruandada törətdiyi soyqırımlarını heç kəs unutmayıb, Əlcəzairdə kəsilən başların kəllələri bu gün də Fransa muzeyində nümayiş olunur.

*Cənubi Afrikadan qovulan Fransa indi Ermənistanı öz koloniyasına çevirməklə Rusiyadan əvəz çıxmağa çalışır.*

*Avropa İttifaqı sanki Ermənistanın filialına çevrilib, erməni parlamentindən dəfələrlə çox ermənilik edir, yaxa cırır!*

Cozef Borrel, Okampo az qalırlar ki, silah götürərək Azərbaycanla təkbaşına dava etsinlər.

**Dildə sülhdən danışıb, əməldə ermənidən daha artıq erməni olan Avropa İttifaqı "müşahidə missiyası" adı altında pensiyaya çıxan alman polisini və fransız jandarmlarını Azərbaycanla Ermənistan sərhədlərində casusluğa göndərib.**

*Hələlik durbinlə uzaqdan baxırlar...*

*İt baxandan!*

Bir vaxtlar İrəvandan və Fransadan gələn TIR-lar da onların yanındaydı...

Sonrası necə oldu, bunu da bütün dünya gördü.

Əsl niyyətləri isə Azərbaycana təzyiq və təsir göstərmək, Ermənistanı silahlandırmaq, NATO-nu Cənubi Qafqaza gətirmək, Rusiyanı bu bölgədən çıxarmaqdır.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev bu fikrə düşənlərin cavabını dəfələrlə verib:**

- Heç kim bizimlə təhdid, hədə dili ilə danışa bilməz!
- Heç kim bizim daxili işlərimizə qarışa bilməz!
- Heç kim bizi qorxuda, iradəmizə təsir göstərə bilməz!
- Heç kim bizimlə zarafat etmək fikrinə düşməsin!
- "Dəmir yumruq" həmişəki kimi hazır vəziyyətdədir!

❖ ❖ ❖

**Görünən odur ki, ABŞ, Fransa və Avropa İttifaqı əl-ələ verərək Ermənistanı Ukraynaya çevirmək istəyirlər.**

*Siyasətdən və diplomatiyadan başı çıxmayan, vəzifəsini qorumaq üçün hər şeyə hazır olan Paşinyan isə kim başını sığallasa, onun dabanlarını yalamağa hazırdır.*

Əgər Ermənistanın hazırkı hakimiyyəti belə hesab edirsə ki, Rusiyanı və KTMT-ni ABŞ, Fransa və Avropa İttifaqı daha uğurla əvəz edəcək, məhvə doğru gedən Ermənistanı yenidən "qüdrətli", "işğala qadir" dövlətə çevirəcək, onda başladığı primitiv oyunları axıracan davam etdirsin!

*Amma bir reallığı da heç vaxt yaddan çıxarmasın:*

**Azərbaycan müharibəyə başlayanda onu çox qısa müddətdə, həm də düşmənini yerlə yeksan etməklə başa çatdırır!**

**"Dəmir yumruğ"un qaydası belədir!**

Cənubi Qafqazda Ermənistanın güvənəcəyi dövlət qalmayıb!

Rusiyaya dirsək göstərərək KTMT-dən çıxmaq, 102-ci bazanı ərazisindən qovmaq niyyətinə düşdüyündən növbəti sürprizlərə hazır olmalıdır...

İran isə ABŞ-nin onunla bir sərhədə gətirilməsinə görə haylara "sağ ol" deməyəcəkdir.

**Azərbaycan ölkə ərazisini separatçılardan və işğalçılardan təmizləyərək sərhədlərini bağlayıb, "dəmir yumruğ"unu hazır vəziyyətə gətirib!**

**Yoxlamaq istəyənlər buyursunlar!**

❖ ❖ ❖

**Bu gün ABŞ və Cənubi Qafqazda gözü olan bəzi Avropa dövlətləri Ermənistanın boynuna zəncir salaraq istədikləri səmtə sürüyürlər.**

Vassal, satellit dövlət yenə özgələrin əlində alətə çevrilib.

*Dalanda qalaraq dilənçi vəziyyətinə düşən, cavanları özgə torpaqlarını işğal etmək üçün ədalətsiz müharibənin qurbanlarına çevrilən, özü təcrid vəziyyətində qalaraq bütün inkişaf perspektivlərini itirən Ermənistan hələ də ağılsız siyasətinin altını çəkməkdədir.*

Günü harada xoş keçərsə, oranı özünə Vətən sayan bu millət sürətlə ölkəni tərk etməkdədir.

Hələ ki qazanan Ermənistanı bu günə salan keçmiş və hazırkı rəhbərləri, Qarabağda separatçılara uzun illər başçılıq etmiş korrupsioner "prezidentlər"dir.

R.Koçaryan və S.Sarkisyanı Ermənistanda qapıları taybatay açılan həbsxana gözləyir.

B.Saakyan, A.Qukasyan və A.Harutyunyan isə Bakıda layiq olduqları yerdə oturaraq çay içirlər.

"Qonşuya ümid olan şamsız qalar" - qədim Azərbaycan atalar sözüdür.

**Ermənistan kimlərəsə arxalanaraq otuz il Qarabağı işğalda saxladıqdan sonra "dəmir yumruq" tərəfindən ərazimizdən it kimi qovuldu!**

*Yenə əvvəlki xislətindən əl çəkməyib!*

*İndi Rusiyadan küsərək Qərbə yaxınlaşır.*

*Hesab edir ki, qərbdəkilər itirdiklərini geri qaytarmağa kömək edəcəklər.*

**Amma ən ağılsız heyvan sayılan uzunqulaq belə bir dəfə palçığa batdığı yerə ikinci dəfə girmir.**

**Erməni isə şalvarını çırmalayaraq yenidən palçıqlı yerə yaxınlaşmaqdadır.**

"Qozbeli qəbir düzəldər"- demişlər.

*Ermənistan xülyalarla yaşayaraq ərazisini Qarabağın hesabına genişləndirə bilməsə də, Yerablurun ərazisi xeyli genişlənib!*

**Necə deyərlər, can sizin, cəhənnəm Tanrının!**

Ağıllanmaq vaxtıdır!

**Bəxtiyar SADIQOV**







# YENİ AZƏRBAYCAN PARTİYASI
## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

## YAP Heydər Əliyevə olan məhəbbətdən və etimaddan yaranıb



**Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 31-ci ildönümü əlamətdar dövrə - Ulu Öndərimiz Heydər Əliyevin 100 illiyinə, cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinin 20-ci ilinə, suverenliyimizin tam təmin olunmasına və Xankəndidə zəfər bayramımızın qeyd olunmasına təsadüf edir. Bu fərəhli anlar xalqımızda böyük qürur və fərəh hissi doğurmaqla 2023-cü ilə yeni bir məna qatır və həyatımızı şərəfləndirir.**

Ümummilli Liderimiz Heydər Əliyev başda olmaqla hər bir Azərbaycan vətəndaşı uzun illər bu günlərin arzusu ilə yaşadı. Bu gün Ulu Öndərimizin, torpaqlarımız uğrunda şəhid olanların və ərazilərimizin işğaldan azad olunmasını görməyib dünyasını dəyişənlərin hər birinin ruhu şaddır, dövlətimizin, xalqımızın uğurlarına bizi istəyən hər kəs sevinir. Əlbəttə ki, bu uğurlar Heydər Əliyev ideyalarından, İlham Əliyevin uzaqgörən siyasətindən, müdrik düşüncələrindən, ağıllı planlarından, səmərəli proqram və layihələrindən, bir siyasi qüvvə kimi Yeni Azərbaycan Partiyasının xalqı və siyasi qüvvələri öz ətrafında sıx birləşdirməsindən qaynaqlanır.

Heydər Əliyevin siyasi hakimiyyətə ikinci dəfə gəlişini reallaşdıran və xalqı milli məqsəd uğrunda səfərbər edən YAP-ın çətin bir dövrdə - 1992-ci ilin təlatümlü noyabr ayında təsis edilməsinə baxmayaraq, qədəmləri uğurlu oldu. Çünki o, dünyanın ən böyük siyasətçilərindən, dövlət xadimlərindən sayılan, vətənini və xalqını canı qədər sevib uğrunda əzab-əziyyətlərə qatlaşan bir insanın - Ulu Öndərimizin xeyir-duası, gələcəyə yol açan zəkası ilə yaradılmışdı.

YAP xalqın Heydər Əliyevə olan sonsuz etimadının və məhəbbətinin ifadəsi idi. O, ölkədə hərc-mərcliyin, hakimiyyətsizliyin baş alıb getdiyi, torpaqlarımızın erməni faşistləri tərəfindən işğala məruz qaldığı günlərdə xalqın yekdil fikrinin, arzusunun əsasında yarandı. O dövrdə partiya yaratmaq və siyasi meydana atılmaq çox çətin və müşkül iş olsa da, bütün çətinliklər Heydər Əliyevin müdrik siyasəti və xalqın öz liderinə olan ehtiramı, məhəbbəti qarşısında aciz idi və zamanın sonrakı illəri bunu bir daha sübut etdi.

Yarandığı bir neçə aydan sonra siyasi hakimiyyətə gəlməyi, ölkəni ağır bəlalardan xilas etməyi, vətəndaş həmrəyliyi yaratmağı yalnız Heydər Əliyev kimi böyük şəxsiyyətin rəhbərlik etdiyi partiya bacara bilərdi. Çünki Azərbaycan xalqının Ulu Öndərimizə inamı sonsuz, məhəbbəti tükənməz idi. Xalqımız Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-82-ci illəri, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyətini, 20 Yanvar faciəsi zamanı o dövrdə ittifaq rəhbərlərinin çirkin əməllərinə qarşı səsləndirdiyi bəyanatları, onun xalqın istək və arzuları, ağrı-acıları ilə yaşadığını yaxşı bilir və dəyərləndirirdi. Ulu Öndərimiz çətin və ağrılı yollardan keçmiş, Azərbaycanın əleyhinə çox qüvvələrlə üzləşmiş, xalqımıza qarşı yönələn məkrli məqsədlərin qarşısını almışdı, heç vaxt da əzmini, qürurunu itirməmiş, sözündən dönməmişdi.

Heydər Əliyev əsl azərbaycanlı, əsl vətəndaş, əsl dövlət xadimi idi və o, xalqının mənafeyini hər şeydən uca tutan, dilini, dinini, tarixini, milli-mənəvi dəyərlərini sevən, ucaldan, qiymətləndirən, bəşəri ideyaları öz əməlləri ilə həyata keçirən bir insan idi. Məhz buna görə də xalqın istəyi ilə Heydər Əliyev YAP-ı yaratdı və Azərbaycan Ulu Öndərimizin cəsarəti, dönməz və uğurlu siyasəti, böyük təşkilatçılığı sayəsində ağır fəlakətlərdən xilas edildi. Ulu Öndərimizin unudulmaz tarixi xidmətlərindən, Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, o günlərin ağrı-acılarından çox yazılıb və bundan sonra da yazılacaq. Bu, təbii və qürurvericidir. Çünki bu günümüz məhz dünənimizin, Heydər Əliyevin qoyduğu təməlin, onun parlaq ideyalarının üzərində qurulur, inkişaf edir, gələcəyə yollar açır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev üçün bu yol uğurludur, bu ideyalar ölməzdir, bu amallar, əməllər qalibdir, məğlubedilməzdir. YAP-ın VII Qurultayında partiyamızın Sədri cənab Prezident Heydər Əliyev ideyalarının bəşəri, qalib, unudulmaz olduğunu xatırlatmaqla bu yolu bundan sonra da uğurla davam etdirəcəyinə əmin olduğunu bildirdi. Bu əminlik Prezidentin hakimiyyətə gəldiyi andan bu günə kimi əməllərində, xalqına sədaqətində, torpağına məhəbbətində özünü aydın şəkildə göstərmişdir. Ölkə rəhbəri 20 illik fəaliyyətini belə dəyərləndirir: "Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıya qoyduğum bütün vəzifələr icra edildi". Bu, söz deyil, nəticədir.

Heydər Əliyev ideyalarına sadiq olan Prezident İlham Əliyevin ən böyük uğuru isə düşmən üzərində tarixi qələbəmizdir. 44 günlük müharibə, 23 saatlıq anti-terror tədbirləri təcavüzkar Ermənistana, eləcə də beynəlxalq təşkilatların qətnamələrinə, qərarlarına, göstərişlərinə məhəl qoymayan, haqqı-ədaləti saymayan ermənipərəstlərə dərs oldu. Prezident İlham Əliyev uzaqgörən siyasəti, düşünülmüş gedişləri, şanlı ordumuzun müzəffər döyüşləri ilə Azərbaycan xalqının yenilməzliyini, qüdrətini, torpaq sevgisini bütün dünyaya sübut etdi. Bu həm də siyasi bir təşkilat kimi YAP-ın, Ulu Öndərimizin yaratdığı və gündən-günə möhkəmlənən, beynəlxalq aləmdə böyük nüfuz qazanan partiyamızın qələbəsi idi.

Partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada söz sahibinə çevrilir. İşğaldan azad olunmuş ərazilərdə möhtəşəm yenidənqurma, bərpa, tikinti-abadlıq işləri görülür və mühüm layihələr həyata keçirilir. Ata-baba yurdlarından didərgin salınan insanlar öz torpaqlarına qayıdırlar. Bir sözlə, Azərbaycan xalqı özünün ən fərəhli, ürəkaçan günlərini yaşayır. Başda ölkə rəhbəri olmaqla YAP-ın üzvləri, hər bir insan bu prosesdə yaxından iştirak edir, təşəbbüskarlıq göstərir və qələbələrimizə töhfə verməyə çalışır.

Heydər Əliyev Azərbaycanı məhz belə - azad, suveren, inkişaf edən, dünyada tanınan bir ölkə kimi görmək arzusunda idi və bunun üçün bütün həyatını sərf etdi. Azərbaycan Prezidentinin fəaliyyəti xalqımızın birliyi və təşəbbüskarlığı YAP-ın təsis edilməsinin 31-ci ildönümü günündə deməyə əsas verir ki, Ulu Öndərimizin, şəhidlərimizin, ata-babalarımızın arzuları çiçəklənir, istəkləri həqiqətə çevrilir, Azərbaycan yeni bir dünya yaradır, düşmənlərimizi xar etməklə dostlarımızı sevindirir.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***




## Xalqın ən etibarlı tribunası

**Yeni Azərbaycan Partiyası hər şeydən öncə tarixi zərurətdən yaranmışdı. Təkpartiyalı avtoritar sistemdən yenicə qopmuş müstəqil Azərbaycanda yeni siyasi mühitdə alternativ, demokratik təsisata ciddi ehtiyac var idi.**

Buna qədər yaranmış siyasi qurumların xalqın həyatında heç bir müsbət rol oynamaması, özünü təsdiq edə bilməməsi yeni siyasi təşkilatın yaranmasını labüd etmişdi. Bu gün sıralarında təmsil olunmağın qürurunu yaşadığımız, xalqın etimad və inam ünvanı Yeni Azərbaycan Partiyası məhz zamanın tələbi ilə yaranmışdı.

21 noyabr 1992-ci ildə Naxçıvanda 550 nəfər ziyalıdan ibarət təşəbbüs qrupunun iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Məclisdə partiyanın yaradılması haqqında tarixi qərar verildi. Partiyanın Nizamnaməsi, proqramı qəbul olunaraq Siyasi Şura, İdarə Heyəti formalaşdırıldı, hədəflər müəyyənləşdirildi. Konfransda Ulu Öndər Heydər Əliyevin yekdilliklə partiyanın Sədri seçilməsinin məntiqi nəticəsi olaraq YAP qısa müddət ərzində cəmiyyətin aparıcı qüvvəsinə, xalqın ən etibarlı tribunasına çevrildi.

Ölkədə fəaliyyətdə olan digər siyasi təşkilatların nümayəndələri belə sıralarında olduğu partiyalardan istefa verərək YAP-a üzv oldular. YAP o dövrdə kütlə psixologiyasının düşüncə tərzini dəyişərək sivil mübarizə siyasəti ilə Azərbaycan cəmiyyətinə mənəvi-ideoloji novatorluq gətirdi.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin yeni tipli siyasi təsisatda sədr olması, dövlətçilik, azərbaycançılıq məfkurəsi, vətəndaş həmrəyliyi və sosial ədalət prinsiplərinin partiyanın ana xəttini təşkil etməsi YAP-a ilk günlərdən ümumxalq sevgisi qazandırdı.

Beləliklə, partiyanın sıraları durmadan genişləndi və qısa zamanda vahid siyasi gücə çevrildi.

Heydər Əliyevin dünyamiqyaslı titanik şəxsiyyət olması və xalq gücünün vəhdətini yaradan YAP-a rəhbərlik etməsi, yenidən populyarlaşması və vətəndaşların sevgi ünvanı olması o dövr iqtidarını narahat etməyə başladı. Özünü demokrat, "ədalət carçıları" adlandıran iqtidar mənsublarının YAP-a total hücumları başlandı. Lakin bütün təzyiq və təhdidlərə baxmayaraq, alternativsiz siyasi lider Heydər Əliyevə ümumxalq sevgisinin qarşısında tab gətirə bilmədilər. Naşı siyasətçilər gülünc qərarları ilə ölkəni fəlakətə sürükləyəndə xalq Heydər Əliyevi və onun sədri olduğu Yeni Azərbaycan Partiyasını seçdi.

Həmin o ağır məşəqqətli günlərdə - 1993-cü ildə ölkəmizin vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi ilə baş-başa qaldığı vaxtda Heydər Əliyev canından çox sevdiyi Azərbaycana sahib çıxdı, ölkəmizi, xalqımızı bu faciələrdən xilas etdi. 1993-cü ildə Azərbaycanda keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyasının vahid namizədi kimi Heydər Əliyev səslərin 98,8 faizini topladı və Prezident seçildi.

Xalqımız bu seçim ilə gələcək qüdrətli Azərbaycanın təməlini yaratdı. Təsadüfi deyil ki,



YAP həm də ölkəmizdə xilaskarlıq partiyası, Ulu Öndərin ideyalarından güc alan idarəetmə məktəbi, ölkəmizdə yaşayan bütün xalqların, millətlərin multikultural siyasət mərkəzidir.

YAP monoetnik siyasi sistem deyil, Azərbaycanda yaşayan bütün xalqların istinad yeri, doğma ocağıdır. Məhz bu sevginin nəticəsi olaraq YAP 1993-cü ildən bu günümüzə qədər ölkəmizdə keçirilən bütün seçkilərdə şəffaf şəkildə qalib gəlib. Bu nəhəng siyasi qurum Cənubi Qafqazın ən uğurlu platforması, təsisatı kimi yüksək nüfuz sahibi, ideoloji güc mərkəzidir.

2005-ci il martın 26-da keçirilən YAP-ın III Qurultayında partiya Sədrinin müavini Prezident İlham Əliyevin quruma sədr seçilməsi və onun yeni çağırışlar üzərində apardığı islahatlar inkişafa daha da təkan verdi. Partiya sədri kimi Prezident İlham Əliyev dövlət və cəmiyyətin inkişafı istiqamətində sağlam əməkdaşlıq mühitini təşviq etməklə bütövlükdə ölkədə qarşılıqlı hörmət və ehtiram üzərində qurulan siyasi sistem yaradaraq geniş islahatlara başladı. Eyni zamanda iqtidar-müxalifət münasibətlərinin sağlam təməllər üzərində inkişafı, milli birliyə nail olunması, dövlətçilik maraqlarımızın qorunması, ölkədə demokratik siyasi mühitin yaranması partiya Sədri kimi Prezident İlham Əliyevin böyük xidmətlərindən biridir. Yarandığı gündən bu günümüzədək YAP-ın dövlət və vətəndaş cəmiyyətinin inkişafına töhfələri danılmazdır. Məhz bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP dövlətçilik və idarəçiliyin ən uğurlu formuludur.

YAP müstəqil Azərbaycanın tarixində silinməz izlər buraxıb. Bugünkü qüdrətli Azərbaycanın yüksəlişi birmənalı şəkildə Ulu Öndər Heydər Əliyevin adı, onun siyasi dühasının daşıyıcısı olan YAP-ın cəmiyyətdəki hakim rolu ilə bağlıdır. Ümummilli Liderin ölkəmizin məhvə məhkum olduğu günlərdəki xilaskarlıq missiyası olmasaydı, bu gün uğuruna sevindiyimiz, yenilməz siyasi varisi İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə bərpa etməklə dünyanı heyrətləndirən Azərbaycan da yox idi.

Yeni Azərbaycan Partiyası 700 mindən artıq siyasi əqidəli soydaşımızı vahid qüvvə kimi sıralarında birləşdirir. YAP ötən 31 ildə bütün vədlərinə tam şəkildə əməl edən fərqli bir siyasi qurum kimi Azərbaycanın xilaskarı, 200 illik tariximizdə bizə ilk dəfə Zəfər yaşadan Prezident İlham Əliyevin sədri olduğu qalib xalqın milli partiyasıdır. Qələbə isə dünənin, bu günün və sabahın partiyası olan YAP-ın alın yazısıdır!

**Rəşad MAHMUDOV,**
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü***

## YAP-ın Azərbaycanın siyasi həyatında özünəməxsus yeri var

**1992-ci ilin ağır və gərgin günlərində Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər.**



Bu məqsədlə onlar xalqın müdrik lideri Heydər Əliyevin şəxsiyyəti ətrafında sıx birləşdilər. Beləliklə, 1992-ci il noyabrın 21-də Azərbaycanın siyasi səhnəsində yeni siyasi təşkilat - Yeni Azərbaycan Partiyası təsis edildi.

YAP-ın yaranması və siyasi hakimiyyətə gəlməsi nəticəsində həmin dövrdə Azərbaycanda dağıdıcı proseslərin qarşısı alındı. Əgər həmin vaxt Azərbaycanda bu qərar qəbul edilməsəydi, Ulu Öndər yenidən hakimiyyətə gəlməsəydi, ölkəmiz qısa zamanda çox ağır duruma düşə bilərdi. Çünki daxili qarşıdurmalar və etnik separatçılıq meyilləri ölkəni uçuruma aparırdı. Belə bir vəziyyətin qarşısını isə yalnız Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti ala bilərdi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi nəticəsində YAP qısa zamanda inkişaf etdi, özünün dediyi kimi, dünənin, bu günün və gələcəyin partiyası adını qazanaraq qısa müddətdə bölgənin ən güclü partiyalarından birinə çevrildi.

Sonrakı illərdə isə YAP Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoydu. Nəticədə partiyanın nüfuzu, üzvlərinin sayı daha da artdı.

Bu gün YAP-ın üzvləri Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq, onun ideyalarının reallaşması üçün bütün sahələrdə səylə çalışırlar. Bu siyasətə sadiqlik cəmiyyətimizdə yaşanan həmrəylikdən və Ulu Öndərə olan ümumxalq sevgisindən xəbər verir. Azərbaycan durduqca bu sevgi hər zaman insanların qəlbində yaşayacaq.

YAP Azərbaycandakı digər partiyalarla sıx əməkdaşlıq edir. Partiyanın fəaliyyətində siyasi dialoqun inkişafı isə prioritet istiqamətlərdən biridir. Bütün bunlar sübut edir ki, YAP-ın dövlətimizin siyasi həyatında özünəməxsus yeri var.

**Ceyhun MƏMMƏDOV,**
***Milli Məclisin deputatı***

## Qələbələr partiyası

**Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan qısa müddət ərzində ümumxalq partiyasına çevrilərək bu günə qədər çox böyük, şərəfli və uğurlu yol keçib.**



Partiyanın yaradılması Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə ziyalıların təşəbbüsü və fəal iştirakı ilə gündəmə gəldi. Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və peşəkar siyasətçi Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər.

Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu.

Yeni Azərbaycan Partiyasının təsis konfransı 21 noyabr 1992-ci il tarixdə Naxçıvanda ölkəmizin bütün regionlarını təmsil edən və 550 nəfərdən ibarət olan təşəbbüs qrupunun iştirakı ilə keçirildi. Heydər Əliyev təsis konfransında partiyanın Sədri seçildi. Ulu Öndərin rəhbərlik etdiyi YAP qısa müddət ərzində cəmiyyətin aparıcı qüvvəsinə çevrildi. Partiya qısa zamanda inkişaf etdi, "dünənin, bu günün və sabahın partiyası" səviyyəsinə yüksəldi.

VII Qurultay partiyanın həyatında yeni mərhələnin əsasını təşkil edir. Partiyamızın Sədri Prezident İlham Əliyev qurultayda bildirib: "Partiyamızın VII Qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. YAP nəinki Azərbaycanın, həm də Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Yeni Azərbaycan Partiyası bundan sonra da bütün ölkəmizdə gedən proseslərin mərkəzində olacaq".

Yeni Nizamnaməyə uyğun olaraq, partiyanın Sədri cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci il 5 mart tarixdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini təyin edilməsi isə yüksək etimadın və Azərbaycanın dövlət siyasətində qadına ayrılan xüsusi diqqətin təcəssümüdür. Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının fəal ictimai-siyasi vətəndaş və peşəkar dövlət xadimi obrazı formalaşıb. Ümumiyyətlə, YAP-ın VII Qurultayı Azərbaycanın davamlı inkişafı və müasir dövrün çağırışları kontekstində partiyanın qarşısına yeni vəzifələri müəyyən edib.

Güc faktoru beynəlxalq münasibətlər sistemində aktuallığını qoruyub saxladığı üçün YAP hakim partiya olaraq öz siyasətini adekvat qurur. Dövlətin siyasi prioritetləri və beynəlxalq əməkdaşlıq vektoru milli maraqlar əsasında müəyyən olunur. Beynəlxalq müstəvidə fəal mövqe və qlobal təşəbbüslər Azərbaycana çoxlu sayda tərəfdaş qazandırıb. VII Qurultaydan sonra YAP beynəlxalq əlaqələrin gücləndirilməsi istiqamətində vacib addımlar atır. Bu baxımdan Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası ilə əlaqələrin daha da möhkəmləndirilməsi böyük əhəmiyyət kəsb edir. Eyni zamanda YAP müxtəlif beynəlxalq platformalarda da yaxından iştirak edir.

YAP öz təşəbbüsləri ilə partiyalararası siyasi dialoqu da stimullaşdırır. Siyasi dialoqun inkişafı dövlət siyasətinin prioritet fəaliyyət istiqamətlərindən biridir. VII Qurultayda qəbul olunmuş qərarlar da hakim partiyanın "iqtidar-xalq" modelinin real işə düşdüyünü, milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlandığını nümayiş etdirdi.

Ərazi bütövlüyümüzün bərpası birinci dərəcəli vəzifə kimi qarşıya məqsəd qoyuldu və bu vəzifə uğurla icra olundu. Prezident seçkilərindən sonra dövlət başçısının bəyan etdiyi proqram ardıcıllıqla icra edilir. Verdiyi vədlərə sadiq qalmış Azərbaycan iqtidarı bütün islahatları ardıcıllıqla icra edir. YAP-ın yeni proqramında yeni hədəflər dayanır ki, bu hədəflərin reallaşdırılması istiqamətində əməli addımlar atılır. Hesab edirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası bundan sonra da qələbələr partiyası statusunu qoruyacaq, yeni-yeni nailiyyətlərə imza atacaq.

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin deputatı,***
***Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini***

# YENİ AZƏRBAYCAN PARTİYASI

## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır




# Zəfərin siyasi təməli

**Ölkəmizin və bütövlükdə Cənubi Qafqazın ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının yaradılmasının 31 ili tamam olur. YAP ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində ölkəmizdə meydana çıxan mürəkkəb siyasi situasiyanın daxili məntiqindən, zamanın təxirəsalınmaz tələbindən irəli gələrək Azərbaycan xalqının arzu və istəklərinin ifadəçisi kimi yaranan partiyadır.**

Xaos və qeyri-sabitliyin hökm sürdüyü bir dövrdə Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq, məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya olan dövlətimizi xilas etmək məqsədilə xalqımızın milli maraqlar ətrafında birləşmiş sağlam qüvvələri, o cümlədən ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".

Nəticə etibarilə 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında YAP yaradıldı və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Bu, respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Hakimiyyət dairələrinin YAP-ın yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanları özlərinin ali məqsədlərindən döndərə bilmədi.

Xalqın Ümummilli Lider Heydər Əliyevə olan inamı isə tez bir zamanda siyasi səhnədə parlayan YAP-ın tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdi. Ümummilli Liderimizin nüfuzu, xalqın ona göstərdiyi yüksək etimad bu partiyanın qısa müddətdə təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. YAP yarandığı vaxtdan bir neçə ay sonra siyasi hakimiyyətə gəldi.

YAP siyasi sistemin monolit gücü və avanqard siyasi institutudur. Başqa sözlə, YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki avanqard yerinə görə Azərbaycanın siyasi palitrasının ən güclü və nüfuzlu partiyasıdır. YAP eyni zamanda ölkəmizdə siyasi mədəniyyətin və siyasi sistemin formalaşmasına, təkmilləşməsinə birbaşa, fundamental töhfələr verən ümumxalq partiyasıdır.

YAP-ın əldə etdiyi nailiyyətlərin ciddi tarixi və siyasi əsasları mövcuddur. YAP ötən müddətdə milli tərəqqiyə xidmət edən vəzifələrin yerinə yetirilməsinə layiqli töhfəsini verib, ölkəmizin qarşısında yeni inkişaf üfüqlərinin açılmasında müstəsna rol oynayıb.



Bütün bunlar müasir və qüdrətli Azərbaycanın gələcəyə əmin addımlarla irəliləməsini təmin edib. Partiyamız yarandığı vaxtdan xalqımıza xidmət onun başlıca amalı olub. Ümummilli Liderimiz Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik prinsipinə söykənən YAP ölkəmizin ən qabaqcıl nümayəndələrini öz sıralarında birləşdirərək müstəqil Azərbaycan dövlətinin qurulması yolunda geniş, çoxşaxəli fəaliyyət göstərib.

Partiyamızın yarandığı vaxtdan etibarən Azərbaycanda keçirilən bütün ümummilli seçkilərdə parlaq qələbələr qazanması hər kəsə bəllidir. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, hər seçkidən-seçkiyə partiyamızın uğurlarının miqyası genişlənir və bu, seçkilərin nəticələrində də özünü aydın şəkildə ifadə edir. Prezident İlham Əliyev də vurğulayıb ki, partiyamız uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib".

Öz gücünü xalqın dəstəyindən alan YAP ölkəmizdə davamlı islahatların həyata keçirilməsinə, ictimai-siyasi sabitliyin qorunmasına, Azərbaycanın inkişafına, dövlət müstəqilliyimizin güclənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun artmasına misilsiz töhfələr verib. 2021-ci ilin mart ayında keçirilən VII Qurultay isə partiyanın həyatında yeni mərhələnin başlanğıcıdır. Qurultayda partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. YAP-ın yeni Nizamnaməsi təsdiq olundu, İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev çıxışı zamanı Ümummilli Liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi inkişaf yoluna nəzər saldı, qarşıda duran vəzifələri diqqətə çatdırdı, mühüm fikirlər səsləndirdi.

Yeni Azərbaycan Partiyası ötən 31 il ərzində böyük inkişaf yolu keçib. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm zəfər, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi isə bu partiyanın da zəfərlər partiyası olduğunu təsdiqləyir. Əminliklə söyləmək olar ki, ümumxalq partiyası olan YAP bundan sonra da müstəqil Azərbaycanın həyatında ölkəmizin avanqard siyasi qüvvəsi olaraq mühüm rol oynayacaq.

**Pərvin KƏRİMZADƏ,**
***Milli Məclisin deputatı***

# Müxalifətdən YAP-a təbrik

## Daxili və xarici siyasətdə uğurlar hakim partiyanın mövqeyi ilə bağlıdır

**Yeni Azərbaycan Partiyası ölkənin aparıcı siyasi təşkilatıdır. Sıralarında 700 mindən çox üzv yer alır və partiyanın tərkibi ildən-ilə genişlənməkdədir. Keşməkeşli dövrlərdən keçən YAP-ın Azərbaycan dövlətinin yaradılması və inkişafı istiqamətində gördüyü işlər böyük əhəmiyyətə malikdir.**



Ulu Öndər Heydər Əliyev partiyanın ilk Sədri olub və 1992-ci ildə təsis olunmuş partiya, əslində, onun xarizması ətrafında yaranıb. Fəaliyyəti ilə özünü doğrultmuş bu partiyanın rəhbərliyi ilə Azərbaycan dövləti iqtisadi nailiyyətlərə nail olmuş, dövlətimizi kataklizmlərdən çıxartmış, nəhayət, Prezident İlham Əliyevin simasında müzəffər dövlətə çevirmişdir.

Yeni Azərbaycan Partiyasının bu fəaliyyəti təkzibolunmazdır, təqdirəlayiqdir və biz bunu çox yüksək qiymətləndiririk. Yeni Azərbaycan Partiyası özünün inkişaf dövründə həmişə hətta ona inanmayanları belə YAP-ın sağlam əqidəsinə inandırmağı bacarıb və monolit qüvvə kimi özünü göstərib. Təsadüfi deyil ki, parlamentdə Yeni Azərbaycan Partiyasının təmsilçiliyi daha yüksəkdir. Çünki YAP aparıcı qüvvəyə malikdir və həmişə olduğu kimi söz sahibidir.

Yeni Azərbaycan Partiyasının fəaliyyətinə uğurlar arzulayıram. İnanıram ki, partiyanın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə YAP daha da inkişaf edəcək. Azərbaycan daha böyük uğurlara imza atacaq, məqsədlərinə nail olacaq və dövlətimizin qarşısında duran böyük vəzifələr yerinə yetiriləcək. Şübhəsiz ki, Azərbaycanın daxili və xarici siyasətdə uğurları Yeni Azərbaycan Partiyasının və onun rəhbərliyinin mövqeyi ilə bağlıdır. Hakim partiyanın davamlı fəaliyyəti nəticəsində Azərbaycan inkişaf etmiş gözəl bir dövlət olacaq. Necə ki dövlət suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etmişik, bütün torpaqlarımızda Azərbaycanın üçrəngli bayrağı ucaldılıb, bununla yanaşı, bütün sahələrdə də böyük nailiyyətlər əldə edəcəyik.

Vəhdət Partiyası olaraq partiyanın hörmətli Sədri cənab İlham Əliyevi, birinci müavini Mehriban xanım Əliyevanı və bütün partiya üzvlərini ürəkdən təbrik edir və onlara Azərbaycan naminə fəaliyyətlərində uğurlar arzulayıram.

**Tahir KƏRİMLİ,**
***Milli Məclisin deputatı,***
***Vəhdət Partiyasının sədri***

# Monolit və avanqard siyasi güc

**Respublikamızın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının yaranmasının 31-ci ili tamam olur. Əbədiyaşar şəxsiyyət, xalqımızın Ulu Öndəri Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda təsis olunan YAP milli ideallara bağlı, ölkəmizin gələcəyini düşünən insanları öz ətrafında birləşdirmiş, öz fəaliyyəti ilə qısa zamanda Azərbaycanın siyasi həyatına mühüm yeniliklər gətirmişdir.**

Ən yeni tariximizdən də bəlli olduğu kimi, xalqımız dövlət müstəqilliyini bərpa etdikdən sonra hakimiyyət uğrunda mübarizənin qeyri-sivil forma alması, iqtidarda bir-birini əvəz edən siyasi qrupların anormal fəaliyyətləri, idarəçilikdə yol verdikləri ciddi qüsurlar Azərbaycanın gələcəyini sual altında qoymuşdu. Bütün bunlar, o cümlədən düşdüyü dərin sosial-iqtisadi böhran xalqın bütün zümrələrinin, o cümlədən ziyalıların son dərəcə narahatlığına səbəb olmuşdu. Müstəqil dövlətçiliyimizin taleyinin, xalqımızın gələcəyinin belə sual altına düşdüyü həmin təbəddülatlı dövrdə bütün Azərbaycan ictimaiyyəti nicat yolunu görkəmli dövlət xadimi Heydər Əliyevin proseslərə müdaxiləsində, onun liderliyi ilə hakimiyyət uğrunda sivil mübarizə apara bilən bir partiyanın təsis edilməsində və Ulu Öndərin siyasi hakimiyyətə qayıdışında görürdülər.

1992-ci ilin oktyabr ayında Azərbaycan ziyalılarının Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində çalışan Heydər Əliyevə müraciətində bu barədə deyilir: "Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər".

Azərbaycan ziyalılarının və bütövlükdə cəmiyyətimizin həmin ağır günlərdə Heydər Əliyevi xilaskar kimi qəbul etməsi və ona üz tutması təsadüfi deyildi. Çünki buna qədər hər bir vətəndaş Heydər Əliyevdən hansı vəzifəsində çalışmasından və harada yaşamasından asılı olmayaraq dövlətə və xalqa layiqli xidmət nümunəsi görmüşdü. Hələ sovetlər dövründə Azərbaycanı tarixi inkişaf yoluna çıxaran bu böyük şəxsiyyət bütün vəzifələrindən istefa verdikdən sonra belə öz xalqının yanında olmuş, 20 Yanvar faciəsi zamanı Azərbaycanın haqq səsini bütün dünyaya çatdırmışdı. Naxçıvana qayıtdıqdan sonra Heydər Əliyev xalqımızın milli azadlıq mücadiləsinə böyük töhfələr vermiş, öz siyasi dühası ilə onu yeni mərhələyə yüksəltmiş, muxtar respublikanı Ermənistanın təcavüzündən qətiyyətlə qorumuş, Türkiyə və İranla mühüm əlaqələr yaratmışdı.

Ona görə Azərbaycanın hər yerindən Naxçıvana məktublar gəlir, vətəndaşlar Heydər Əliyevə yeni partiya quruculuğu ilə bağlı müraciət edirdilər. Onların Naxçıvana səfər edərək Heydər Əliyevlə görüşmələri Ulu Öndərə olan böyük etimaddan qaynaqlanırdı.

Beləliklə, bütün məqamlarda öz xalqının yanında olan Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci ilin noyabrında YAP-ın yaranması xalqımızın dahi oğlunun Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin qorunması ilə bağlı başlatdığı böyük missiyasının ilk və mühüm mərhələlərindən birini təşkil edir. Odövrkü hakimiyyət nə qədər cidd-cəhdlə YAP-ın yaradılmasının qarşısını almağa çalışsa da, buna nail ola bilmədi. Çünki "xalq-Heydər" birliyinin qarşısını heç bir qüvvə ala bilməzdi. Təsadüfi deyil ki, həmin dövrdə partiyanın yaranması Azərbaycanda əlamətdar siyasi hadisəyə çevrilmiş, tezliklə on minlərlə vətəndaş onun sıralarına qoşulmuşdu. Partiyanın dövlət qeydiyyatına alınması da onun siyasi gücə çevrilməsinin təcəssümü idi.



YAP müxalifət partiyası kimi yaranmışdı. Amma bu gün özünü müxalifət hesab edən bəzi siyasi qruplardan fərqli olaraq YAP dövlətə və milli maraqlara yox, yarıtmaz idarəçiliyi ilə ölkəni uçuruma aparan AXC-Müsavat hakimiyyətinə qarşı müxalifətdə idi.

1993-cü ildə xalqın istək və arzusu ilə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi YAP-ın da statusunu dəyişərək, fəaliyyətini yeni mərhələyə yüksəltdi. Beləliklə, yarandıqdan qısa müddət sonra respublikamızın hakim partiyasına çevrilən YAP öz proqramını, məqsəd və məramını layiqincə həyata keçirməyə başladı, Ulu Öndərin başlatdığı islahatlara, dövlət quruculuğu prosesinə layiqli töhfələr verdi.

Bütün seçkilərdə YAP-ın qalib gəlməsi Heydər Əliyev partiyasına ümumxalq sevgisinin göstəricisidir. Böyük qürur hissi ilə üzvü olduğum YAP-ın sıralarında hazırda 720 mindən artıq vətəndaşımızın birləşməsi Heydər Əliyev yoluna olan inamın, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri möhtərəm İlham Əliyevə ümumxalq etimadının göstəricisidir.

YAP-ın sıralarında Azərbaycan ictimaiyyətinin bütün sosial zümrələri, o cümlədən ağsaqqallar, qadınlar birləşiblər. Eyni zamanda partiyanın böyük bir gənclik ordusu var. YAP üzvü olan gənclərimiz partiya həyatında fəal olmaqla yanaşı, ölkədə gedən bütün siyasi-ictimai proseslərin önündə gəlirlər.

Qeyd etmək istərdim ki, YAP bu gün öz fəaliyyətini müasir çağırışlar səviyyəsində uğurla qurmağı bacaran siyasi partiyadır. Bu mənada xüsusilə qeyd etmək istərdim ki, YAP-ın 2021-ci il martın 5-də keçirilmiş VII Qurultayında qəbul edilən qərarlar, Prezident İlham Əliyevin sərəncamı ilə Birinci vitse-prezident Mehriban Əliyevanın partiya Sədrinin birinci müavini təyin edilməsi partiyanın fəaliyyətini yeni mərhələyə yüksəldib. Sonuncu qurultaydan ötən dövr göstərir ki, partiyada yeni idarəçilik mexanizminin yaradılması, yeni Nizamnamənin qəbulu partiya fəaliyyətində mühüm uğurlarla müşayiət olunur. Həmçinin bu müddətdə YAP-ın beynəlxalq əlaqələri də əhəmiyyətli dərəcədə genişlənib.

Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin, Prezident İlham Əliyevin müdrik siyasətinin nəticəsi olaraq Azərbaycan sürətlə yüksəlir, qarşısında dayanan bütün hədəflərə qətiyyətlə çatır. Torpaqlarımızın işğaldan azad edilməsi, Qarabağda erməni separatizminə son qoyulması və milli suverenliyimizin bərpası da bu siyasətin nəticəsi və təntənəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu uğurlar isə YAP-a böyük güc verir, partiya fəaliyyətini yeni mərhələyə yüksəldir. Ona görə YAP-ın uğurlu fəaliyyətinin təməlində dayanan ən böyük amil Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi nailiyyətlərimizdir. YAP bundan sonra da hakim partiya və siyasi flaqman statusunu layiqincə daşıyacaq.

**Cəbi QULİYEV,**
***Milli Məclisin deputatı***

# YENİ AZƏRBAYCAN PARTİYASI

## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

# Regionun ən böyük siyasi qüvvəsi

**Azərbaycanın ən ağır günlərində, müstəqilliyimizin itirilməsi təhlükəsi ilə üz-üzə qaldığımız bir vaxtda xalqımızın ziyalıları siyasi partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə görkəmli dövlət xadimi Heydər Əliyevin ətrafında birləşdilər. 91 nəfər ziyalının Heydər Əliyevə müraciətində ondan yeni yaradılacaq partiyaya sədrlik etmək xahiş olunurdu. Bu müraciət həm də xalqın istək və arzusunu ifadə edirdi.**



1992-ci il noyabrın 21-də Azərbaycanın bütün regionlarından seçilmiş 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını keçirməyə nail oldu. Təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar qəbul edildi və Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Konfransda həmçinin partiyanın Proqram və Nizamnaməsi də qəbul edildi. Beləliklə, bu gün də regionda ən böyük və güclü siyasi partiya olan YAP-ın təməli qoyuldu.

Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış YAP-ın əsas prinsipi və vəzifəsi dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, demokratik, hüquqi dövlət qurulması, eləcə də vətəndaşların dinc və firavan həyat sürməsini təmin etməkdir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirir.

Ümummilli Lider Heydər Əliyev xalqını sevən, müstəqil Azərbaycanın yaşaması və güclü dövlət olması üçün canını belə əsirgəməyən dahi şəxsiyyət idi. 1993-cü ildə Azərbaycan vətəndaş müharibəsi astanasında olanda və ölkəmiz parçalanma təhlükəsi ilə üz-üzə qalanda bütün xalq Heydər Əliyev müdrikliyinə sığındı və bu ağır vəziyyətdən qurtuluşun yeganə yolunu Heydər Əliyev dühasında gördü. Heydər Əliyev müdrik və qətiyyətli siyasəti ilə xalqı ağır vəziyyətdən ən qısa vaxtda çıxarmağı bacardı.

1993-cü ildə YAP-ın Sədri Heydər Əliyev xalqın böyük əksəriyyətinin səs çoxluğu ilə Prezident seçildi və YAP iqtidar partiyası oldu. Həmin tarixdən bugünkü güclü, qüdrətli Azərbaycan dövlətinin təməli qoyuldu.

YAP-ın 2005-ci il martın 26-da keçirilən III Qurultayında İlham Əliyev partiyanın yeni Sədri seçildi. Bu, dövlətimizin başçısına olan etimadın göstəricisi idi.

Bu gün dövrün tələblərinə uyğun olaraq Yeni Azərbaycan Partiyasında da islahatlar aparılır. YAP-ın VII Qurultayında qəbul edilmiş qərarlar əsasında partiyanın yeni Nizamnaməsi, 40 nəfərdən ibarət İdarə Heyəti, 13 nəfərdən ibarət Təftiş Komissiyası, 35 nəfərdən ibarət Veteranlar Şurası təsdiq edilmişdir.

YAP-ın yeni Nizamnaməsinə uyğun olaraq partiyanın Sədri İlham Əliyevin sərəncamı ilə 2021-ci il martın 5-də Mehriban Əliyeva partiya Sədrinin birinci müavini təyin edildi. Bu təyinat Mehriban Əliyevaya olan yüksək etimadın və Azərbaycanın dövlət siyasətində qadına ayrılan xüsusi diqqətin nəticəsidir. Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının fəal, ictimai-siyasi, vətəndaş və peşəkar dövlət xadimi obrazı formalaşmışdır.

YAP həmçinin təşəbbüskar bir partiya kimi hər zaman digər siyasi partiyalarla dialoqa hazır olduğunu bəyan etmişdir. YAP həm də Avropa və Asiyada iqtidarda olan bir çox siyasi partiyalarla sıx əməkdaşlıq edir.

YAP-ın hakim partiya olduğu dövrdə Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən inkişaf edərək qüdrətli dövlətə çevrilmişdir. Dünya Bankının qiymətləndirməsinə görə, ölkəmiz 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil edilmişdir. Həmçinin son 20 ildə iqtisadiyyatımız 4 dəfədən çox artmışdır. İxracın həcmi artaraq 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına çatmışdır. Dövlət büdcəsində qeyri-neft sektorundan gələn gəlirlər neft-qaz sektorunun gəlirlərini üstələyir. Bu gün Azərbaycanın strateji valyuta ehtiyatları 66 milyard ABŞ dollarından çoxdur.

Azərbaycan Prezident, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi ilə bu gün dünyada söz sahibinə çevrilmişdir. Dünya liderləri də ölkə başçımızın güclü, qətiyyətli, müdrik siyasətçi və mahir diplomat olduğunu vurğulayırlar.

**Kamilə ƏLİYEVA,**
***Milli Məclisin deputatı***




# YAP-ın şanlı missiyası

**Ölkəmizin siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaranması və təşəkkül tapması milli tariximizdə mühüm yer tutan Ulu Öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. YAP-ın həyata keçirdiyi tədbirlər, qəbul etdiyi tarixi qərarlar ölkəmizin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi və Azərbaycanın bugünkü inkişaf səviyyəsinə çatması baxımından mühüm rol oynayıb.**



Tarixi zərurətdən yaranmış Yeni Azərbaycan Partiyası elə bir dövrdə formalaşmışdır ki, müstəqilliyimiz, milli varlığımız real təhlükə qarşısında idi. Xalqımızın əsrlərdən bəri ürəyində yaşatdığı azadlıq amallarını beşiyindəcə boğmağa cəhd göstərən qara qüvvələr heç nədən çəkinməyərək ən çirkin vasitələrə belə əl atırdılar. Xalqın istəyini nəzərə alaraq Ulu Öndərə müraciət edən məşhur "91-lər"in cəsarətli addımları nəticəsində dağıdıcı proseslərin qarşısı alındı.

Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu.

Ümummilli Lider Heydər Əliyev isə ziyalılara göndərdiyi 1992-ci il 24 oktyabr tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq vermişdi. 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə partiyanın təsis konfransının keçirilməsi müstəqil Azərbaycanın tarixində parlaq gələcəyin əsasını qoydu.

Yeni Azərbaycan Partiyasının qısa müddətdə xalqın sevimli partiyasına çevrilməsinin isə tək bir səbəbi var idi - xalqın partiyanın Sədrinə olan böyük inamı. Zaman göstərdi ki, xalq Ümummilli Liderin ətrafında sıx birləşməklə öz gələcəyini təmin etmiş oldu. 1993-2003-cü illərdə Azərbaycanda elə bir sahə olmadı ki, diqqətdən kənarda qalsın. Ulu Öndər ölkə həyatında baş verən bütün problemlərə həssaslıqla yanaşdı və onların həllinə çalışdı. Ölkədə bir zamanlar xəyal edilən nəhəng iqtisadi layihələr həyata keçirildi. Ulu Öndərin siyasi iradəsi və peşəkar diplomatik fəaliyyəti sayəsində "Əsrin müqaviləsi" imzalandı, Bakı-Tbilisi-Ceyhan layihəsi reallaşdı. Dövlət, ordu quruculuğu sahəsində ciddi işlər görüldü. Beynəlxalq təşkilatlar məhz Ulu Öndərin siyasi nüfuzuna arxalanaraq müxtəlif sahələrdə Azərbaycan ilə əməkdaşlığa başladılar.

Ulu Öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisi bütün sahələrin inkişafında öz aydın ifadəsini tapdı. Dövlətçiliyin əsasları yaradıldı, ordu quruculuğu istiqamətində mühüm tədbirlər həyata keçirildi. İqtisadi və siyasi islahatların vəhdətliyinin qorunması davamlı uğurlara yol açdı. Azad mətbuat formalaşıb inkişaf etdi, insan hüquq və azadlıqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi və sair kimi demokratik təsisatların inkişafı təmin olundu. Ən əsası, 1995-ci ilin 12 noyabrında Milli Konstitusiyamız qəbul edildi. Azərbaycan beynəlxalq aləmdə yerini və mövqeyini möhkəmləndirdi. İkitərəfli və çoxtərəfli çərçivədə əlaqələrin inkişafı Azərbaycan həqiqətlərinin təbliğində, erməni diasporunun Azərbaycanın ətrafında yaratdığı informasiya blokadasının yarılmasında əhəmiyyətli rol oynadı.

Bir sözlə, Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqil və suveren dövlət kimi fəaliyyətini təmin edən strategiyanı işləyib hazırladı və həyata keçirdi.

Ümummilli Liderin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində cəmiyyətin aparıcı qüvvəsinə çevrildi. Dahi şəxsiyyət cəmiyyətimizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasını qısa zamanda inkişaf etdirdi, özünün dediyi kimi, "dünənin, bu günün və sabahın partiyası" səviyyəsinə yüksəltdi. 31 illik fəaliyyəti dövründə sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmləndirən YAP xalqın sevgisi və dəstəyi ilə ümumxalq partiyasına çevrilib.

Bu gün Heydər Əliyev mənəvi-siyasi irsinin ən layiqli davamçısı, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan çağdaş tarixinin yeni şanlı səhifələri yazılır. İkinci Qarabağ müharibəsində əldə etdiyimiz Zəfər bu imkanları şərtləndirir. Bu gün hər bir vətəndaşımız azərbaycanlı olmaq qürurunu yaşayır. Bu tarixi Qələbəni müəyyənləşdirən bir cəhət də onun döyüş meydanında qan bahasına, can bahasına əldə olunmasıdır. Heç şübhəsiz, Azərbaycan bu qələbəni əldə etməklə öz tarixinin qızıl səhifəsini, şərəf və ləyaqət səhifəsini yazıb. Artıq biz Yeni Azərbaycan Partiyasının ildönümlərini torpaqlarımızın işğaldan azad olunduğu, ərazi bütövlüyünün bərpa edildiyi bir dövrdə qeyd edirik. Bu şanlı tarixi yaşatdığına görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyev cənablarına borcluyuq.

2021-ci ilin 5 mart tarixində keçirilən Yeni Azərbaycan Partiyasının VII Qurultayı əlamətdar tarixi hadisə, Zəfərimizin yaratdığı reallıqlara uyğun olaraq atılan addım kimi dəyərləndirildi. Qurultayda ölkə həyatının bütün istiqamətlərində YAP-ın qarşısında dayanan vəzifələr diqqətə çatdırıldı. Möhtərəm Prezidentimiz, partiyamızın Sədri cənab İlham Əliyevin vurğuladığı kimi, YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var. Həyat dəyişir, zəmanə dəyişir. Biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın.

VII Qurultayda qəbul olunmuş qərarlar hakim partiyanın "iqtidar-xalq" modelinin real işə düşdüyünü, milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlandığını nümayiş etdirdi. Prezident seçkilərindən sonra ərazi bütövlüyümüzün bərpası birinci dərəcəli vəzifə kimi qarşıya məqsəd qoyuldu və bu vəzifə uğurla icra olundu. Prezident seçkilərindən sonra ölkə başçısının bəyan etdiyi proqram ardıcıllıqla icra edilir.

Bu günümüzün əsas reallığı soydaşlarımızın işğaldan azad edilmiş Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışının başlamasıdır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində keçmiş məcburi köçkünlər 31 ildən sonra könüllü olaraq təhlükəsiz və yaşayış üçün yararlı olan doğma yurdlarına qayıdırlar. Uzun illər düşmən tapdağı altında qalan, yerlə yeksan olunan torpaqlarımızda bərpa-quruculuq işlərinin ölçüyəgəlməzliyi görülən işlərin miqyasında özünü aydın şəkildə göstərir.

**Kamran BAYRAMOV,**
***Milli Məclisin deputatı***

# Siyasi mədəniyyət nümunələri yaradan partiya

**Müasir Azərbaycan dövlətçiliyinin qurulması, möhkəmləndirilməsi və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.**



Məhz müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətçiliyini xaos və böhran məngənəsindən çıxarmış, ümummilli fəlakətin - vətəndaş müharibəsinin qarşısını almış, döyüş cəbhəsində məğlubiyyətlər seriyasına son qoymuş və atəşkəs rejiminin tətbiqinə nail olmuş, bir sözlə, xalqımızın taleyində misilsiz xilaskar missiyasını şərəflə yerinə yetirmişdir. O, Azərbaycanda siyasi plüralizm, siyasi mədəniyyət və siyasi sistemin yaranmasının əsasını qoyan nadir şəxsiyyətdir.

Ümummilli Liderin 1992-ci il noyabrın 21-də müxalifət partiyası olaraq yaratdığı Yeni Azərbaycan Partiyası (YAP) hakimiyyətə sivil yolla gəlməyin əsl "yol xəritəsi"ni ortaya qoydu. Bununla da siyasi mədəniyyət və siyasi əxlaq nümunəsi yaratdı. Bu nümunə özündə sağlam, obyektiv, şəffaf və demokratik mübarizə mədəniyyətini ehtiva edir və qələbə təminatına görə unikaldır. YAP Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu ümumxalq partiyasında cəmiyyətin bütün təbəqələri iştirak edirlər.

YAP uğurlu inkişaf yolu keçib. Hələ yaradıldığı vaxt ərazi bütövlüyümüzün pozulması təhlükəsi ilə üz-üzə qalmışdıq. Erməni işğalçıların aramsız hücumları, cənubda "Talış Muğan Respublikası"nın elan edilməsi, şimalda "Sadval" təşkilatının ərazi iddiaları və Gəncədə Surət Hüseynova məxsus hərbi hissənin qiyam qaldırması həmin dövrdə ölkəmizin dəhşətli siyasi kataklizmlər mərhələsində olduğunu bir daha təsdiqləyir. Əslində, respublikamız real vətəndaş müharibəsi astanasında idi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü. İnflyasiya 1992-ci ildə 117 faizə, 1993-cü ildə isə 1080 faizə çatmışdı. Yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi və xahişi ilə hakimiyyətə qayıdışından sonra bu ağır problemlər öz həllini tapmağa başladı. Lakin bu prosesin özü də hamar yol ilə getmədi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında Azərbaycanın müstəqilliyini istəməyən xarici qüvvələrin himayəsi ilə respublikamızda dövlət çevrilişlərinə cəhdlər edildi. Prezident Heydər Əliyevlə xalqın sarsılmaz birliyi bu sınaqlardan da uğurlu çıxışı təmin etdi. Zəmanəmizin dühası olan Heydər Əliyev xalqımızın və dövlətçiliyimizin tarixində, əgər bir sözlə ifadə etmək mümkünsə, məhz Xilaskar missiyasını yerinə yetirdi.

Ümummilli Lider Azərbaycanda demokratik inkişaf proseslərinin də əsasını qoydu. Ölkəmizdə şəxsiyyətin azadlığı və toxunulmazlığı, habelə onların hüquqi müdafiəsi təmin edildi, çoxpartiyalı sistem üçün əsaslar yaradıldı, siyasi plüralizm, vicdan və etiqad azadlığı, milli azlıqların hüquqları, qanun qarşısında bərabərlik təmin edildi.

Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan bu gün etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. O, Azərbaycanın çağdaş tarixinə yeni missiya ilə daxil olmuşdur. İlham Əliyevin rəhbərliyi altında Azərbaycan özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. O öz əməlləri ilə xalqın və dövlətin sonsuz sevgisini qazanmış lider kimi xoşbəxtdir. Məsələyə bu xüsusda yanaşdıqda böyük qürur və fəxarət hissi ilə deyə bilərik ki, Prezident İlham Əliyev xoşbəxt dövlət rəhbəridir. Xalq ona görə cənab Prezidenti sevir ki, o, müasir Azərbaycan dövlətçiliyinin banisi Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiqdir və son 20 ildə ölkəmizi uca zirvələrə yüksəldir. Xalq ona görə prezidentini sevir ki, o, məhz lideri olduğu çoxmillətli və çoxkonfessiyalı Azərbaycanın milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir.

Onu da qeyd etmək lazımdır ki, 44 günlük Vətən müharibəsində əldə etdiyimiz zəfərimiz yeni tarixi reallıqlar yaratmış, yeni strateji vəzifələr müəyyən edilmişdir. Həmin vəzifələrin icra edilməsi üçün ölkənin siyasi sisteminin mərkəzi elementi olan YAP-ın üzərinə böyük məsuliyyət düşür. Məhz bu məsuliyyətdən irəli gələrək Prezident İlham Əliyevin rəhbərliyi altında 2021-ci il martın 5-də YAP-ın VII Qurultayı keçirildi. Qurultayın qəbul etdiyi qərarlar partiyanın yeni tarixi dövrdə çevikliyi və dinamizminin daha da artırılması, onun icra mexanizmlərinin təkmilləşdirilməsi mənafeyinə xidmət göstərir. Partiyanın yeni İdarə Heyəti formalaşdırılmışdır. Bu prosesdə şəffaflıq məsələləri çox böyük önəm kəsb edir. Cənab Prezident də həmişə vurğulayır ki, şəffaflıq hər bir dövlətin inkişafının göstəricisidir. Məsələyə bu prizmadan yanaşdıqda, partiyanın rəhbər orqanlarından biri kimi Təftiş Komissiyasının formalaşması da böyük əhəmiyyət kəsb edirdi. Həmçinin ilk dəfə olaraq partiyanın tərkibində Veteranlar Şurası yaradıldı. Beləliklə, YAP-ın daha da güclənməsi mənafeyinə xidmət göstərən islahatlar həyata keçirildi.

Bu qurultayda 6 siyasi partiyanın YAP ilə birləşmək niyyətini ortaya qoyması isə bir daha göstərir ki, iqtidar partiyasının cəzbetmə əmsalı kifayət qədər böyükdür. Ayrı-ayrı siyasi partiyalar öz proqramlarında ərazi bütövlüyü məsələsini priorotet vəzifə olaraq müəyyən etmişdilər və gördükdə ki, Ali Baş Komandan, Prezident və hakim partiyanın rəhbəri olaraq cənab İlham Əliyev bu tarixi missiyanı şərəflə yerinə yetirmişdir, bu halda həmin siyasi qüvvələr gələcək talelərini məhz YAP sıralarında görməyi məqbul variant olaraq irəli sürmüşlər.

Beləliklə, Ulu Öndər Heydər Əliyev dühasının məhsulu olan və müasir Azərbaycan dövlətçiliyinin qorunması və inkişafında misilsiz xidmətlərə imza atan YAP öz müzəffər liderinin - Prezident İlham Əliyevin rəhbərliyi altında yeni tarixi vəzifələrin icrası prosesinə böyük töhfələr vermək niyyətində və iqtidarındadır. Bu, ilk növbədə, 30 illik erməni işğalından azad edilmiş Qarabağın bərpası və yenidənqurulması kimi tarixi missiyanın icrası, habelə epoxal uğurlarımızın təminatında müstəsna əhəmiyyətə malik olan siyasi dialoq mühitinin qorunması və dərinləşdirilməsi prosesinə yüksəksəviyyəli dəstəyin verilməsi anlamını özündə ehtiva edir.

**Elman NƏSİROV,**
***Milli Məclisin deputatı***

# YENİ AZƏRBAYCAN PARTİYASI

## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

## Tarixi missiyasını layiqli şəkildə reallaşdıran partiya

**Yeni Azərbaycan Partiyası Azərbaycanın tarixinin ən mürəkkəb və keşməkeşli dövründə yaranıb. 1990-cı ilin əvvəllərində bir-birini əvəz edən nihilist, xalqa heç bir bağlılığı olmayan hakimiyyətlər tərəfindən Azərbaycanın dövlətçiliyi, müstəqilliyi və suverenliyi fəlakətə sürükləndiyi situasiyada xalqımız əmin idi ki, bizi bu bəlalardan yalnız Heydər Əliyev dühası xilas edə bilər.**



Ona görə Ermənistanın təcavüzü, eləcə də qlobal miqyasda təzyiqlərin davam etdiyi bir şəraitdə Azərbaycan xalqının imkanlarını, müstəqillik çoşqusunu xarici ünsürlərə qarşı yönəltməkdənsə, həmin dövrdə hakimiyyətdə olan iqtidar bütün gücünü Heydər Əliyevə qarşı birləşdirmiş, cəmiyyətin iradəsinin ziddinə olaraq, onu mümkün qədər hakimiyyətdən və siyasi səhnədən kənar saxlamağa çalışırdı.

Lakin Azərbaycan xalqı yaxşını pisdən, tərəqqini iflasdan müdrikcəsinə seçməyi bacardı və dövrün vətənpərvər aydınları Heydər Əliyev dühası ətrafında birləşərək siyasi partiya yaratmaq qərarına gəldilər. Bu gün insan haqları və demokratiyadan danışan antimilli ünsürlər əllərində iqtidarda olduqları zaman hakimiyyətdən doğan güc və imkanlardan sui-istifadə edərək, nəinki Ulu Öndərin rəhbərliyi ilə hər hansı siyasi təşkilatın qeydə alınması, bütövlükdə qeydiyyat prosesinə qədər həmin təşkilatın təsis konfransının keçirilməsi üçün yer ayrılmasına belə mane oldular.

Nəticədə 1992-ci il noyabrın 21-də 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı, Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə təsis konfransının yalnız Naxçıvanda keçirilməsi mümkün oldu. Bu, müstəqil Azərbaycan tarixində yeni bir səhifənin başlanğıcı idi. Beləliklə, 1992-ci ilin noyabrından etibarən Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin əsas hərəkətverici qüvvəsinə çevrildi.

YAP müxalifət partiyası kimi yaranmışdı və siyasi sistemdə tək deyildi. Lakin digər çoxsaylı siyasi təşkilatlardan fərqli olaraq Heydər Əliyev tərəfindən yaradıldığı və funksionerləri xalqın sınanmış lideri və peşəkar siyasətçi Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdiyi üçün partiya ilk gündən böyük populyarlıq qazandı. Xalq Heydər Əliyevin güc, imkan və potensialına bələd idi. İnsanlar yaxşı xatırlayırdılar ki, 1969-cu ildə Ümummilli Liderin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə respublikamız geri qalmış ucqar subyektdən SSRİ-nin iqtisadi flaqmanına çevrilmiş, mədəniyyət, incəsənət, ədəbiyyat intibah dövrünə qədəm qoymuşdu. Azərbaycan dövlətinin müstəqilliyinin bərpası üçün bazis də məhz bu dövrdə formalaşmağa başlamışdı.

Sonrakı dövrdə real nəticəyə, əsl müstəqilliyə aparan yol məhz Ümummilli Liderin 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərini çıxarmağa nail olması və Cümhuriyyətin üçrəngli bayrağını Naxçıvanda rəsmi bayraq kimi qəbul etməsi ilə başlamışdı. Xalq deyilənlərə, təbliğat və təşviqata yox, yaddaşına, gördüyünə inanırdı və Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları məhz bu reallıqları, xalqın sifarişini rəhbər tutaraq Heydər Əliyevə yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahişi ilə müraciət etmişdilər.

YAP yarandığı gündən öz üzərinə mürəkkəb dönəmlərini yaşayan Azərbaycanda o dövrə qədər heç bir siyasi qüvvənin daşıya bilmədiyi miqyasda böyük tarixi missiya götürdü. Xalqın Heydər Əliyev şəxsiyyətinə olan inamı YAP-ı qısa müddətdə cəmiyyətin aparıcı qüvvəsinə çevirdi. Gözləntilər özünü doğrultdu. Ulu Öndər Heydər Əliyevin yaratdığı partiya cəmi 7 aylıq müxalif mövqeyin ardınca ölkəmizdə siyasi sabitliyin və davamlı inkişafın, müstəqilliyin, suverenliyin, ərazi bütövlüyünün təminatçısı kimi çıxış edən, Azərbaycanı tarixinin ən güclü dövlətinə çevirən iqtidar partiyasına çevrildi.

Özünün vəsiyyət xarakterli sonuncu müraciətində Ulu Öndər Azərbaycan xalqını əmin edirdi ki, "həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər". Sovet Azərbaycanında Heydər Əliyevdən sonra, müstəqil Azərbaycanda isə Heydər Əliyevə qədər heç bir rəhbər dövlətçiliyin varisliyini təmin edə, xalqın vahidliyinin təcəssümü ola bilməmişdi. Prezident İlham Əliyevin hakimiyyətə gəlişi ilk növbədə Heydər Əliyevin qurduğu Azərbaycanda dövlətçiliyin varisliyini təmin etdi. Bu prosesdə isə İlham Əliyevin əsas dayaqlarından biri doğma YAP oldu. Bu partiyanın 2005-ci il 26 mart tarixdə keçirilmiş III Qurultayında Ulu Öndər Heydər Əliyevin siyasi irsinə sadiq qalaraq, onun layiqli siyasi və hüquqi varisi İlham Əliyev partiyanın yeni Sədri seçildi. Cənab İlham Əliyevin rəhbərliyi dövründə YAP Heydər Əliyev ideyalarına sadiq qalmaqla, ümumi siyasi ideya və məqsəd ətrafında birləşdirən siyasi partiya statusunu daha da möhkəmləndirdi.

Prezident İlham Əliyevin YAP-ın VII Qurultayında ifadə etdiyi kimi, Yeni Azərbaycan Partiyası ölkəmizdə gedən bütün proseslərin mərkəzində yer aldı. Azərbaycan Prezidentinin ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini təyin edilməsi isə YAP-ın fəaliyyətinə layiqli töhfələr verdi.

Ulu Öndərin azərbaycançılıq məfkurəsinə daha bərk sarılan xalqımızın İlham Əliyevin ətrafında bir yumruq kimi daha çox birləşməsi, İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyümüzün bərpası, sərhəd toxunulmazlığı və konstitusiya quruluşunun bütün ölkə ərazisində bərqərar olunması həm də YAP-ın böyük uğurlarıdır.

**Bəhruz MƏHƏRRƏMOV,**
***Milli Məclisin deputatı***



# Xalqın partiyası

**Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanda müxtəlif partiyalar meydana çıxdı. Lakin yaranan hər partiya xalq arasında siyasi nüfuz qazana bilmirdi.**



İnsanlar isə bütün cəmiyyəti, sosial zümrələri öz ətrafında birləşdirə bilən bir partiyanın yaranmasını arzu edirdilər. Bu partiya Ulu Öndər Heydər Əliyevin liderliyi ilə təsis olunan Yeni Azərbaycan Partiyası oldu.

YAP-ın təsis konfransı 1992-ci il noyabrın 21-də Naxçıvanda ölkəmizin bütün regionlarını təmsil edən və 550 nəfərdən ibarət olan təşəbbüs qrupunun iştirakı ilə keçirildi. Konfransda böyük tarixi şəxsiyyət, siyasət fenomeni Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi, YAP-ın yaranması tarixi hadisə idi və qısa zamanda böyük siyasi gücə çevrildi. YAP zamanın partiyası kimi fəaliyyətə başladı. O, dövlətçiliyin, xalqın, gələcəyin partiyası idi. Bu partiya ilk gündən milli ruhun siyasi nüfuzu kimi fəaliyyət göstərdi. Ulu Öndər Heydər Əliyev YAP-ı qısa zamanda inkişaf etdirdi, özünün dediyi kimi, "dünənin, bu günün və gələcəyin partiyası" səviyyəsinə yüksəltdi.

Bu gün YAP Azərbaycan cəmiyyətinin aparıcı siyasi təsisatıdır. Onun siyasi platforması dövlətçiliyin əsasları ilə, qanunçuluqla, azərbaycançılıqla, vətəndaş həmrəyliyi ilə, sosial ədalət prinsipləri ilə, bəzi məqamlarda milli mentalitetlə səsləşir. Bu təşkilat milli məfkurənin partiyasıdır.

YAP Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət və azad vətəndaş cəmiyyəti qurmaq məqsədilə irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən asılı olmayaraq vətəndaşları ümumi siyasi ideya və məqsəd ətrafında birləşdirən partiyadır.

Cəmiyyət kimi siyasi partiyalar da inkişaf edir. Bu inkişaf təkcə kəmiyyətlə bağlı deyil. Bu inkişaf partiyanın siyasi prosesləri hansı səviyyədə nəzarətdə saxlamağa qadir olması ilə müəyyənləşdirilir. VII Qurultayda qəbul edilmiş qərar əsasında YAP-ın yeni Nizamnaməsi, İdarə Heyəti, Təftiş Komissiyası və Veteranlar Şurası təsdiq edildi. Hazırda YAP-ın 720 min nəfərdən çox üzvü var.

Siyasi partiyalar xalqın etimadı ilə əhatələnəndə, xalqın iradəsinin icraçısı olanda dövlətçilik üçün daha səmərəli fəaliyyət göstərir. Dövlətçilikdən uzaq düşən siyasi partiyalar cəmiyyətdə etibarını, deməli, yaşamını itirir. Bu baxımdan YAP dövlətçiliyin möhkəmləndirilməsinin cəfakeşidir.

YAP-ın yeni Nizamnaməsinə uyğun olaraq, partiyanın Sədri cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci il martın 5-də Mehriban xanım Əliyeva partiya Sədrinin birinci müavini təyin edilib. Bu təyinat yüksək etimadın və Azərbaycanın dövlət siyasətində qadına ayrılan xüsusi diqqətin təcəssümüdür.

YAP-ın ideya istiqaməti dövlətə, dövlətçiliyə sədaqətdir. Bu, hər bir partiya üzvünün ilkin öhdəliyidir, yerinə yetirməli olduğu vəzifə borcudur.

Xalqımızın əsas problemi torpaqlarımızın işğal altında olması idi. Təsadüfi deyil ki, ölkə Prezideti, YAP Sədri cənab İlham Əliyev torpaqlarımızın azadlığını dövlətin əsas vəzifəsi elan etmişdi. Bu vəzifənin yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlər uğurla yerinə yetirildi. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuz torpaqlarımızı işğaldan azad etdi.

YAP-ın 5 fəsildən ibarət yeni Proqramı ("Partiyanın inkişafı və uğurları", "Siyasi dəyərlər və prinsiplər", "Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları", "Partiyanın əsas hədəfləri" və "Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya") fəaliyyətin yeni, dövlətçilik baxımından daha gərəkli istiqamətlərini müəyyənləşdirib.

Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz". Bu sözlər cəmiyyətin daha dinamik inkişafını şərtləndirən tezisdir. YAP dövlət və cəmiyyətin inkişafı naminə sağlam əməkdaşlıq mühitini başlıca şərt bilir. Açıq və etibarlı münasibətlərin dönməzliyinə xidmət edən islahatlar yeni siyasi konfiqurasiyanın tərkib hissəsidir. İqtidar-müxalifət münasibətlərinin sağlam təməllər üzərində inkişaf etdirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin siyasətini xarakterizə edən əsas göstəricilərdən biridir.

Noyabr ayının 21-i xalqın partiyası olan Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsinin 31-ci ildönümüdür. YAP bundan sonra da öz proqramından irəli gələrək layiqli siyasi fəaliyyət nümunələri yaradacaq.

**Səbinə XASAYEVA,**
***Milli Məclisin deputatı***

## Milli məfkurənin daşıyıcısı

**Yeni Azərbaycan Partiyası xalqımızın taleyinin müəyyənləşdiyi çətin dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü ilə obyektiv zərurətdən yaradılıb. Məlumdur ki, sovetlər birliyinin dağılmasından sonra müstəqilliyə qovuşmuş respublikalar taleyin ümidinə buraxılmışdı. Rəhbərliyi yerində olan respublikalar keçid dövrünü rahatlıqla reallaşdırırdılar. Lideri olmayan respublikalar isə böyük çətinliklərlə qarşılaşmalı oldular.**



Həmin vaxt Azərbaycan da lidersiz qalmışdı. Meydan hərəkatında önə çıxaraq azadlıqdan, demokratiyadan və müstəqillikdən danışanlar kreslolarda otursalar da, reallıq tamam başqa idi. Elə ovaxtkı rəhbərin televiziyaya açıqlamasında yerində olmadığını etiraf etməsi də sübut edir ki, onlar vəzifənin məsuliyyətini başa düşmürdülər.

Əsl rəhbərin olmaması yenicə müstəqilliyə qədəm qoymuş Azərbaycanın gələcəyini şübhə altına salırdı. Bu səbəbdən də Ermənistan keçmiş Dağlıq Qarabağın müstəqilliyini elan edərək torpaqlarımızı işğal etməyə başladı. Belə olan halda küçədə qışqıranlar vəzifə başına keçməyə və dövləti talamağa başladılar.

Həmin ağır günlərdə ölkəni ancaq Heydər Əliyev xilas edə bilərdi. Ziyalılar birləşərək ölkənin xilası üçün yeni bir siyasi partiyanın yaradılmasını qərara aldılar. Bu siyasi partiyanın rəhbəri isə Ulu Öndər Heydər Əliyev ola bilərdi. Çünki onun qədər dövlətçilik təcrübəsi, idarəetmə bacarığı olan ikinci şəxs yox idi. Ona görə də 91 ziyalı xalqın adından Heydər Əliyevə müraciət edərək ondan yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etməsini xahiş etdilər. 1992-ci il noyabrın 21-də Azərbaycanın bütün regionlarını təmsil edən 550 nəfərin iştirakı ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Təsis konfransında YAP-ın Nizamnaməsi və Proqramı qəbul edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi.

Bununla da Azərbaycan xalqının həyatına yeni siyasi güc, yeni nəfəs daxil oldu. YAP-ın yarandığı dövr ölkə həyatının ağır böhranlı zamanına təsadüf etdiyinə görə bu partiyanın qarşısında böyük vəzifələr dayanırdı. Bunun ən birincisi ölkəni düşdüyü ağır durumdan xilas etmək idi. Onu da qeyd edək ki, YAP təsis olunduğu vaxtdan heç bir il keçməmiş iqtidara gələn çox nadir siyasi güclərdən biridir. Məhz YAP-ın iqtidara gəlməsi dövlətimizin və xalqımızın həyatında dönüş nöqtəsi oldu.

Partiyanın yaranmasından ötən 31 ilə nəzər yetirəndə biz ölkəmizin və xalqımızın həyatında ancaq inkişaf, intibah və qələbələrin şahidi oluruq. Partiyamızın yaradıcısı Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə dövlətçiliyin əsasları yaradıldı və dərin islahatlar keçirildi. Azərbaycan dövlət müstəqilliyini möhkəmlətdi və beynəlxalq tribunalardan öz sözünü deməyə başladı.

YAP-ın 2005-ci il martın 26-da keçirilmiş III Qurultayında Prezident İlham Əliyev partiyanın Sədri seçildi. Dövlət başçısı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu uğurla davam etdirəcəyini və qarşısında dayanan bütün vəzifələrə nail olunmaq üçün çalışacağını vəd etdi.

Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatıdır. YAP ölkədə vətəndaş həmrəyliyi və birliyinin yaradılmasında həlledici rol oynadı.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin hər günündə xalqımız ölkədəki sarsılmaz birliyi və həmrəyliyi real əməldə sübut etdi. Hamı bir məqsəd ətrafında birləşərək Ali Baş Komandanın "dəmir yumruğ"una çevrildi. Sübut olundu ki, YAP-ın iqtidarda olması ilə ölkədə vətənini canından da çox sevən gənc nəsil yetişdirilib. Həm də bunun nəticəsi idi ki, cəmi 44 gün ərzində torpaqlarımız Ermənistanın 30 illik işğalından azad olundu və Ali Baş Komandan, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önündə dahi liderin vəsiyyətini və tapşırığını icra etməsi ilə bağlı raport verdi. Torpaqlarımızın düşmən işğalından azad olunması ilə Ulu Öndər Heydər Əliyevin qarşıya qoyduğu başlıca vəzifə Prezident İlham Əliyevin rəhbərliyi ilə icra edildi. Böyük Qələbəyə imza atılandan sonra YAP-ın həyatında yeni bir dövr açıldı.

2021-ci il martın 5-də keçirilmiş VII Qurultayda Prezident İlham Əliyev partiyanın fəaliyyətinin yeni çağırışlara uyğun davam etdirilməsi üçün istiqamətlər müəyyənləşdirdi. Həmçinin partiyanın tərkibində və fəaliyyətində islahatların keçirilməsinə başlandı.

YAP regionun xalq arasında etimad qazanmış ən böyük siyasi qüvvəsidir. Bunun nəticəsidir ki, partiyamızın sıralarına hər gün yeni üzvlər qoşulur. YAP ölkənin aparıcı siyasi gücü olmaqla yanaşı, digər partiyaları da siyasi dialoqa dəvət edir, onların da normal fəaliyyətinin təmin edilməsi üçün şəraitin yaradılmasına təşəbbüslə çıxış edir. YAP bir sıra ölkələrin aparıcı partiyaları ilə də ikitərəfli əməkdaşlıq haqqında sazişlər imzalayıb.

YAP-ın iqtidarda olduğu dövrdə respublikamız böyük inkişaf yolu keçib. Bu dövrdə siyasi və iqtisadi müstəqilliyə nail olduğumuza görə, Azərbaycan dünyada nüfuzlu və etibarlı tərəfdaşa çevrilib. Məhz YAP-ın hakimiyyətdə olması ilə Azərbaycan Respublikası bundan sonra da böyük uğurlara imza atacaq və xalqımız hər zaman firavan yaşayacaq.

**Azər BADAMOV,**
***Milli Məclisin deputatı***

## YENİ AZƏRBAYCAN PARTİYASI
### milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

# 31 illik şərəfli yol



**Müasir Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu, ölkəmizin siyasi həyatında önəmli rol oynayan qələbələr və zəfərlər partiyası olan YAP-ın təsis edilməsinin 31 ili tamam olur. Yeni Azərbaycan Partiyası həqiqətən də son 31 illik tariximizin şanlı səhifələrindəndir.**

Partiyamız tariximizin son dərəcə ağır və keşməkeşli günlərində ölkəmizin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Heydər Əliyevin rəhbərliyi altında birləşən Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranmış, dövlətimizin gələcək taleyini müəyyən etmişdir. Yeni Azərbaycan Partiyası yarandığı gündən Azərbaycan xalqının rifahının yaxşılaşdırılması, dövlətçiliyin qorunub saxlanılması, ölkə iqtisadiyyatının sürətli inkişaf yoluna çıxarılması üçün gərgin fəaliyyət göstərmişdir.

Ötən əsrin 80-ci illərinin sonlarından etibarən Azərbaycanın üzləşdiyi böhran və fəlakət xalqın sabaha olan ümidlərini demək olar ki, qırmışdı. Qarabağ cəbhəsində məğlubiyyətlər davam edirdi, əhali doğma yurdlarından qovulur, onlara vəhşicəsinə divan tutulur, ev-eşikləri yandırılırdı.

Ovaxtkı iqtidar Ağdamı olduqca təhlükəli, məkrli siyasi oyunlar mərkəzinə çevirmişdi. Ölkədə baş alıb gedən özbaşınalığın ən böyük zərbəsi ağdamlılara dəyirdi. Ovaxtkı iqtidarın bacarıqsızlığı, səriştəsizliyi və xəyanəti sayəsində demək olar ki, müstəqilliyimiz əldən gedirdi. Ölkədə gedən proseslər - böhran, iqtisadi tənəzzül, siyasi sabitsizlik müstəqilliyimizə böyük zərbələr vururdu.

Azərbaycanın çətin günlərində bütün xalqımızın, o cümlədən də ağdamlıların gözü Naxçıvana dikilmişdi. Çünki yeganə ümid yeri Naxçıvan Ali Məclisinin Sədri, qəlbi daim xalqı ilə döyünən Ulu



Öndər Heydər Əliyev idi. Hər bir Azərbaycan ziyalısı kimi, ağdamlılar da çox yaxşı bilirdilər ki, yalnız Heydər Əliyev kimi güclü və dəmir iradəli şəxsiyyət ölkənin bu çətin günlərində öz çiynini belə ağır, son dərəcə məsuliyyətli yükün altına verə bilər. Bu addımı yalnız Vətəni və xalqı naminə hər cür fədakarlığa hazır olan insan ata bilər. Xalqın gündən-günə Ümummilli Lider Heydər Əliyev şəxsiyyətinə olan inamı daha da artaraq ümumxalq məhəbbətinə çevrilmişdi. Belə bir vaxtda bir qrup Azərbaycan ziyalısı Naxçıvana gedərək ölkəmizi bu bəladan qurtara biləcək yeni bir partiya yaratmaq arzusu ilə Heydər Əliyevə müraciət etdi. Ulu Öndər yeni yaradılacaq partiyaya rəhbərlik etməyə razılıq verdi.

Beləliklə, çox çətin vəziyyətdə 1992-ci ilin noyabr ayında Naxçıvanda yeni partiyanın təsis konfransı keçirildi və Ulu Öndərin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası yaradıldı. Ağdamlıların nümayəndələri də Naxçıvana gedib Heydər Əliyevlə görüşdükdən sonra partiyanın təəssübkeşləri Ağdamda da YAP-ın rayon təşkilatının təsis yığıncağının keçirilməsi üçün hazırlıq işlərinə başladılar. Bunun üçün 1992-ci ilin axırlarından ilk addımlar atılmışdır. Xalq cəbhəsinin hakimiyyətdə olmasına baxmayaraq, 1993-cü ilin əvvəllərində rayon ziyalılarından ibarət təəssübkeşlər fəaliyyət göstərirdilər. Onlar partiyanın rayon təşkilatını yaratmaq üçün çətin şəraitdə mübarizə aparırdılar. Çünki ovaxtkı iqtidar tərəfindən belə bir partiyanı yaratmaq istəyən insanlara qarşı təzyiqlər göstərilir və təsis konfransının keçirilməsinə imkan vermirdilər. Ancaq ağdamlıları Heydər Əliyevə olan inamından döndərmək mümkün deyildi. Nəhayət, gərgin mübarizədən sonra 1993-cü ildə Bərdə şəhərində Yeni Azərbaycan Partiyası Ağdam Rayon Təşkilatının təsis konfransı keçirildi. Beləliklə, YAP Ağdam Rayon Təşkilatı yaradıldı, onun sədri və idarə heyətinin üzvləri seçildi.

Təsadüfi deyil ki, 1993-cü ilin yayında Azərbaycanda vətəndaş qarşıdurması başlanan dövrdə cəmiyyətimizin bütün ümidləri yenə də Heydər Əliyevə bağlanmışdır. Xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər qısa müddət ərzində vəziyyəti sabitləşdirdi və bu da imkan verdi ki, ölkəmiz inkişaf yoluna qədəm qoysun. O ildən bu günə qədər Azərbaycan yalnız inkişaf yolu ilə gedir.

Yeni Azərbaycan Partiyası yaradıldıqdan sonra müəyyən dövrdə çox çətinliklərlə üzləşdi, problemlər yaşadı. Ancaq buna baxmayaraq, partiyanın ideyaları, Ulu Öndərin müdrikliyi, onun cəmiyyətdəki nüfuzu və rolu bütün maneələri dəf edərək irəlilədi. Yeni Azərbaycan Partiyasının ilk addımları Azərbaycanda siyasi sabitliyin bərpasına yönəlmişdi. Partiyanın yaradıcısı və rəhbəri olan Ulu Öndər Heydər Əliyevə sədaqətli insanlar siyasi fəallıq göstərərək bu yoldan dönmədilər. Heydər Əliyevin siyasi hakimiyyətə qaydışından sonra partiyanın inkişafında yeni mərhələ başladı. Həmin dövrdə Yeni Azərbaycan Partiyasının qarşısında bir tərəfdən iqtidar partiyası kimi cəmiyyətin siyasi sistemində özünün aparıcı mövqeyini təsdiq etmək, digər tərəfdən isə müstəqil dövlət quruculuğu proseslərində yaxından iştirak etmək vəzifəsi dayanırdı. Yeni Azərbaycan Partiyası bu missiyanı yüksək səviyyədə, şərəflə yerinə yetirdi. Bu gün öz sıralarında 760 mindən çox üzvü birləşdirən Yeni Azərbaycan Partiyası Ümummilli Liderin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu gündən-günə möhkəmləndirməkdədir. Bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız yeni inkişaf mərhələsini yaşayır və Cənubi Qafqazın ən güclü siyasi təşkilatına çevrilib.

Yeni Azərbaycan Partiyası Ulu Öndərimizin rəhbərliyi altında yarandığı gündən ölkəmizin inkişafı naminə çox mühüm layihələr reallaşdırıb, Heydər Əliyev ideyalarına sadiqlik nümayiş etdirib. Yeni Azərbaycan Partiyası və onun numayəndələri bütün seçki kampaniyalarında iştirak etmiş və böyük üstünlüklə qələbə qazanaraq bütün siyasi partiyaları arxada qoymuşdur.

Yeni Azərbaycan Partiyası yarandığı gündən ötən 31 il ərzində Azərbaycanın müstəqil, demokratik, sivil dövlət kimi qurulması və möhkəmləndirilməsində, vətəndaş cəmiyyəti quruculuğunda ən fəal, qabaqcıl siyasi rol oynamaqla bu istiqamətdə mühüm tarixi əhəmiyyətli işlər görmüşdür.

Xalqımız əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin dəstəkçisidir. Yeni Azərbaycan Partiyası Ümummilli Liderin ideyaları əsasında və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq şərəfli inkşaf yolu keçmişdir.

20 illik rəhbərliyi dövründə Prezident cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi Azərbaycan tarixinə qurucu dövlət başçısı olaraq adını yazdırdı, Azərbaycanı Cənubi Qafqazın ən güclü, müasir və modern dövlətinə çevirməyi bacaran lider və torpaqlarımızı işğaldan azad edərək Müzəffər Ali Baş Komandan kimi hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu sübuta yetirdi.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Yeni Azərbaycan Partiyasının gücləndirilməsi və inkişafı istiqamətində atılan addımlar da çox mühüm əhəmiyyət kəsb etdi. Xüsusilə partiyamızın VII Qurultayında dövlət başçısının qarşıya qoyduğu vəzifələrin icrasına nail olunması, siyasi sistemin və ictimai-siyasi münasibətlərin inkişafına, demokratik dəyərlər və ənənələrin gücləndirilməsinə, bütövlükdə isə ölkəmizin tərəqqisinə yeni təkan və töhfə oldu.

Azərbaycanın 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm tarixi qələbə qazanaraq öz ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsinə müvəffəq olması isə çoxəsrlik dövlətçilik tariximizin zirvə hadisəsi və şanlı qürur səhifəsidir. İkinci Qarabağ müharibəsinin məntiqi davamı olaraq 19 sentyabr 2023-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə cəmi 24 saata yaxın müddət ərzində həyata keçirilmiş antiterror tədbirləri nəticəsində isə qeyri-qanuni erməni hərbi birləşmələrinə ciddi zərbələr endirildi və düşmən ağ bayraq qaldıraraq təslim oldu. Bununla da ərazidə olan qanunsuz hərbi birləşmələrin tərk-silah edilməsi prosesinə başlanıldı və bu qısamüddətli antiterror tədbirləri Azərbaycanın həm hərbi, həm də diplomatik sahədə əldə etdiyi növbəti tarixi Zəfər salnaməsinə çevrildi.

Bu gün işğaldan azad olunmuş digər rayonlarımız kimi, Ağdam rayonunda da tikinti-quruculuq və ümumi infrastruktur layihələrinin icrası uğurla davam etdirilməkdədir.

Ötən il oktyabrın 5-də işğaldan azad olunmuş Ağdam şəhərində Azərbaycan Milli Şəhərsalma Forumu keçirildi. Forumda çıxış edən Prezident cənab İlham Əliyev mühüm məqamlara toxunaraq dünyaya mesaj verdi. Xüsusilə vurğulamaq lazımdır ki, şəhərsalma sahəsində müxtəlif biliklərə sahib mütəxəssislərin təcrübəsi baxımından tədbirin məhz Ağdamda, erməni vandalları tərəfindən tamamilə dağıdılmış şəhərdə keçirilməsinin müstəsna əhəmiyyəti var idi. Milli Şəhərsalma Forumu Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi rol oynadı. Hazırda Prezident İlham Əliyevin müvafiq göstəriş, tapşırıqları əsasında Ağdam rayonunda quruculuq-tikinti işləri uğurla davam etdirilməkdədir. Bu da onu söyləməyə əsas verir ki, qısa müddət ərzində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" Ağdam rayonunda da sürətlə icra olunur. Ağdamlılar yurda dönəcəkləri günü səbirsizliklə gözləyirlər.

Yeni Azərbaycan Partiyasının Ağdam Rayon Təşkilatı öz işlərini həm partiyanın Proqram və Nizamnaməsindən, həm də onun qurultaylarının qərarlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində qurub. Ən əsas diqqət ona yönəldilib ki, partiyanın qurultaylarının mahiyyəti və məqsədi yerlərdə düzgün təbliğ olunsun və bu işin xüsusilə gənclər arasında geniş aparılması gündəlik fəaliyyətə çevrilsin.

Son zamanlar Yeni Azərbaycan Partiyası sıralarına qəbul olmaq istəyənlərin sayı əhəmiyyətli dərəcədə artıb. Sevindirici haldır ki, Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunanların böyük əksəriyyəti gənclərdir. Gələcəyin təminatçısı olan gənclərin partiyamızın sıralarına həvəslə daxil olması Prezident İlham Əliyevin uğurlu siyasət xəttini bəyəndiklərini və dəstəklədiklərini bir daha sübut edir.

Bu gün deyə bilərəm ki, ağdamlı gənclər hörmətli Prezidentimiz cənab İlham Əliyevin siyasi xəttini dəstəkləməklə rayon partiya təşkilatının aparıcı qüvvəsi kimi geniş təbliğat işləri aparırlar.

Yeni Azərbaycan Partiyası Ağdam Rayon Təşkilatı bundan sonra da Ulu Öndərimiz, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin ideyalarına sadiq qalacaq, hörmətli Prezdentimiz, partiyamızın Sədri cənab İlham Əliyevin apardığı daxili və xarici siyasət xəttini dəstəkləməklə onun ən fəal təbliğatçılarından olacaq.

**Mansur QULİYEV,**
***YAP Ağdam Rayon Təşkilatının sədri***

# Dünənin, bu günün və gələcəyin partiyası



**31 il öncə, 1992-ci ilin soyuq, şaxtalı qış günlərinin birində Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis qurultayı çağırıldı. Burada Azərbaycanın bütün bölgələrindən iştirak edənlər var idi. Yaranan yeni partiyaya Azərbaycan xalqının xilaskar lideri Ulu Öndər Heydər Əliyev rəhbərlik etməli idi. Bu, xalqın istəyi, tələbi idi. Çünki xalq ermənilərin azərbaycanlılara qarşı düşmən münasibətini görür və bunu aradan qaldırmaq üçün bir siyasi təşkilata ehtiyac olduğunu bilirdi.**

YAP 1992-ci ildə Naxçıvanda təsis olunsa da, Azərbaycanın bütün bölgələrində nümayəndə heyəti var idi və bu nümayəndələr də öz bölgələrinə qayıdarkən partiyanın arzu və istəklərini reallaşdırmaq üçün mübarizəyə başladılar. Bu, sivil qaydada olan mübarizə idi və artıq xalq da dərk edirdi ki, 1992-ci ilin yayında hakimiyyətə gələn iqtidar Azərbaycanı idarə edə bilmir, siyasi hərc-mərclik baş alıb gedir.

1993-cü ildə Gəncə qiyamı birillik hakimiyyətə son qoydu və xalqın tələbi ilə Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyev Bakıya gəldi. Ulu Öndərin hakimiyyətə gəlişindən sonra Yeni Azərbaycan Partiyasının funksionerləri Azərbaycanın idarəçiliyinə cəlb olundu və 31 ildir ki, bu partiya Azərbaycanı uğurla idarə edir.

İstinadı azərbaycançılıq olan bu ideologiya ölkəmizdə yaşayan xalqları birləşdirdi, tolerantlığı gücləndirdi, din-dövlət münasibətlərini qaydaya qoydu, ən əsası isə Azərbaycan üçün ağrılı olan keçmiş Dağlıq Qarabağ problemini həll etdi. Ümummilli Lider Heydər Əliyevin mübarizəsi artıq bütün dünyaya bəyan etdi ki, Qarabağ tarixi Azərbaycan torpağıdır.

Dahi şəxsiyyətdən sonra partiyaya başçılıq edən İlham Əliyev cənabları bütün Azərbaycan xalqını partiya ətrafında, azərbaycançılıq ideologiyası ətrafında birləşdirə bildi, güclü ordu, iqtisadiyyat yaratdı. Azərbaycan həqiqətlərini dünyaya yaydı, beynəlxalq hüququn normalarının yerinə yetirilməli olduğunu təsbit etdi. Xalq Ali Baş Komandana, Yeni Azərbaycan Partiyasının Sədrinə inanırdı və partiya üzvləri Azərbaycan həqiqətlərini dünyaya yaymaq üçün sədaqətli əsgər kimi mübarizəyə başladı. Bu mübarizənin nəticəsidir ki, 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsində düşmən darmadağın edildi və Azərbaycan öz tarixi torpaqlarını işğaldan azad etdi.

Bu gün 800 minə yaxın üzvü olan Yeni Azərbaycan Partiyasında gənclərin xüsusi yeri var, eyni zamanda partiya veteranlarının təcrübəsindən kifayət qədər istifadə olunur. YAP-ın dünyanın demokratik partiyaları ilə əlaqələri mövcuddur, razılaşmalar əldə olunub, beynəlxalq əlaqələri genişdir. YAP xarici dövlətlərlə təcrübə mübadiləsi aparır və partiyanın üzvləri bu ölkələrə rəsmi səfərlər edirlər.

YAP-ın yaranmasından 31 il keçir və geriyə baxanda düşünürük ki, nə yaxşı ki, partiyanın yaradılması ideyası reallaşıb. Çünki məhz YAP Azərbaycanı bütün müdaxilələrdən, əzablardan, xalqımızı qaçqın və köçkün həyatından qurtarıb.

Bu gün Azərbaycanın işğaldan azad olunan ərazilərində quruculuq işləri gedir, Böyük qayıdış həyata keçirilir. Təbii ki, hakim partiya olan YAP bu məsələlərin uğurla həll olunması üçün əlindən gələni edir. Çünki Heydər Əliyevin bünövrəsini qoyduğu bu partiya bu gün Cənubi Qafqazın ən böyük partiyasıdır, həmçinin partiyanın apardığı işlər Azərbaycan xalqının arzu və istəklərini reallaşdırır. Nə qədər ki, Azərbaycan var, YAP da azərbaycançılıq ideologiyasını uğurla həyata keçirməklə ölkəmizin bütövlüyünü qoruyacaq. Azərbaycanın hər yerində üçrəngli bayrağımız şərəflə dalğalanır. Ölkəmizdə separatçı qüvvələr darmadağın edilib, torpaqlarımızdan çıxarılıb. Bu gün bütün Azərbaycan xalqı azərbaycançılıq ideologiyası ətrafında birləşib və xoşbəxt gələcəyi olan Azərbaycan üçün mübarizə aparır. Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır.

**Anar İSGƏNDƏROV,**
***Milli Məclisin deputatı***

# YENİ AZƏRBAYCAN PARTİYASI

## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

# YAP gələcək zəfərlərin zəminidir

**1992-ci il noyabrın 21-i müasir Azərbaycanın həyatında mühüm rol oynayan, demək olar, ölkə müqəddəratının həll edildiyi günlərdən biri kimi tariximizə yazılıb. Məhz bu tarix ölkəmizdə yeni siyasi iradənin, güclü Azərbaycanın əsasının qoyulduğu gündür.**

Həmin gün Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsi ilə ölkənin siyasi həyatında yeni dövrün əsası qoyuldu. Bu həm də müasir, bütün ərazilərində suverenliyini bərpa etmiş Azərbaycan Respublikasının var olmasının və inkişafının başlanğıc tarixi kimi də dəyərləndirilə bilər. Çünki YAP-ın yaranması xalqın və müstəqilliyini yenicə əldə etmiş Azərbaycanın həyatında dönüş nöqtəsi oldu.



Xalq elə ilk günlərdən Yeni Azərbaycan Partiyasını iqtidarda görmək istəyirdi. Ona görə də yarandığı vaxtdan cəmi bir il sonra YAP xalqın mütləq əksəriyyətinin dəstəyini qazanaraq iqtidar partiyası oldu. Azərbaycan xalqı 31 ildir ki, bələdiyyə və parlament seçkilərində YAP-ı dəstəkləyir, Prezident seçkilərində də birmənalı olaraq bu partiyanın namizədinə səs verir.

Ulu Öndər Heydər Əliyevin yaratdığı partiya ötən illər ərzində daim ölkədə siyasi sabitliyin və davamlı inkişafın təminatçısı kimi çıxış etmişdir. Qısa müddət ərzində ümumxalq partiyasına çevrilmiş YAP yarandıqdan bu günə qədər çox böyük, şərəfli və uğurlu yol keçmişdir. Ulu Öndər Heydər Əliyev ideyalarının daşıyıcısı olan Yeni Azərbaycan Partiyası ötən 31 il ərzində ölkəmizin müstəqil, demokratik, sivil dövlət kimi bərqərar olmasına və möhkəmlənməsinə əvəzsiz töhfələr vermiş, Heydər Əliyevin müdrik siyasi baxışlarından və zəngin dövlətçilik təcrübəsindən bəhrələnərək öz fəaliyyətini mükəmməl siyasi mexanizmlər üzərində qurmuş, ölkənin taleyüklü problemlərinin həllində həmişə ön cərgədə olmuş, xalqın maraq və mənafelərinin keşiyində durmuşdur.

Yarandığı gündən öz siyasi xəttinə bağlılığı, xalq və dövlət qarşısındakı xidmətləri və ölkəmizin dinamik inkişafı Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki nüfuzunu artırıb və mövqeyini xeyli möhkəmləndirib. YAP eyni zamanda bölgənin ən güclü və nüfuzlu siyasi qüvvəsi kimi özünü təsdiq edib. 800 minə yaxın üzvü olan partiyamızın sıraları xüsusilə gənc nəsli təmsil edənlər tərəfindən gündən-günə genişlənir. Bu, çox sevindirici haldır, çünki gələcəyimizin etibarlı əllərdə olmasından xəbər verir.

Bu gün Azərbaycan ən güclü dövrünü yaşayırsa, məhz bu partiya rəhbərlərinin yeritdiyi düzgün siyasətin nəticəsidir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası bu gün yeni-yeni nailiyyətlərə imza atır. Birmənalı olaraq qeyd edə bilərik ki, YAP sadəcə ötən 31 ildə ölkəmizin uğurlu inkişafının aparıcı qüvvəsi deyil, həm də gələcək zəfərlərin zəminidir.

Partiyamızın üzvləri həyatın bütün sahələrində öz fəallıqları və şərəfli fəaliyyətləri ilə ön sıralarda gedirlər. Biz bunu 44 günlük Vətən müharibəsi zamanı da müşahidə etdik. Vətən müharibəsindəki Zəfərin əldə edilməsində fəallıq göstərən YAP bu gün də işğaldan azad edilmiş torpaqlarımızda aparılan quruculuq-bərpa işlərinin reallaşdırılmasında öz üzərinə düşən missiyanı şərəflə yerinə yetirmək üçün var gücü ilə çalışır. Bütün bunların fonunda isə qeyd edə bilərik ki, həqiqətən də, Ulu Öndərimizin "Yeni Azərbaycan Partiyası Azərbaycanın tək bu gününün deyil, gələcəyin partiyasıdır" fikri bu gün özünün tam təsdiqini tapıb.

***Vüqar İSGƏNDƏROV,***
***Milli Məclisin deputatı***



# Qaranlıqdan aydınlığa doğru...

**Dünyada baş verən siyasi kataklizmlər, Mixail Qorbaçovun başlatdığı uğursuz "yenidənqurma" siyasəti SSRİ-ni xaosa və siyasi böhran həddinə gətirmişdi. Müttəfiq respublikaların mərkəzdənqaçma meyli birmənalı olaraq azadlıq mübarizəsi ilə əvəzlənmişdi. Sovet imperiyası qaynar qazana bənzəyirdi.**

Yaranmış vəziyyəti fürsət bilən qüvvələr uzun illər həyata keçirə bilmədikləri niyyətlərini rellaşdırmaq üçün hərəkətə keçmişdilər. Bu işdə Mixail Qorbaçovun ətrafına toplaşan ermənilər "fəallıq"ları ilə seçilirdilər. Onlar illərdir həyata keçirə bilmədikləri arzularını həyata keçirmək - Qərbi Azərbaycanı bu torpaqların əsl sahiblərindən "təmizləmək", Qarabağı ilhaq etmək üçün ciddi hərəkətə keçmişdilər. Bunun üçün plan da hazırlanmışdı.

Amma qarşıda keçilməsi mümkün olmayan çox ciddi bir sədd var idi - Heydər Əliyev faktoru. Ermənilər bunu daha yaxşı dərk edir və qiymətləndirirdilər. İlk növbədə qarşıdakı maneəni, SSRİ rəhbərliyində yüksək vəzifə tutan, ölkədə siyasi çəkisi, ciddi nüfuzu ilə seçilən Heydər Əliyevi vəzifədən kənarlaşdırmağı, sonra da bəd niyyətlərini həyata keçirə biləcəklərini düşünürdülər.

Heydər Əliyev SSRİ rəhbərliyindən uzaqlaşandan sonra erməni separatçılar illərdən bəri reallaşdıra bilmədiklərini etdilər. 200 minə yaxın azərbaycanlını zorla öz tarixi torpaqlarından çıxarıb başlarına müsibətlər gətirdilər. Azərbaycan rəhbərliyinin xarakterindəki boşluq və təslimçilik, idarəetmədə yol verilən ciddi səhvlər, erməni separatçılarının gündən-günə fəallaşması, təkcə Qərbi Azərbaycanı deyil, Qarabağ torpaqlarını da ilhaqetmə niyyətləri xalq arasında narazılığı daha da artırırdı. İdarəetmədə bacarıqsız və təcrübəsiz respublika rəhbərliyi konkret və qətiyyətli tədbirlər görmək əvəzinə təfriqəçilik salır, xalqın diqqətini əsl hədəfdən yayındırmaq məqsədilə Ulu Öndər Heydər Əliyevin əleyhinə qərəzli, şər, böhtan dolu kampaniya aparır, onu xalqın gözündən salmaq üçün nəticəsiz və boşuna səylər göstərirdi. Belə bir şəraitdə vətənini və millətini canından artıq sevən insanlar seyrçi mövqedə dura bilməzdilər. Müxtəlif sahələrdən olan insanlar təşkilatlanmaq, xalqı düşdüyü bəladan, dövləti məhvolma təhlükəsindən xilas etməyin yeganə doğru yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişində görürdülər.

Siyasi hadisələrsə bir-birini sürətlə əvəz edirdi. 1989-cu il dekabrın 31-də əhali Naxçıvanla İran arasında olan Arazboyu sərhəd dirəklərini söküb yandıraraq bir xalqın müvəqqəti də olsa ayrılıq həsrətinə son qoydu. Naxçıvanlıların bu cəsarətli addımı ittifaq hökumətinə ciddi xəbərdarlıq olmaqla yanaşı, milli dirçəliş, milli oyanış, milli birlik və həmrəylik hisslərinin gücünün göstəricisi idi. Eyni zamanda ölkədə azadlıq hərəkatı, istiqlal mübarizəsi başlanmışdı. Xalq hərəkatına rəhbərlik edənlərin arasında isə birlik yox idi. Fürsətçilər xalq hərəkatından hakimiyyətə gəlmək üçün istifadə etməyə çalışırdılar. Yersiz intriqalar, dartışmalar əhalidə bir ümidsizlik yaradırdı. Xalq praqmatik güclü liderə, dünya siyasətindən baş çıxara bilən nüfuzlu bir şəxsiyyətə - Heydər Əlirza oğlu Əliyevə ciddi ehtiyac olduğunu hiss edirdi.

1990-cı ilin yayında Ulu Öndər Moskvadan Naxçıvana döndü. Bu dönüş vətəni, xalqı düşünən insanlar üçün bir təsəlli oldu. Hamı əmin oldu ki, xalqın ümid və nicat yeri, xilaskar oğlu artıq vətəndədir. İnsanlar Ümummilli Liderin yaşadığı evə gəlir, onunla görüşür, vətəninin parçalanmaq təhlükəsində olduğunu, ölkədə xaos və özbaşınalığın baş alıb getdiyini dilə gətirir, böyük rəhbəri xalqı düşdüyü bəladan xilas etməyə çağırırdılar. "Yoxsa bu vətən, bu millət əldən gedəcək" deyirdilər.

Azərbaycanın ozamankı rəhbərliyi isə Heydər Əliyevin xalq arasında artan nüfuzundan əndişələnib ona olan təqib və təyziqləri daha da artırmaq yolunu tutmuşdu. Ölkədə parlament seçkilərinə ciddi hazırlıq gedirdi. Hakimiyyət bütün vasitələrlə Heydər Əliyevi bu siyasi prosesdən kənarda saxlamağa çalışır və hər vəchlə ona mane olurdu. Belə bir məqamda naxçıvanlılar Babək rayonundan Azərbaycan Ali Sovetinə, Nehrəm kəndindən isə Naxçıvan Ali Məclisinə məhz Heydər Əliyevi deputat seçəcəkləri haqqında qərar verdilər. Çünki xalq artıq kimin kim olduğunu bilirdi.

Belə bir məqamda ziyalılar, ağsaqqallar, bu vətənin təəssübünü çəkən insanlar Ulu Öndər Heydər Əliyevin yanına gələrək Vətən, millət və dövlətçilik naminə siyasi bir partiya yaratmağın vacibliyini, xalqın ləyaqətli nümayəndələrinin onun ətrafında daha sıx birləşmək arzusunu ona çatdırdılar və Ulu Öndərin razılıq verməsini xahiş etdilər. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi və 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı ilə təsis konfransı keçirildi və xalqımızın xilaskar oğlu yekdilliklə bu partiyaya sədr seçildi.

Xalqın və vətənin taleyi, bu millətə təmənnasız xidmət, dövlətçiliyə olan fədakar münasibət Yeni Azərbaycan Partiyasının qurucularını xalqımızın böyük oğlu Ulu Öndər Heydər Əliyevin ətrafında sıx birləşdirdi. Artıq bu, ölkədə yeni bir siyası epoxanın başlanğıcı demək idi.

Bu gün Azərbaycan dünyada öz müstəqil siyasəti, dəst-xəti ilə tanınan güclü və qüdrətli dövlətdir. 31 il əvvəl yaranmış Yeni Azərbaycan Partiyasının dövlətimizin inkişafında, qüdrətlənməsində müstəsna xidmətləri danılmazdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Ulu Öndərin ideyalarını yaşadan partiya

**Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə onun öndə gedən ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranmışdır. Vətənin taleyini düşünən və onu üzləşdiyi ağır vəziyyətdən xilas etmək istəyən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə xalqın müdrik oğlu Heydər Əliyevə üz tutdular.**

Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş və 91 ziyalının imzası ilə göndərilən həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi.

Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və cəmiyyətdə böyük nüfuza malik şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu.

Yaşanmış tarixin müxtəlif illərində, müxtəlif dövrlərində şahidi olmuşuq ki, xalq çətin duruma düşəndə, çıxılmaz vəziyyətlərlə üzləşəndə sanki Tanrı tərəfindən ona kömək üçün böyük şəxsiyyətlər göndərilir. 1991-1992-ci illərdə də xalqımız tarixinin çətin günlərini yaşayırdı. Bir tərəfdən həmin illər hakimiyyətdə olanların səriştəsizliyi, idarəçilik təcrübəsinin olmaması, digər tərəfdən də erməni işğalçılarının torpaqlarımıza hücumları, cəbhədə müdafiənin zəif təşkil olunması ölkədə xaos yaratmışdı. Həmin vaxt xalq çətin bir durumla üz-üzə qalmışdı. Xalqımızın belə ağır bir duruma düşdüyü zamanda Tanrı Ümummilli Lider Heydər Əliyevi Azərbaycan xalqına bir xilaskar kimi göndərdi. Ölkəmizin taleyinin ağır olduğu o günlər xalqın iradəli, qətiyyətli və təcrübəli bir dövlət xadiminə, inanılmış bir liderə çox böyük ehtiyacı var idi. Xalq o ağır günlərdə dövləti və milləti yalnız əvəzolunmaz nadir şəxsiyyət Heydər Əliyev dühasının xilas edəcəyinə inanırdı. Məhz ona görə də bu dahi insana, böyük tarixi şəxsiyyətə, Ümummilli Lider Heydər Əliyevə müraciət edərək onu hakimiyyətə dəvət etdi. Daim xalqının yanında olmağa can atan Ulu Öndər Vətəninin ağır gündə dövlətçiliyimizin və millətin xilasına gəldi. Xalqımızın təkidli tələbi ilə Ulu Öndər Azərbaycanda siyasi hakimiyyətə qayıdaraq ölkəmizin uğur formulunun əsasını qoydu.

Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi ilə keçirildi. Təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsi qəbul olundu. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev YAP-ın yarandığı dövrü partiyanın VII Qurultayında çıxışı zamanı xarakterizə edərək demişdir: "Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi. O vaxt cəsarətli, qorxmaz insanlar açıq-aydın görürdülər ki, təzəcə müstəqilliyə qovuşmuş gənc ölkəmiz böyük fəlakətlə üz-üzədir və artıq ölkədə gedən proseslər idarəolunmaz xarakter alıb".

31 il öncə Ulu Öndər Heydər Əliyevin uzaqgörən ideyalarından yaranmış partiya ötən illər ərzində siyasi sabitliyin və davamlı inkişafın təminatçısı kimi çıxış etdi. Qısa müddət ərzində ümumxalq partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan bu günə qədər çox böyük, şərəfli və uğurlu yol keçdi. Bu şərəf dolu yola nəzər salıb tam inamla demək olar ki, Yeni Azərbaycan Partiyası, həqiqətən, dünənin, bu günün və sabahın partiyasıdır.

YAP-ın Proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firəvan həyatının təmin edilməsidir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında dayanan vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirir.

Ulu Öndər partiyanın uğurlu gələcəyini onun yaradılmasının ilk günlərindən, ilk illərindən görürdü. Böyük tarixi şəxsiyyət əmin idi k, Yeni Azərbaycan Partiyası müasir Azərbaycanın inkişafında davamlı və nəhəng uğurlara imza atacaq. Ümummilli Lider Heydər Əliyev partiyanın yaradılmasının onuncu ildönümü ilə bağlı tədbirdə demişdir: "Müstəqil Azərbaycan yeni Azərbaycandır. Müstəqil Azərbaycanda yeni ictimai-siyasi quruluş yaranıbdır. Yeni iqtisadiyyat formaları yaranıb, demokratiya, siyasi plüralizm inkişaf edir. Belə bir yeni Azərbaycan keçmişdə yaşadığımız, keçmişdə olan Azərbaycandan fərqlidir. Ona görə partiyamızın adı da Yeni Azərbaycan Partiyasıdır. Məhz Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır".

Ulu Öndər böyük uzaqgörənliklə onu da deyirdi ki, "Azərbaycan dünyaya günəş kimi doğacaq". Bəli, bu dahiyanə fikir illər sonra öz təsdiqini tapdı. Gündən-günə inkişaf edən Azərbaycan dünyaya bir günəş kimi doğdu. Bu gün Ümummilli Liderin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP böyük və əvəzolunmaz gücə çevrilib. Partiya üzvlərinin böyük hissəsi gənclərdir. Onlar Azərbaycanın tarixi Zəfərinin qazanılmasında da müstəsna rol oynadılar.

Bu gün əminliklə demək olar ki, yaradıcısı Ümummilli Lider olan Yeni Azərbaycan Partiyasının fəaliyyətində böyük şəxsiyyət Heydər Əliyevin ideya və arzuları yaşayır və yaşayacaqdır. Böyük Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Yeni Azərbaycan Partiyasının Sədri, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan parlaq gələcəyə doğru daha da inamla addımlayacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# YENİ AZƏRBAYCAN PARTİYASI
## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır




# Ümumxalq partiyası

**Azərbaycanın milli dövlətçilik tarixində mühüm yeri və rolu olan Yeni Azərbaycan Partiyası yarandığı 30 ildən çox bir müddətdə milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin başlıca təminatçısı kimi çıxış etmiş, hər bir ölkə vətəndaşının maraqlarını uca tutmaqla xalqın dərin etimadını qazanmışdır.**

Bu il anadan olmasının 100-cü ildönümünü qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı olan, onun ideyaları işığında təşəkkül taparaq formalaşmış bu güclü siyasi təşkilat dövlətimizlə birgə güclənmiş, boy atıb inkişaf etmişdir. Müstəqillik illərində Azərbaycanın qazandığı nailiyyətlərin hər birində bu partiyanın böyük rolu var.

Ulu Öndərin müəyyən etdiyi milli inkişaf strategiyası üzərində qurulan partiyada xalqımızın tarixi dəyərlərini qoruyan, müasir inkişafına və gələcək taleyinə görə vətəndaşlıq məsuliyyətini dərk edən insanlar bir araya gəlib. Bu güclü təşkilat cəmiyyətin sağlam qüvvələrini ətrafında toplayaraq Azərbaycanı vətəndaş qarşıdurmalarından, qandan-qadadan, xaosdan-anarxiyadan xilas edib, qanunlara, bəşəri dəyərlərə söykənən inkişafın tərəfdarı olan, bu yola dəstək verən vətəndaşları birləşdirib. Dünənin, bu günün və gələcəyin partiyası hər zaman yüksək siyasi mədəniyyətin daşıyıcısı olub, ölkədə sağlam mühit yaradıb. Bütün keyfiyyətləri ilə zəngin ənənələrə, təşkilati dəyərlərə malik olan bu partiya hazırda üzvlərinin sayına, ölkənin ictimai-siyasi həyatında fəal iştirak və təsir imkanlarına görə Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır.

### Xalqın istəyini əks etdirən müraciət

Deyirlər ki, tarixi dəyərlər o zaman əbədiyyət qazanır ki, onları dövrün, zəmanənin özü yaratmış olsun, mühitin ortaya çıxardığı zərurət formalaşdırsın. Yeni Azərbaycan Partiyasının yaranmasının elan edildiyi 1992-ci ilin 21 noyabrında Azərbaycan dövlət müstəqilliyinin bərpasının 2-ci ilinə yenicə daxil olmuşdu. Bu elə bir vaxt idi ki, təxminən 70 il davam edən təkpartiyalı sistemdən sonra cəmiyyətdə partiya bumu yaşanırdı. Çoxları yaranmış şəraitdən istifadə edib müxtəlif təşkilatlar, partiyalar yaratmağa, müəyyən siyasi dividendlər əldə etməyə çalışırdılar. İllər sonra həmin partiyaların əksəriyyəti siyasi meydanı gəldikləri kimi də tərk etdi. Çoxlarından heç bir iz də qalmadı. Yeni Azərbaycan Partiyası isə müstəqillik tariximizdəki fəal rolu, xidmətləri ilə adını tarixə əbədi yazdı. Bu da təbii idi. Çünki bu partiyanı kiminsə siyasi ambisiyası, şəxsi məqsədləri yox, tarixi zərurət yaratmışdı, zəmanə, dövr özü siyasi meydana çıxarmışdı. Bu partiya Heydər Əliyev ideyaları ilə bir araya gəlmiş sağlam düşüncəli ziyalıları birləşdirən dəyər idi, qurum sağlam təməllər üzərində formalaşmışdı.

Ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə - 1992-ci il oktyabrın 16-da 91 nəfər tanınmış ziyalı belə bir partiyanın yaradılması xahişi ilə Heydər Əliyevə müraciət edir. Ulu Öndər həmin müraciətin cavabında xüsusi qeyd edir: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər". Gətirdiyimiz bu iqtibas Yeni Azərbaycan Partiyasının fəaliyyətə başlamasını şərtləndirən tarixi şəraiti də, bu siyasi qurumun missiyasına və gələcəyinə baxışı da parlaq şəkildə əks etdirir. Eyni zamanda 1992-ci ilin payızında - müstəqilliyini yenicə qazanmış ölkənin ağır, təlatümlü günlərində belə bir siyasi təsisatın qurulmasının, ölkənin, cəmiyyətin gələcəyinə görə məsuliyyət hissinə malik insanları bir araya gətirməsinin və proseslərə həlledici təsir imkanlarına malik güc mərkəzinə çevrilməsinin nə qədər doğru qərar olduğunu göstərir.

Tarixə nəzər salsaq görərik ki, Yeni Azərbaycan Partiyasının yarandığı günlər Azərbaycanın keşməkeşli dövrü idi. Siyasi qarşıdurmalar mühitində hakimiyyəti ələ keçirmiş təsadüfi insanlar naşı davranışları, qeyri-rasional qərarları ilə ölkəni fəlakətə sürükləyirdilər. Ermənistan havadarlarının dəstəyi ilə Azərbaycan ərazilərinə işğalçı hücumlarını davam etdirir, ərazilərimiz işğal olunur, ölkədə ictimai-siyasi vəziyyət getdikcə kəskinləşir, sosial-iqtisadi böhran ağırlaşır, gündəlik dolanışığını təmin etməyə çətinlik çəkən insanların təhlükəsizliyi təhdid altına düşürdü. Hakimiyyət uğrunda bir-biri ilə mübarizə aparan silahlı qruplar vətəndaş müharibəsi doğururdular. Yanlış xarici siyasət üzündən bütün qonşularla, böyük dövlətlərlə münasibətlər pisləşirdi. Azərbaycan beynəlxalq dəstəkdən məhrum durumda, Ermənistanın və havadarlarının yaratdıqları informasiya blokadasının əhatəsində qalmışdı. İşğala məruz qalmış tərəf kimi haqlı ikən haqsız duruma düşmüşdü. Heç kim səsimizi, sözümüzü eşitmir, müstəqillik yollarında ilk kövrək addımlarını atan dövlətimizə kömək göstərib, onu rəvan inkişaf yoluna çıxarmaq istəmirdi.

Hakimiyyətdəki səriştəsiz şəxslərin milli birliyimizi pozan kobud, bacarıqsız davranışları, qərarları, yanaşmaları ucbatından ölkənin daxilində müxtəlif təxribatlara cəhd göstərilirdi. Tarixən çoxmillətli ölkə olan, müxtəlif xalqların təmsilçilərinin əsrlərboyu dinc yanaşı şəraitdə yaşayıb ortaq mədəniyyət yaratdıqları Azərbaycanda separatizm ocaqlarının alovlanmasına çalışanlar vardı. Reallıqlara əsaslanaraq deyə bilərik ki, əgər vəziyyət eyni şəkildə davam etsəydi, Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdıb Azərbaycanın gələcək taleyinə görə məsuliyyəti öz üzərinə götürməsəydi, bu təxribatları törədənlər öz məqsədinə çatacaqdı. O zaman müstəqil dövlətimizin parçalanaraq dünya xəritəsindən silinməsi ehtimalı real idi. Belə bir vaxtda 91 nəfər vətənpərvər ziyalı ölkəni böhrandan çıxara biləcək yeni bir siyasi təşkilat yaratmaq təşəbbüsü ilə çıxış etdi və bu məqsədlə xalqın sınanmış lideri və dövlət adamı, böyük siyasətçi Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdi.

### Dünənin, bu günün, sabahın partiyası

Əslində, 91 rəqəmi burada şərti səciyyə daşıyır. Azərbaycanın ən yeni tarixinə "91-lər"in Heydər Əliyevə müraciəti kimi daxil olmuş sənəd ümumilikdə bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Həmin ziyalılar isə xalqın istəklərini nəzərə alaraq ozamankı hakimiyyət rəhbərlərinin təzyiq və təhdidlərinə rəğmən cəsarət göstərib bu istəyi rəsmi şəkildə Ulu Öndərə çatdırmışdılar. "91-lər"in bu addımı Ümummilli Liderin həmin ziyalıların şəxsində xalqın səsinə səs verməsi nəticəsində dağıdıcı proseslərin qarşısını aldı. Heydər Əliyev Azərbaycanın tanınmış insanlarının və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları müraciətə müsbət cavab verərək yeni yaradılacaq siyasi partiyaya rəhbərlik missiyasını öz üzərinə götürməyə razılıq verdi. 21 noyabr 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfransda ölkəmizin bütün regionlarını təmsil edən 550 nəfərlik təşəbbüs qrupu iştirak etdi.

Yeni Azərbaycan Partiyasının Nizamnaməsinin və Proqramının qəbul edildiyi konfransda Ulu Öndər Heydər Əliyevin yekdilliklə partiyanın Sədri seçilməsi qısa müddətdən sonra Azərbaycan dövlətinin taleyinə təsir göstərən tarixi bir qərar idi. Partiyaların həyatında lider amilinin rolu müstəsnadır. Bu, Yeni Azərbaycan Partiyasında da özünü göstərdi. Cəmiyyətdə Heydər Əliyevin partiyası kimi tanınması YAP-ın böyük uğuruna yol açdı. Azərbaycanın bütün bölgələrindən on minlərlə insan qısa zamanda bu partiya ətrafında bir araya gəldi, qaragüruh düşüncədən kənar sağlam insanların həmfikirlilik mərkəzi kimi bu qurum qısa zamanda cəmiyyətin aparıcı qüvvəsinə çevrildi. Zamanla inkişaf etdi, nüfuzu ölkə hüdudlarını aşdı, ictimai-siyasi proseslərə təsir imkanları artdı, 1993-cü ildən sonra ölkəmizdə keçirilən seçkilərin əsas qalibi kimi həqiqətən "dünənin, bu günün və sabahın partiyası" oldu.

Yeni Azərbaycan Partiyası ümumxalq partiyası kimi meydana gəlmiş və 31 il ərzində bu statusu qorumuşdur. Partiyanın bu mövqeyi onun illər ərzində Azərbaycan xalqının milli vəhdət mərkəzi kimi çıxış etməsi, ölkəmizdə siyasi sabitliyin və davamlı inkişafın təmin olunmasındakı müstəsna rolu, xalqımızın dəstəyi ilə keçdiyi şərəfli və uğurlu yolla bağlıdır. Demokratik, hüquqi, dünyəvi dövlət və azad vətəndaş cəmiyyəti qurmaq məqsədilə irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən asılı olmayaraq Azərbaycan vətəndaşlarını ümumi siyasi ideya və məqsəd ətrafında birləşdirən siyasi partiya kimi Vətənə sadiqlik, ümummilli maraqlara sədaqət bu partiyanın üzvlərini səciyyələndirən əsas xüsusiyyətdir. Uzun illər ərzində partiya dövlət idarəetməsi üçün yüksək səriştəli, siyasi hazırlıqlı, səbatlı kadrlar yetişdirmişdir.

Müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri Yeni Azərbaycan Partiyasının məfkurəsinin əsasını təşkil edir. Bütün bunlar partiyanın yarandığı 31 il əvvəl də Azərbaycanın gələcəyinin təminatı idi, bu gün də belədir. Bütün bunlar partiyanın qarşısında duran taleyüklü vəzifələr kimi ideoloji birliyi təmin edir.

### İdeyanın gücü

Yeni Azərbaycan Partiyasının ən böyük uğuru onun Lider ətrafında və Liderin ideyası işığında yaranması, onlara sadiqliyidir. İnsanları bu partiya ətrafında bir araya gətirən əsas amil Heydər Əliyev şəxsiyyəti, onun Azərbaycanla bağlı amalları, nurlu ideyaları idi. Ulu Öndərin strateji inkişaf kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün Yeni Azərbaycan Partiyasının malik olduğu yüksək nüfuz, dövlətimizin nailiyyətlərinə bu partiyanın verdiyi töhfələr siyasi irsə sadiqliyin istənilən siyasi təşkilat üçün nə qədər mühüm önəm daşıdığını göstərir. Yeni Azərbaycan Partiyasının 2005-ci il 26 mart tarixdə keçirilmiş III Qurultayında partiyanın yeni Sədri - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev seçilmişdir. Ötən illər ərzində regionun lider dövlətinə çevrilən ölkəmizdə Yeni Azərbaycan Partiyası da Cənubi Qafqazın ən böyük və nüfuzlu siyasi partiyası səviyyəsinə qədər inkişaf edib. Onun 2021-ci ilin 5 mart tarixdə keçirilən VII Qurultayı zamanı Azərbaycan Prezidenti partiyanın bu gün ölkəmizin və ümumilikdə regionumuzun siyasi həyatındakı nüfuzunu düzgün qiymətləndirərək bildirirdi: "Partiyamızın VII Qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, həm də Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Yeni Azərbaycan Partiyası bundan sonra da bütün ölkəmizdə gedən proseslərin mərkəzində olacaq".

Cəmiyyətimiz indiyə qədər Azərbaycan Prezidentinin müxtəlif məsələlərə həsr olunmuş çox çıxışı ilə tanış olub. Dövlət başçısının çıxışlarında ayrı-ayrı strateji istiqamətlərdə əldə edilmiş nəticələrə verilən ədalətli qiyməti, bu günün reallıqlarının düzgün təhlilini və gələcəklə bağlı aydın planları, qarşıya qoyulmuş konkret vəzifələri görürük. Yeni Azərbaycan Partiyasının VII Qurultayındakı nitqi zamanı isə Prezident İlham Əliyev "müasir dünyamızda inkişaf məramlı güclü siyasi təşkilat necə olmalıdır, öz fəaliyyətini necə qurmalıdır" suallarını cavablandıraraq, bunun fikir mənzərəsini yaratdı. Partiyanın özünü müasir dünyamızın çağırışlarına uyğunlaşdırması üçün dəqiq vəzifələr müəyyənləşdirdi. Aydın tövsiyələr verdi. Eyni zamanda elə qurultay zamanı bu vəzifələrin yerinə yetirilməsi istiqamətində əsaslı addımlar atıldı. Bir sıra mühüm dəyişikliklər edildi.

Azərbaycan Prezidenti partiyanı yeniləşmiş formatda daha fəal olmağa, ölkəmiz qarşısında duran problemlərin həllində daha yaxından iştiraka çağırdı. Məlumdur ki, son illər ölkəmizdə köklü islahatlar aparılır. Cəmiyyət həyatının müxtəlif sahələrində əhəmiyyətli dəyişikliklər baş verir. Azərbaycan özünü qlobal inkişaf trendlərinə uyğunlaşdırır. Dünyada baş verən ardıcıl dəyişikliklərə həmahəng addımlar atır. Bir sıra mütərəqqi dəyişiklikləri tətbiq edir. Hər birimiz onların səmərəsini gündəlik həyatımızda hiss edirik. Prezident İlham Əliyev bütün bu yenilikləri siyasi islahatlar sahəsində də zəruri sayır: "Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın. Mən buna şübhə etmirəm".

### Yeni Azərbaycan Partiyası zamanla birgə yenilənir

YAP-ın 31 il ərzində daim güclənməsini, nüfuzunu, proseslərə təsir imkanlarını artırmasını, ölkəmizin inkişafına davamlı töhfələr verməsini şərtləndirən daha bir mühüm amil var. Bu partiya zamanla birgə daim yenilənir, müasir dövrün çağırışlarına çevik cavab verməyi bacarır. Cəmiyyətdə mütərəqqi ideyaları yayan, bu ideyaların reallaşması proseslərinin önündə gedən, onları həyata keçirməyə çalışan fəal insanları bir araya gətirən Yeni Azərbaycan Partiyası illərdir ki, bu sahədə də nümunə göstərir. VII Qurultayda YAP-ın yeni Nizamnaməsi qəbul olundu. 40 nəfər tərkibdə yeni İdarə Heyəti, 13 nəfərdən ibarət Təftiş Komissiyası seçildi. Bu qurultayda partiya daha bir mütərəqqi yeniliyə imza atdı. Yeni Azərbaycan Partiyasının 35 nəfərdən ibarət Veteranlar Şurası seçildi. Bu da örnək bir addımdır. Çünki istənilən siyasi partiyanın qurucuları təşkilatın inkişafına böyük əmək sərf etmiş insanlar olur. Onların həyat təcrübəsi, siyasi hazırlığı, ictimai nüfuzu partiyanın gələcək inkişafı üçün də lazımdır. Bu baxımdan Yeni Azərbaycan Partiyası tarixi ənənələrlə müasir inkişaf meyillərini özündə birləşdirən siyasi təsisatdır. Bu gün partiyanın 720 830 üzvü var.

Hazırda Yeni Azərbaycan Partiyası VII Qurultayında müəyyən edilmiş vəzifələrə uyğun olaraq gələcək məqsədlərə doğru irəliləyir. Cəmiyyətin və dövlətin müxtəlif sahələrini əhatə edən islahatların aparılmasında, yeni siyasi konfiqurasiyanın yaradılmasında və siyasi dialoqun dərinləşməsində yaxından iştirak edir, ölkəmizdə siyasi mədəniyyətin inkişafına mühüm töhfələr verir. Məlumdur ki, siyasi dialoq ideoloji fəaliyyətin önəmli istiqamətidir. YAP öz təşəbbüsləri sayəsində partiyalararası siyasi dialoqu stimullaşdırır, ölkəmizdə aparılan siyasi dialoq təcrübəsi YAP-ın təşəbbüsləri ilə zənginləşir.

Azərbaycanda qadın fəallığı ənənələrinin yüksəlişində də bu partiyanın böyük rolu var. Partiyanın Sədri cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci il 5 mart tarixdə Mehriban xanım Əliyeva partiya Sədrinin birinci müavini təyin edilib. Bu təyinat bir tərəfdən Azərbaycan dövləti və xalqı qarşısında müstəsna xidmətləri olan, yüksək təşkilatçılıq bacarığına malik Mehriban xanım Əliyevanın imkanlarından partiyanın inkişafında istifadə niyyəti ilə bağlıdırsa, digər tərəfdən də onun şəxsində ümumən Azərbaycan qadınına göstərilən yüksək etimadın, dövlət siyasətində qadına xüsusi diqqətin təcəssümüdür.

### 11 strateji hədəf

Yeni Azərbaycan Partiyası qarşısında 11 əsas strateji hədəf var: "Ulu Öndər Heydər Əliyev irsinin təbliği və təşviqi", "Güclü iqtisadiyyat və davamlı inkişaf", "İnklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı", "Şəffaflığın artırılması", "Vətəndaş cəmiyyətinin inkişafı", "Azərbaycan dili və dünya azərbaycanlılarının həmrəyliyi", "Mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması", "Vətəndaş həmrəyliyinin təminatı", "Milli maraqlar və xarici siyasət", "Ordu quruculuğu" və "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış". İqtidar partiyası olan Yeni Azərbaycan Partiyası bu hədəflərin hər birinə doğru ardıcıl addımlar atır, həyata keçirilən fəaliyyətlə əldə edilmiş nailiyyətlər daha da möhkəmləndirilir və gələcək inkişaf üçün güclü zəmin hazırlanır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Raşid Beqlaryanın Xocalı soyqırımı ilə bağlı verdiyi məlumatlar üzrə araşdırmalar aparılır

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində mövcud olmuş qanunsuz erməni silahlı birləşmələri tərəfindən ötən müddətdə törədilmiş terrorçuluq, sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri ilə bağlı kompleks araşdırmalar aparılır.**

Əvvəllər azadlıqları məhdudlaşdırılmaqla Xankəndi şəhərində yerləşən 3 saylı uşaq xəstəxanasında saxlanılmış azərbaycanlı əsirlərə və beynəlxalq humanitar hüquqla müdafiə olunan başqa şəxslərə işgəncə verməkdə, eləcə də sülh və insanlıq əleyhinə, müharibə cinayəti kimi digər ağır cinayət əməllərini törətməkdə, həmçinin qanunsuz erməni silahlı birləşmələrinin fəaliyyətində digər formada iştirak etməkdə şübhəli bilinən Beqlaryan Raşid Aramayis Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 112, 113, 115.2, 279.1 və 318.1-ci maddələri ilə ittiham olunaraq həbs edilmişdir. Qeyd olunan işgəncələrə məruz qalmış həmin şəxslər müəyyən edilərək hazırkı cinayət işi üzrə zərərçəkmiş şəxs qismində tanınmışlar.

Dindirilməsi zamanı təqsirləndirilən şəxs Raşid Beqlaryan 1992-ci ilin fevral ayında Xocalı faciəsinin törədilməsində iştirakçı olması barədə məlumat verərək bildirmişdir ki, 25 fevral 1992-ci il tarixində Ermənistan silahlı qüvvələri və onların tabeçiliyində fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin Xankəndi şəhərindən mülki əhalinin sıx yaşadığı Xocalı şəhərinə etdikləri hücum vaxtı qabaqcadan qurulmuş plana uyğun olaraq, sağ qalmış azərbaycanlı dinc sakinlərə təhlükəsiz qaydada Əsgəran rayonundan keçməklə Ağdam rayonu istiqamətində gedə biləcəklərinə dair yalan vədlər verilmiş, 26 fevral 1992-ci il tarixində özünün də daxil olduğu həmin silahlı birləşmələr azərbaycanlıları kütləvi qırğına məruz qoymaq məqsədilə Qarqarçayın sahili boyunca Ağdam rayonuna doğru hərəkət edən, əksəriyyəti qadın, uşaq və yaşlı insanlardan ibarət 200 nəfərədək mülki şəxsi Əsgəran qalasına yaxın ərazidə pusquya salaraq avtomat silahlardan atəş açmaqla qətlə yetirmişlər. Cinayətkar dəstə üzvləri tərəfindən həlak olanların üzərilərindəki şəxsi əşyalar talan edildikdən sonra onların meyitləri Əsgəran qalası ətrafında basdırılmışdır.

İfadənin yerində yoxlanılması istintaq hərəkəti zamanı Raşid Beqlaryan mülki əhaliyə qarşı cinayət əməllərinin törədildiyi yerləri əyani şəkildə göstərərək bu barədə ətraflı məlumat vermişdir.

Hazırda qeyd olunan cinayət əməlləri ilə bağlı araşdırmalar davam etdirilir.

*Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidməti*

# Avropa ilə Asiya arasında yolları qısaldan polad magistral

## Bakı-Tbilisi-Qars dəmir yolunun təməlinin qoyulmasından 16 il keçir

**Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun təməlinin qoyulduğu gündən 16 il keçir. 2007-ci il noyabrın 21-də Gürcüstanın Marabda kəndində bu möhtəşəm dəmiryolu xəttinin çəkilişinə start verilməsi tarixi əhəmiyyət daşıyırdı.**



Çünki bu, Avrasiya məkanı üçün yeni bir yüksəliş layihəsi, qədim İpək Yolunun polad magistrallar üzərində bərpası demək idi.

Bu layihənin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və eyni zamanda bu coğrafiyada yerləşən türkdilli ölkələrin inteqrasiyasında mühüm əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır. Bakı-Tbilisi-Qars layihəsinin əsas üstünlüklərindən biri də odur ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur.

BTQ dəmiryolu xətti Bakıdan başlayaraq Gürcüstanın Tbilisi və Axalkalaki şəhərlərindən keçməklə Türkiyənin Qars şəhərinə gedir. Dəmir yolunun tikintisinə dair saziş 2007-ci il fevralın 7-də Tbilisidə imzalanıb. Qeyd edildiyi kimi, həmin ilin noyabrında xəttin təməli qoyulub. 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirilib. Ümumi uzunluğu təxminən 850 kilometr olan BTQ-nin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstandan keçir. Yolun 79 kilometri isə Türkiyə ərazisindədir.

BTQ-nin tikintisinə 2005-ci ildə başlanması nəzərdə tutulsa da, həmin dövrdə maliyyə mənbələrinin olmaması işi ləngitdi. Erməni lobbisi bu dəmir yolunun Ermənistandan kənar keçdiyinə görə "qəzəb"li olduğundan beynəlxalq maliyyə qurumlarının layihəyə vəsait ayırmasına maneə törədirdi. Belə olan halda dəmiryol xəttinin tikintisinin maliyyələşdirilməsini Azərbaycan öz üzərinə götürdü. Bu məqsədlə Azərbaycan Gürcüstana ildə çox kiçik faiz dərəcəsi ilə kredit verdi.

Başqa sözlə, belə möhtəşəm bir xəttin işə düşməsi Azərbaycan Prezidenti İlham Əliyevin düzgün strategiyası, siyasi və iqtisadi uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Qeyd edək ki, BTQ-dən əvvəl ölkəmiz Gürcüstanın və Türkiyənin ərazisindən keçən, Azərbaycan neftini və qazını dünya bazarlarına daşıyan Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərlərini çəkmişdi. Bakı-Tbilisi-Qars dəmir yolunun uğuru da məhz ondan əvvəl icra edilmiş həmin qlobal layihələrə söykənirdi. Müstəqillik tariximizin möhtəşəm layihələrindən olan BTQ-ni reallaşdırmaqla Azərbaycan növbəti dəfə təsdiqlədi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə regional və qlobal əhəmiyyətli layihələri uğurla həyata keçirə bilər.

2017-ci il oktyabrın 30-da BTQ-nin Ələtdə keçirilən açılış mərasimində dövlətimizin başçısı layihənin keçdiyi yoldan və perspektivlərindən danışaraq demişdir: "Bir çoxları, xüsusilə bəzi xarici dairələr Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə inanmırdılar. Hesab edirdilər ki, bunun reallaşması mümkün deyil, bunun reallaşması üçün lazım olan texniki imkanlar və maliyyə vəsaiti imkan verməyəcək ki, bu layihə gerçəkləşdirilsin. Ancaq üç ölkə göstərdi və sübut etdi ki, bu, mümkündür. Bizim güclü iradəmiz, qarşılıqlı dəstək, bir-birimizə inam olan yerdə bütün işləri görmək mümkündür. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi bunun əyani misalıdır".

Prezident bu dəmir yolu layihəsinə Orta Asiya ölkələrinin, o cümlədən Qazaxıstanın böyük maraq göstərdiyini qeyd etmişdi. Bildirmişdi ki, yüklərin daşınması istiqamətində əlavə imkanlar yaranacaq və Orta Asiya ölkələri ilə ənənəvi dostluq əlaqələri də bu dəmir yolu vasitəsilə möhkəmləndiriləcək. Avropa üçün də bu yolun böyük əhəmiyyəti var: "Azərbaycan ərazisində "Şimal-Cənub" dəmir yolu layihəsi ilə bağlı bütün işlər tamamlanıb, yəni, bütün infrastruktur hazırdır. Eyni zamanda Azərbaycan digər ölkələrdə infrastrukturun yaradılması ilə bağlı öz texniki və maliyyə imkanlarını ortaya qoyur. Biz indi "Şimal-Cənub" və Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizlərinin inteqrasiyası istiqamətində işləyirik, çalışırıq və hesab edirəm ki, bu, mümkündür. Əminəm ki, gələcəkdə "Şimal-Qərb" və "Cənub-Qərb" nəqliyyat yolları istifadəyə veriləcəkdir. Bu iki nəhəng layihə bir çox böyük ölkələri birləşdirəcək".

İndi bunlar danılmaz gerçəklikdir. BTQ Çindən Avropaya və əks istiqamətdə müstəsna əhəmiyyəti olan Orta Dəhlizin fəaliyyətini təmin etmişdir. Bu, təkcə üç ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı iki dəfədən çox qısaltmağa imkan verir, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

2017-2022-ci illərdə BTQ xətti ilə 1 milyon 347 min 585 ton, təkcə ötən il isə 432 min 284 ton yük daşınıb. Bu marşrut üzrə yükdaşımaların əhəmiyyətli dərəcədə artırılması qarşıda duran mühüm vəzifələr sırasındadır.

Beləliklə, Avropa ilə Asiyanı birləşdirən və dünyanın 100 böyük layihəsi siyahısına daxil olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amilə çevrilib. Bu həm də layihənin icrasında nadir əməkdaşlıq formatı göstərən üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı əlaqələrin strateji təzahürünü bütün dünyaya nümayiş etdirir.

***Flora SADIQLI,*** 
***"Azərbaycan"***

# Daha 25 ailə Zabuxa qayıtdı

## Böyük qayıdış sürətlə gerçəkləşir

**44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərdən sonra dövlətimizin prioritetlərindən biri də işğaldan azad edilmiş ərazilərimizi bərpa və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını tam təmin etməkdir. Ötən üç il ərzində reallaşdırılan layihələr onu deməyə əsas verir ki, dövlətimiz tərəfindən qarşıya qoyulan vəzifələr mərhələli şəkildə həyata keçirilir.**






Ötən il Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən Böyük qayıdışla bağlı 2022-2026-cı illəri əhatə edən Dövlət Proqramının əsas hədəfi ilk beş ildə 34 min 500 ailəni azad edilmiş ərazilərə köçürməkdir. Bu istiqamətdə tədbirlər uğurla və mərhələli şəkildə həyata keçirilir.

Bu günədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndlərinə, 325 ailə (1245 nəfər) Laçın, 258 ailə (928 nəfər) Füzuli şəhərlərinə, 96 ailə (382 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Ümumilikdə 3516 keçmiş məcburi köçkün dədə-baba yurduna qovuşub.

### Doğma yurdlarına qovuşan zabuxlular

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçına keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən rayonun Zabux kəndinə növbəti 25 ailə - 91 nəfər qayıdıb. Bununla da indiyədək kənddə 96 ailənin, yəni 382 nəfərin daimi məskunlaşması təmin edilib.

Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Doğma yurdlarına qovuşan zabuxlular hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

31 ildən sonra yenidən doğma kəndinə qədəm qoyan ailələr sevinc göz yaşlarını saxlaya bilməyiblər. Onlar Böyük qayıdışı gözləyən digər keçmiş məcburi köçkünlərə də bu günü yaşamalarını arzulayıblar. "Doğma elimizə, obamıza qovuşduğumuz üçün ailəmlə birlikdə çox sevincliyəm. Biz 30 ildir bu günün həsrətində idik", - deyə Zabuxa qovuşan keçmiş məcburi köçkün Murad Vəlizadə bildirib.

Zabux sakini Dilbər Behbudova isə deyib ki, bu xoş günlərin gələcəyinə həmişə ümid edirmiş: "Çox sevinirəm ki, Prezident İlham Əliyevin uğurlu siyasəti məni arzuma çatdırdı. Zabux kəndi mənim üçün çox əzizdir. Şükürlər olsun ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Vətən övladlarının şücaəti sayəsində öz doğma yurdumuza qayıdırıq".

***Ülkər XASPOLADOVA,*** 
***"Azərbaycan"***

# Sülh müqaviləsi niyə bağlanmır

**Məntiqlə Ermənistan 44 günlük Vətən müharibəsində uğradığı ağır məğlubiyyətdən sonra sülh müqaviləsi bağlamalı idi. Ona görə ki, uzun illər ərzində apardığı işğalçı siyasət ucbatından dalan dövlətinə çevrilmiş, bölgənin iqtisadi cəhətdən ən geridə qalan ölkəsi durumuna düşmüşdür. Belə vəziyyətdən çıxmaq üçün Azərbaycana qarşı olan əsassız iddiasından əl çəkib sülhlə bağlı qərar verməliydi.**

Ağlı başında olan hər kəs bilir ki, Ermənistanın düşdüyü acı durumdan çıxış yolu Azərbaycan və Türkiyə ilə yaxşı münasibətlər qurmasından asılıdır. Bu iki ölkə müharibə başa çatan kimi qonşu dövlətə sülh təklifi etdi. İstədiyi də münasibətlərin beynəlxalq hüquq normalarına uyğun tənzimlənməsi oldu. Dünya təcrübəsindən məlumdur ki, qalib ölkənin irəli sürdüyü hər hansı bir şərt məğlub ölkə üçün məcburidir. Azərbaycan isə bunun əksinə, beynəlxalq qanunları özündə ehtiva edən 5 maddəlik təkliflə çıxış etdi.

Buna baxmayaraq, Ermənistan sülh müqaviləsini imzalamaq istəmir. Səbəb nədir? Birincisi, məsələnin kökü qonşu ölkənin özündə baş verən daxili proseslərlə bağlıdır. Belə ki, orada mövcud olan revanşist qüvvələr barışıq istəmir. Əksinə, sərsəm ideologiyadan zəhərlənən erməni siyasətçiləri "qədim, tarixi torpaqları azad etmək" fikrinə düşüblər.

İkinci səbəb sovetlər birliyi dağılandan bu günədək qonşu ölkənin müstəqil ölkə kimi formalaşa bilməməsidir. Tarixi Azərbaycan torpağında süni şəkildə yaradılan, heç bir dövlətçilik ənənəsi olmayan Ermənistan istər regionda, istərsə də dünya siyasətində yerini müəyyənləşdirə bilmir. Gah Rusiyaya, gah da Qərbə köklənən bu ölkənin sabit, milli mənafeyə uyğun xarici siyasəti yoxdur, göründüyü kimi, onun mütləq bir hamisi olmalıdır. Ermənistanın uzaq görməyən siyasəti həmişə başına bəla olub. Hazırda Ermənistanla Rusiya arasında baş verən proseslər də bununla bağlıdır. Uzun illər şimal qonşumuzdan eninə-boluna istifadə edən Hayastan indi də ona qarşı çıxır. Rusiyanın qəzəbinin qonşu ölkədə hansı təlatümlərə səbəb olacağını isə zaman göstərəcək.

Tarixə nəzər yetirdikdə görürük ki, dünyanı idarə edən ölkələr həmişə ermənilərdən öz məqsədləri üçün istifadə etmişlər və bu gün də həmin proses davam edir. Böyük dövlətlərin daim erməniləri himayə etməsi onlarda bir arxayınlıq, daha doğrusu, yekəxanalıq yaradıb. Elə Rusiya ilə münasibətlərin korlanması da bununla bağlıdır. Ermənistanın 44 günlük Vətən müharibəsi dövründə istəyi bu olub ki, Rusiya onların əvəzinə Azərbaycanla müharibə etsin. Bu isə mümkünsüz idi. Birincisi, biz beynəlxalq hüquqla tanınmış ərazimizdə müharibə aparmışıq və başqa ölkə buna qarışa bilməzdi. İkincisi, Azərbaycanla Rusiya arasında yaxşı münasibətlər var və şimal qonşumuz bundan imtina etmək istəmədi. Üçüncüsü isə, bu ölkənin siyasi və hərbi elitası yaxşı başa düşür ki, Cənubi Qafqazın aparıcı ölkəsi Azərbaycandır və onunla münasibətləri korlamaq olmaz. İndi ermənilər bunu bəhanə edib Rusiyadan aralanıb Qərbə yaxınlaşır.

Qərbin istəyi isə bölgədən Rusiyanı sıxışdırıb çıxarmaqla buraya hakim olmaqdır. Gürcüstan, necə deyərlər, bu oyuna gedib, sonunun nə ilə bitdiyini yaxşı bilir. Ona görə də "süddən ağzı yanan suyu üfürə-üfürə içər" məsəlinə əməl edir. Yəni Rusiya ilə yenidən kontrantasiyaya getmir. Azərbaycan isə əvvəldən milli mənafeyinə uyğun müstəqil siyasət aparır, nə Rusiyanın, nə də Qərbin istəyini yerinə yetirir.

Hazırda Qərblə Rusiya arasındakı siyasi münasibətlər daha da gərgindir. Fələstin-İsrail müharibəsində Rusiya açıq şəkildə Qərbə meydan oxuyaraq Fələstinin tərəfini tutdu. Qərbin hədəfində isə Rusiyanın sərhədində yeni bir münaqişə ocağı yaradıb onu beynəlxalq siyasət meydanından uzaqlaşdırmaqdır. Artıq heç kəsə sirr deyil ki, Rusiya-Ukrayna müharibəsinin də əsl səbəbi budur.

Bu gün sülh müqaviləsinin bağlanmamasının, regionumuzda gərginliyin artmasının səbəbi də Qərbin bu siyasətindən qaynaqlanır. Əslində, Azərbaycanın bu il sentyabrın 19-da Qarabağ İqtisadi Zonasında apardığı lokal xarakterli antiterror tədbiri müharibəyə son qoyulması demək idi. Reallıq və məntiq bunu göstərir. Bəs nə baş verdi? Başda Fransa olmaqla Birləşmiş Qərb ölkəmizi "etnik təmizləmə"də günahlandırmağa və Azərbaycanın əleyhinə sanksiyalar qəbul etməyə çalışır. Bu məsələ BMT-də və Avropanın müxtəlif regional təşkilatlarında müzakirə edilib. Ancaq ölkəmizin atdığı bütün addımların beynəlxalq qanunlara uyğun olduğu üçün heç bir ciddi sənəd qəbul etdirə bilmirlər.

İndi Qərbdə Azərbaycanın Ermənistana hücum edəcəyi barədə rəsmi bəyanatlar səsləndirilir. Qərb mətbuatı bunu geniş şəkildə tirajlayır. Bu vəziyyət Rusiya-Ukrayna müharibəsindən əvvəlki dövrü xatırladır. İndi həmin qüvvələr eyni üsuldan bizə qarşı istifadə edirlər. Baxmayaraq ki, Prezident İlham Əliyev ölkəmizin belə niyyətinin olmadığını bəyan edib.

Avropa İttifaqının aparıcı simaları olan Şarl Mişelin və Cozef Borrelin anti-Azərbaycan mövqeyi tutması, bizə qarşı, guya, "etnik təmizləmə" aparmağımız, üstəlik, tezliklə Ermənistana hücum edəcəyimizlə bağlı qaralama kampaniya aparması Qərbin xoş olmayan niyyətindən xəbər verir. Fransa Ermənistanı revanşist müharibə aparmağa sövq etmək üçün silahlandırır. Bununla yanaşı, Avropa İttifaqının başqa ölkələrə hərbi dəstək üçün nəzərdə tutulan Sülh Fondundan Ermənistana yardım ayırmaq istəyirlər. Qurumun adı Sülh Fondu olsa da, revanşist müharibə aparılması üçün yardım göstərəcək. Bu, sülhdən, demokratiyadan, insan haqlarından dəm vuran Qərbin əsl simasıdır.

Torpaqlarımız işğal altında olanda Amerika həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edirdi. Nədənsə Azərbaycan öz ərazi bütövlüyünü təmin etdikdən sonra bu ölkə çox narahat olub. İlk dəfə Azərbaycanın Ermənistana təcavüz edəcəyi barədə yalanı da bu ölkənin rəsmiləri bildirmişlər. Üstəlik, ABŞ Konqresinin Xarici Əlaqələr Komitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda dinləmələr keçirilir və orada həqiqətə uyğun olmayan absurd fikirlər səsləndirilir.

Bununla bağlı Xarici İşlər Nazirliyi noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində səsləndirdiyi birtərəfli və qərəzli fikirlərə münasibət bildirib. ABŞ Dövlət katibinin köməkçisinin "Azərbaycanın gücdən istifadə etməsi etimadı sarsıdıb və Bakının Ermənistanla hərtərəfli sülhə sadiqliyinə şübhələr yaradıb" fikrini səsləndirib. Onun sözündən belə çıxır ki, Azərbaycan hələ 30 il də əlavə mənasız sülh danışıqları aparmalıdır. Yəni güc tətbiq edib torpaqlarımızı işğaldan azad etməməliydik. Amerika tərəfindən 1992-ci ildə qəbul edilən 907-ci düzəliş ədalətsizlik olub. Belə ki, həmin düzəliş təcavüzə məruz qalan və torpaqları işğal olunan Azərbaycana qarşı sanksiyaların tətbiqini özündə ehtiva edir. İndi də qüvvəsi dayandırılmış həmin düzəlişi "diriltmək" istəyirlər.

Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanmamasının iki əsas səbəbi var. Birincisi, Qərbin Rusiyanı bölgədən çıxarıb, burada yerləşmək istəyi. Bunun üçün də qonşu ölkədən alət kimi istifadə edir. İkincisi, Zəngəzur dəhlizinə nəzarəti ələ keçirməkdir. Ona görə ki, Rusiyanın Ukraynadan Avropa bazarına gedən yolu bağlanıb. Bu üzdən Zəngəzur dəhlizinin açılmasında da maraqlıdır. Eyni zamanda Çin ticarətinin böyük hissəsini okean və dənizlər üzərindən həyata keçirir. Bu yollara isə ABŞ donanması nəzarət edir. Bu üzdən Çin Orta Dəhliz və onun bir qolu olacaq Zəngəzur dəhlizinə maraq göstərir. Birləşmiş Qərb bu yola da nəzrəti ələ keçirməyə çalışır. Sülh müqaviləsinin qarşısında duran ən böyük maneə bunlardır.

Erməni mediasının verdiyi məlumata görə, Nikol Paşinyan noyabrın 16-da parlamentdəki çıxışında "Ermənistan xaricdə işlənib hazırlanmış və nəzərdə tutulmuş planların həyata keçirilməsi üçün tramplin və plasdarm deyil" fikrini səsləndirib. O bunu desə də, 44 günlük Vətən müharibəsindən sonra həyata keçirdiyi siyasətdən görünür ki, N.Paşinyan müstəqil qərar verə biləcək siyasətçi deyil. Sülh müqaviləsinin bu günə qədər bağlanmamasının əsas səbəblərdən biri də budur. Ona desələr sənədi imzala, imzalayacaq, imzalama desələr, sonsuza qədər bəhanələr uyduracaq.

İndi də Qarabağdan könüllü köçən ermənilərin haqq və hüquqlarını müdafiə etmək adı altında Azərbaycana soxulmağa çalışırlar. Ancaq onlar Prezident İlham Əliyevin qəti müqavimətinə rast gəliblər, bu istəklərinə nail ola bilmirlər. Üstəlik, dövlətimizin başçısının dediyi kimi, Azərbaycanın XXI əsrin ən döyüşkən ordusu var. Xalq-dövlət birliyi də Qərbin bəd əməlləri qarşısında duran ən böyük sipərdir. Onların nə deməsinin isə bizim üçün heç bir əhəmiyyəti yoxdur.

Azərbaycana qarşı yeni müharibə başlamaq, bizi təsir altına almaq istəyənlərə Prezident İlham Əliyev noyabrın 8-də Xankəndidə keçirilən hərbi paradda qəti xəbərdarlığını etdi: "İstənilən müstəvidə müharibədə biz döyüşməyə hazırıq".

***Rüstəm KAMAL,*** 
***"Azərbaycan"***

# İtaliya-Azərbaycan elektrik enerjisi sahəsində mühüm razılaşmalar əldə edilib






**Bu ilin fevral ayında Prezident İlham Əliyev və İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolf Ursonun iştirakı ilə təməli qoyulan və Azərbaycanın müstəqillik dövründə tikilən ən böyük elektrik stansiyasında işlər "Azərenerji" tərəfindən sürətlə davam etdirilir.**

"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Mingəçevirdəki "Azərbaycan" İstilik-Elektrik Stansiyasının ərazisində inşa edilən 1280 meqavatlıq yeni elektrik stansiyasına artıq İtaliyanın "Ansaldo Energia" şirkəti tərəfindən istehsal olunan 2 qaz turbini və 2 generator gəmiyə yüklənərək Azərbaycana göndərilib və Bakıdakı limandan ən ağır yüklərin daşınmasını həyata keçirən xüsusi qoşqulu vasitələrlə Mingəçevirə daşınıb. Qeyd edək ki, hər birinin çəkisi 300-400 ton olan turbin və generatorlar yolboyu körpülərin altından xüsusi tədbirlər görülərək keçirilib. Beləliklə, "Ansaldo Energia" şirkəti tərəfindən göndərilən 2 dəst turbin və generatorlar artıq yerinə qoyulub, 2 dəsti isə hazırda sifarişə uyğun olaraq İtaliyada yığılır və gələn ilin ilk aylarında göndəriləcək.

Bu arada İtaliyanın "Ansaldo Energia" şirkətinin rəhbəri Fabbrizio Fabrinin rəhbərlik etdiyi nümayəndə heyəti yeni tikilən elektrik stansiyasına gəlib. Qonaqlar öncə "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayevin iştirakı ilə Mingəçevirdəki "Azərbaycan" İstilik-Elektrik Stansiyasının həyətində ucaldılmış Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar. Sonra rekonstruksiya edilən bloklara, tikinti ərazisinə baxış keçiriblər, işin gedişatı ilə tanış olublar. İtaliya-Azərbaycan dostluğu, işin gedişi, tikinti-quraşdırma işləri ilə bağlı keçirilən iclasda "Ansaldo" ilə "Azərenerji" arasında köməkçi avadanlıqların istehsalı, kadr mübadiləsi, ehtiyat hissələrin hazırlanması və digər məqamlarla bağlı geniş fikir mübadiləsi aparılıb.

Səfərin sonunda "Ansaldo Energia" şirkətinin nümayəndə heyəti ADA Universitetində olublar və İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində ADA Universiteti, "Azərenerji" ASC, "Ansaldo Energia" və Turin Universiteti arasında anlaşma memorandumu imzalanıb. Razılaşmaya əsasən, "Azərenerji" ASC-nin Şüvəlandakı "Şimal" Elektrik Stansiyasının ərazisində Tədris və Laboratoriya Mərkəzi yaradılacaq. Burada qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, rəqabətqabiliyyətli, yüksəkixtisaslı peşəkar kadrların hazırlanması təmin ediləcək.

# "Doğu Akdeniz-2023" beynəlxalq təliminə hazırlıq məşqləri keçirilib

**Türkiyə Respublikasının Marmaris şəhərində "Doğu Akdeniz-2023" beynəlxalq təliminə hazırlıq məşqləri keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimə cəlb edilən heyət zəbt olunmuş gəmiyə baxışın keçirilməsi, eləcə də şərti düşmən arxasına helikopterdən enmə üzrə tapşırıqları praktiki yerinə yetirib.

Qeyd edək ki, qardaş ölkədə keçirilən "Doğu Akdeniz-2023" beynəlxalq təlimində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin Dəniz Xüsusi Təyinatlılar dəstəsinin bir qrup şəxsi heyəti iştirak edir.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC tabeliyində olan gəmilər üçün yağ və yanacaq sayğaclarının satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 noyabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC tabeliyində olan gəmilər üçün mühərrik starterlərinin satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 noyabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.**

***Tender komissiyası***


# 10 ayda 31 qətl

## 2023-cü il ABŞ-də "ən ölümcül il" kimi qeydə alına bilər




**ABŞ polisi Tennessi ştatının Memfis şəhərində bir neçə yerdə atəş açan, 3 qadın və 13 yaşlı qızın qətlində şübhəli bilinən şəxsi axtarır. Bildirilir ki, 3 qadın və 13 yaşlı qızın öldürülməsi və daha bir yeniyetmənin yaralanmasından sonra şübhəli şəxsin axtarışı davam etdirilir.**

52 yaşlı Mavis Kristian qətlləri törətməkdə şübhəli bilinir və o, silahlı və son dərəcə təhlükəlidir. Polisin açıqlamasına görə, atışmalardan biri ilkin olaraq məişət zorakılığı kimi təsnif edilir. Cinayəti törədən şəxs hələ də azadlıqdadır, odur ki, qurbanların sayı arta bilər.

Bundan əvvəl noyabrın 18-də ABŞ-nin Nyu-Hempşir ştatında Konkord şəhərindəki psixiatriya xəstəxanasında atışma baş verib və nəticədə iki nəfər həlak olub. Cinayətkar klinikanın dəhlizinə daxil olaraq mühafizəçini güllələyib. Bundan sonra hadisə yerinə gələn polis əməkdaşı onun özünü öldürüb. Polis tez bir zamanda atəş açan şəxsin 33 yaşlı Con Madora olduğunu müəyyən edib. Baş prokurorun dediyinə görə, şübhəli şəxs evsiz olub və bir müddət əvvəl sahildəki hoteldə vaxt keçirib.

Ötən ayın 25-də Men ştatında baş verən atışma isə 2023-cü ilin ən böyük qırğını olub. Son məlumatlara görə, qanlı olay zamanı 18 nəfər həlak olub, daha 13 nəfər yaralanıb. "Fox News"un məlumatına görə, atışma şəhərin iki yerində - restoranda və bowlinq meydançasında baş verib.

Androskoqqin dairəsinin şerifi Erik Samson bildirib ki, silahlı şəxs boulinq meydançasına girib və yaxınlıqdakı bara getməzdən əvvəl insanlara fərq qoymadan atəş açmağa başlayıb. Cinayətkar hələ də tutulmadığı üçün təhlükə qalır.

Bəzi məlumatlara görə, şübhəli şəxs polis skanerinə malikdir və bunun sayəsində onu axtaran hüquq-mühafizə orqanlarının əməkdaşlarının hərəkətlərindən xəbərdar olur.

Güllə yaralarından ölüm ABŞ-də ən çox rast gəlinən hadisələrdən biridir və son 20 ildə ölənlərin sayı ildən-ilə artır. Belə ki, Silah Zorakılığı Arxivinin statistikasına əsasən, 2022-ci ildə ölkədə atışmalar nəticəsində 43,6 min, 2021-ci ildə isə 45 min nəfər həlak olub və ya yaralanıb. Bunlardan 6 mindən çoxu 17 yaşa qədər olan yeniyetmələrdir.

Təşkilatın məlumatına görə, 2023-cü ilin 10 ayı ərzində ABŞ-də 31 kütləvi qətl hadisəsi qeydə alınıb və insanlara 565 dəfə atəş açılıb. Bildlrilir ki, mövcud templər davam edərsə, 2023-cü il son 10 ildə kütləvi atışmaların və onların qurbanlarının sayına görə "ən ölümcül il" olacaq.

2023-cü ildə KFF-nin (əvvəllər Kaizer Ailə Fondu kimi tanınırdı) sorğusuna görə, hər beş amerikalıdan birinin ailə üzvü ya odlu silahla öldürülüb, ya da özünü güllələyib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimliyə bacısı

**XAVƏR ƏMİRASLANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin Sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Milli Məclisin Sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid Milli Məclisin Sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Humanitar fənlər kafedrasının müdiri Həbib Mirzəyevə qardaşı

**NAZİR ADİL OĞLU MİRZƏYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və komitənin üzvləri Milli Məclisin Sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Zaqatala rayon prokuroru Rasim Musayevə atası

**BƏBİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Milli Məclisin Sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının (şəhər, qəsəbə və kənd) rəhbərliyi və əməkdaşları Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının sədr müavini, Samux rayon Sərkar bələdiyyəsinin sədri Şəmistan Yusifova həyat yoldaşı

**ŞƏLALƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5328
Sifariş 3049

Qiyməti 40 qəpik